## Günün sözü

**Prezident İlham Əliyev:**

**Elə bilməsinlər ki, biz daim onlardan sülh tələb edəcəyik. Əgər Ermənistan buna hazır deyilsə, onda bu, olmayacaq. Olmasa nə olacaq? Heç nə. Biz nə itirəcəyik? Heç nə itirməyəcəyik, nə bu gün, nə sabah. Amma itirən tərəf Ermənistan olacaq.**

### Ermənistanın təxribatı nəticəsində 3 hərbi qulluqçumuz şəhid olub



Səhifə ⇨ 9

### Xalq öz müdrik qərarını verəcək



Səhifə ⇨ 10


# Xalq qəzeti

Xalqın qəzeti!

№ 75 (30191) 12 aprel 2023-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

veb-sayt: www.xalqqazeti.az


## Bosniya və Herseqovina ilə əməkdaşlığın potensialı yüksəkdir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 11-də Bosniya və Herseqovinanın təhlükəsizlik naziri Nenad Neşiçin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin siyasi sahədə çox yaxşı səviyyədə olduğu bildirildi, əlaqələrimizin müxtəlif istiqamətlərdə uğurla inkişaf etdiyi qeyd olundu və bu əlaqələrin genişləndirilməsi üçün önəmli addımların atıldığı vurğulandı.

Söhbət zamanı yüksək səviyyədə keçirilən görüşlərin münasibətlərimizin inkişafı və perspektivlərin müzakirəsi baxımından önəmi qeyd edildi, əməkdaşlığın daha da genişləndirilməsi üçün yaxşı potensialın mövcud olduğu bildirildi, Bosniya və Herseqovinanın təhlükəsizlik naziri Nenad Neşiçin ölkəmizə səfərinin bu işə töhfə verəcəyinə ümidvarlıq ifadə edildi.

Görüşdə COVID-19 dövründə, həmçinin Bosniya və Herseqovinada baş vermiş daşqınlar zamanı Azərbaycanın göstərdiyi dəstək bir daha yüksək qiymətləndirildi.

***AZƏRTAC***

## Monteneqronun yeni seçilmiş Prezidenti Zati-aliləri cənab Yakov Milatoviçə

**Hörmətli cənab Milatoviç!**

Monteneqronun Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Azərbaycan-Monteneqro dostluq və əməkdaşlıq əlaqələri xoş ənənələrə malikdir. İnanıram ki, xalqlarımızın mənafelərinə uyğun olaraq dövlətlərarası münasibətlərimizin daha da möhkəmləndirilməsi, əməkdaşlığımızın genişləndirilməsi istiqamətində birgə səylər göstərəcəyik.

Sizə ən xoş arzularımı yetirir, möhkəm cansağlığı, xoşbəxtlik, dost Monteneqro xalqının rifahı naminə qarşıdakı məsul fəaliyyətinizdə uğurlar diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 11 aprel 2023-cü il**

## Qazaxıstanın Azərbaycana Qarabağ dəstəyi

### *yaxın tarixə ötəri baxış*

**Azərbaycan Prezidenti İlham Əliyevin Qazaxıstana rəsmi səfəri bir sıra vacib dövlət sənədlərinin imzalanması, mühüm məsələlərin razılaşdırılması ilə yanaşı, daha çox hər iki ölkənin əməkdaşlığının dostluq və qardaşlıq əsaslarının yüksək səslə bəyan edilməsi ilə yadda qaldı. Atalarımız yaxşı deyib ki, dost dar gündə tanınar. Yaxın tariximizdə Azərbaycan üçün dar günlər az olmayıb. Ümumiləşdirmə aparsaq, bu baxımdan, Ermənistanın otuz ilə yaxın müddətdə davam etmiş işğalını göstərə bilərik. Qazaxıstanın işğala münasibəti necə olub, Azərbaycanı necə dəstəkləyib, hazırkı mövqeyi nədən ibarətdir, bu barədə söz açacağıq.**

Əvvəla, bu obyektiv məqamı vurğulamağa ehtiyac var ki, Qazaxıstanın postsovet ölkəsi olaraq, Qarabağ münaqişəsində Türkiyə kimi tam açıq şəkildə Azərbaycanın maraq və mənafelərinin müdafiəçisi qismində çıxış etməsi mümkün deyildi. Burada söhbət yalnız ondan getmirdi ki, rəsmi Astana Ermənistanla münasibətlərini gərginləşdirmək istəməyib. Məsələ problemin daha çox Rusiyanın orbitinə daxil olması kontekstində izah edilə bilər və Qazaxıstan mövzunu kifayət qədər soyuq tərzdə qiymətləndirib. Ancaq ölkə bu reallığa rəğmən, Azərbaycanı yetərincə dəstəkləməyi də bacarıb.

*(ardı 3-cü səhifədə)*



## Şuşa, sən əbədi bizimsən!

Bundan sonra heç bir qüvvə bizi bu şəhərdən ayıra bilməyəcək

Səhifə ⇨ 8

## Qazaxıstan enerji sahəsində mötəbər tərəfdaşdır

Səhifə ⇨ 7



Səhifə ⇨ 6

Tehran Azərbaycanla bağlı məkrli niyyətindən əl çəkməlidir

### Ekoloji marafon çağdaş vətənpərvərlik salnaməsidir



Səhifə ⇨ 6



Səhifə ⇨ 2

Mehriban xanım Əliyevanın təşəbbüsü ilə iftar süfrəsi açılıb

### Dünyəvi dövlətin düşməni – “Hüseyniyyun”



Səhifə ⇨ 4



Səhifə ⇨ 10

Qardaşlıq körpüsü

### UNESCO erməni vandalizminə niyə göz yumub?



Səhifə ⇨ 6



Səhifə ⇨ 3

Kölgəsindən qorxan “lider”

### Avropa ölkəmizin zəngin “yaşıl hidrogen” ehtiyatına böyük maraq göstərir



Səhifə ⇨ 7

## Ermənistandan oyunbazlıq – Roma Statutuna qarşılıq KTMT missiyası

Səhifə ⇨ 4

# Ə.Ş.Həsənovun “Şərəf” ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında dövlət qulluğunda uzunmüddətli səmərəli fəaliyyətinə görə Əli Şamil oğlu Həsənov “Şərəf” ordeni ilə təltif edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 11 aprel 2023-cü il**

# C.H.Paşazadənin “Şərəf” ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə Cavanşir Hümmət oğlu Paşazadə “Şərəf” ordeni ilə təltif edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 11 aprel 2023-cü il**

# A.M.Abbasovun 1-ci dərəcəli “Vətənə xidmətə görə”ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə Aqil Məhəmməd oğlu Abbasov (Aqil Abbas) 1-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 11 aprel 2023-cü il**

# S.Ə.Seyidəhmədlinin Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Samir Əhməd oğlu Seyidəhmədli Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini təyin edilsin.

**2.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 11 aprel 2023-cü il**

# N.D.Aslanovun 1-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə Novruzəli Davud oğlu Aslanov 1-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 11 aprel 2023-cü il**

# “Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”nın təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində, “Sosial sığorta haqqında”, “Tibbi sığorta haqqında”, “Dövlət rüsumu haqqında”, “Məhkəmə-Hüquq Şurası haqqında” və “İnzibati icraat haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2021-ci il 9 iyul tarixli 360-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

“Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”nın təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 765, № 9, maddə 1650, № 10, maddə 1789, № 12 (I kitab), maddələr 2314, 2321; 2018, № 1, maddə 54, № 2, maddələr 200, 219, № 3, maddələr 416, 430, 448, № 5, maddələr 916, 919, № 6, maddə 1243, № 9, maddələr 1828, 1840, № 11, maddələr 2274, 2289, № 12 (I kitab), maddələr 2540, 2587, 2601; 2019, № 1, maddə 82, № 2, maddə 216, № 3, maddə 431, № 4, maddə 620, № 5, maddələr 819, 824, 835, 866, № 7, maddə 1221, № 8, maddə 1388, № 10, maddələr 1581, 1587, № 11, maddələr 1700, 1710; 2020, № 3, maddə 252, № 5, maddələr 538, 564, № 6, maddələr 710, 714, № 7, maddələr 865, 880, № 8, maddə 1032, № 11, maddə 1345, № 12 (I kitab), maddə 1484; 2021, № 1, maddə 33, № 6 (I kitab), maddə 566, № 8, maddə 921, № 12, maddələr 1407, 1423; 2022, № 4, maddələr 305, 306, 323, 329, № 7, maddə 728, № 10, maddə 1146, № 11, maddələr 1251, 1267, 1269; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 yanvar tarixli 1978 nömrəli, 31 yanvar tarixli 2009 nömrəli və 3 mart tarixli 2051 nömrəli fərmanları) aşağıdakı dəyişikliklər edilsin:

1. 4-cü hissədə “74-cü” sözləri “74-1-ci” sözləri ilə, “iki ay müddətində təsdiq edib” sözləri “müəyyən etsinlər və” sözləri ilə əvəz edilsin.

2. Həmin Fərmanla təsdiq edilmiş “Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”na aşağıdakı məzmunda 74-1-ci hissə əlavə edilsin:

“74-1. Məcəllənin 602-2.5-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol yerli icra hakimiyyəti orqanı adından – yerli icra hakimiyyəti orqanının başçısı, onun müavinləri, şöbə müdiri, onun müavini, sektor müdiri.”.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 11 aprel 2023-cü il**

# “Azərbaycan Respublikasında dövlət daktiloskopik və genom qeydiyyatı haqqında” Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1197-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 24 avqust tarixli 232 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** “Azərbaycan Respublikasında dövlət daktiloskopik və genom qeydiyyatı haqqında” Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1197-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 24 avqust tarixli 232 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 8, maddə 1682) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.3-cü bənddən “maddəsində (ikinci halda), 14.4-cü” sözləri çıxarılsın;

1.2. 2.5.2-ci yarımbənddə “, 14.1.3-cü və 14.2-ci maddələrində” sözləri “maddəsində” sözü ilə əvəz olunsun və həmin yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin;

1.3. aşağıdakı məzmunda 2.5.3-cü yarımbənd və 2.6-cı bənd əlavə edilsin:

“2.5.3. həmin Qanunun 14.1.3-cü və 14.2-ci maddələrində göstərilən şəxslərə münasibətdə - Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasına qarşı hərbi təcavüz nəticəsində, o cümlədən ərazilərin işğaldan azad olunması dövründə xəbərsiz itkin düşmüş şəxslərin bioloji qohumlarına və işğaldan azad olunmuş ərazilərdə aşkar edilmiş naməlum meyitlərə münasibətdə isə Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti;

2.6. həmin Qanunun 14.4-cü maddəsində (ikinci halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasına qarşı hərbi təcavüz nəticəsində, o cümlədən ərazilərin işğaldan azad olunması dövründə xəbərsiz itkin düşmüş şəxslərin bioloji qohumlarına və işğaldan azad olunmuş ərazilərdə aşkar edilmiş naməlum meyitlərə münasibətdə isə Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti həyata keçirir.”.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 11 aprel 2023-cü il**

# “Avtomobil nəqliyyatı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 24 fevral tarixli 831-VIQD nömrəli Qanununun tətbiqi və “Avtomobil nəqliyyatı haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 4 iyul tarixli 792 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Avtomobil nəqliyyatı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 24 fevral tarixli 831-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Müəyyən edilsin ki:

1.1. “Avtomobil nəqliyyatı haqqında” Azərbaycan Respublikası Qanununun 1.0.8-1-ci, 48.1-ci, 48.1-1-ci maddələrində, 48.1-2-ci maddəsinin ikinci cümləsində, 48.1-3-cü maddəsinin birinci cümləsində, 48.1-4-cü, 48.1-4.1-ci, 48.1-4.2-ci, 48.1-5-ci, 48.1-6-cı və 48.2-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 48.1-2-ci maddəsinin ikinci cümləsində və 48.2-ci maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.3. həmin Qanunun 48.1-ci maddəsində nəzərdə tutulmuş orqanın (qurumun) səlahiyyətlərini (iriqabaritli və ağırçəkili nəqliyyat vasitələrinin hərəkət vaxtı və hərəkət sürəti, habelə iriqabaritli və ağırçəkili nəqliyyat vasitələrinin həmin Qanunun 48.1-1-ci maddəsinə uyğun olaraq avtonəqliyyat vasitələri ilə müşayiət edilməsi tələb olunduqda, hərəkət marşrutu Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi ilə razılaşdırılmaqla) Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi həyata keçirir;

1.4. həmin Qanunun 1.0.8-1-ci maddəsində, 48.1-3-cü maddəsinin birinci cümləsində və 48.1-4-cü maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzərdə tutulur;

1.5. həmin Qanunun 48.1-1-ci və 48.1-4.1-ci maddələrində “orqan (qurum)” dedikdə iriqabaritli və ağırçəkili nəqliyyat vasitələrinin müşayiət avtomobili ilə müşayiət olunmasına münasibətdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, mühafizə avtomobili ilə müşayiət olunmasına münasibətdə isə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi nəzərdə tutulur;

1.6. həmin Qanunun 48.1-4.2-ci, 48.1-5-ci və 48.1-6-cı maddələrində “orqan (qurum)” dedikdə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi nəzərdə tutulur.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. “Avtomobil nəqliyyatı haqqında” Azərbaycan Respublikası Qanununun 48.1-2-ci maddəsinin ikinci cümləsinə uyğun olaraq, iriqabaritli və ağırçəkili nəqliyyat vasitəsinin mühafizə və müşayiət avtomobilləri ilə müşayiət olunmasına və hərəkət marşrutunun müəyyən olunmasına görə xidmət haqqının məbləğini bir ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. “Avtomobil nəqliyyatı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 24 fevral tarixli 831-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

**3.** “Avtomobil nəqliyyatı haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 4 iyul tarixli 792 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 7, maddə 610; 2009, № 10, maddə 779; 2016, № 4, maddə 661, № 6, maddə 1064, № 11, maddə 1840; 2017, № 6, maddə 1083; 2018, № 12 (I kitab), maddə 2600; 2019, № 5, maddə 838, № 8, maddə 1408; 2020, № 5, maddə 544; 2021, № 1, maddə 17, № 6 (I kitab), maddə 593; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 3 mart tarixli 2047 nömrəli və 30 mart tarixli 2076 nömrəli fərmanları) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1-ci bəndə “Qanununun” sözündən sonra “1.0.8-1-ci,” sözləri əlavə olunsun və həmin bənddə “və 59-cu maddəsində” sözləri “, 48.1-ci, 48.1-1-ci maddələrində, 48.1-2-ci maddəsinin ikinci cümləsində, 48.1-3-cü maddəsinin birinci cümləsində, 48.1-4-cü, 48.1-4.1-ci, 48.1-4.2-ci, 48.1-5-ci, 48.1-6-cı, 48.2-ci və 59-cu maddələrində” sözləri ilə əvəz edilsin;

3.2. 2.1-1-ci bənddən “48.2-ci maddəsində,” sözləri çıxarılsın;

3.3. aşağıdakı məzmunda 2.1-2-ci, 2.3-1-ci və 2.3-2-ci bəndlər əlavə edilsin:

“2.1-2. həmin Qanunun 48.1-2-ci maddəsinin ikinci cümləsində və 48.2-ci maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;”;

“2.3-1. həmin Qanunun 1.0.8-1-ci maddəsində, 48.1-3-cü maddəsinin birinci cümləsində və 48.1-4-cü maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzərdə tutulur;

2.3-2. həmin Qanunun 48.1-ci maddəsində nəzərdə tutulmuş orqanın (qurumun) səlahiyyətlərini (iriqabaritli və ağırçəkili nəqliyyat vasitələrinin hərəkət vaxtı və hərəkət sürəti, habelə iriqabaritli və ağırçəkili nəqliyyat vasitələrinin həmin Qanunun 48.1-1-ci maddəsinə uyğun olaraq avtonəqliyyat vasitələri ilə müşayiət edilməsi tələb olunduqda, hərəkət marşrutu Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi ilə razılaşdırılmaqla) Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi həyata keçirir;”;

3.4. 2.2-ci bənddən “48.1-ci,” sözləri çıxarılsın;

3.5. 2.3-cü bənddə “beynəlxalq avtomobil daşımalarını yerinə yetirən xarici dövlətlərdə qeydiyyatda olan nəqliyyat vasitələrinə sərhəddə “İcazə” blankları verildiyi hallarda Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi, digər hallarda isə Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar” sözləri “Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat” sözləri ilə əvəz edilsin;

3.6. 2.6-cı bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 2.7-ci və 2.8-ci bəndlər əlavə edilsin:

“2.7. həmin Qanunun 48.1-1-ci və 48.1-4.1-ci maddələrində “orqan (qurum)” dedikdə iriqabaritli və ağırçəkili nəqliyyat vasitələrinin müşayiət avtomobili ilə müşayiət olunmasına münasibətdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, mühafizə avtomobili ilə müşayiət olunmasına münasibətdə isə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi nəzərdə tutulur;

2.8. həmin Qanunun 48.1-4.2-ci, 48.1-5-ci və 48.1-6-cı maddələrində “orqan (qurum)” dedikdə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi nəzərdə tutulur.”.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 11 aprel 2023-cü il**

# Mehriban xanım Əliyevanın təşəbbüsü ilə iftar süfrəsi açılıb





**Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə aprelin 11-də Xəzər rayonunda iftar süfrəsi açılıb.**

Tədbirdə “Qurani-Kərim”dən ayələr oxunub, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olan Vətən övladlarının əziz ruhuna dualar edilib, Ramazan ayının fəzilətlərindən və savablarından danışılıb.

Vətən müharibəsi şəhidi Ramin Yusifzadənin anası Reyhan Yusifova, Aprel döyüşlərinin və Vətən müharibəsinin iştirakçısı, ehtiyatda olan zabit Emil Həsənov Azərbaycan dövlətinin şəhid ailələrinə, aztəminatlı ailələrin üzvlərinə, qazilərə diqqət və qayğısından danışıb, minnətdarlıqlarını bildiriblər. Qeyd edilib ki, bu qəbildən olan şəxslər daim Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın diqqət və qayğısı ilə əhatə olunublar. Belə tədbirlərin təşkili də məhz bu diqqət və qayğının, mənəvi dəstəyin bir ifadəsidir.

***AZƏRTAC***



# Qazaxıstanın Azərbaycana Qarabağ dəstəyi

(əvvəli 1-ci səhifədə)

Rəsmi Astana münaqişənin nizamlanması üçün dəfələrlə çağırış edib. Qazaxıstan Azərbaycan ərazilərinin Ermənistan qoşunları tərəfindən işğalına qarşı çıxmaq üçün siyasi addımlar atıb. Məsələn, Azərbaycanla ərazi ziddiyyətlərini hələ də həll etməməsi səbəbindən, vaxtilə Ermənistanın Avrasiya İqtisadi İttifaqına qəbuluna maneçilik törədib. Bundan sonra İrəvan və Astana arasında daim diplomatik gərginlik yaşanıb. Bir ara erməni siyasətçilər, hətta, Ermənistanla eyni hərbi qurumda olan və daha çox Azərbaycanla əməkdaşlıq edən, Bakıya dəstək nümayiş etdirən Qazaxıstanı Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından (KTMT) çıxarmağa çağırışlar da səsləndiriblər.

Bəli, Qazaxıstan hər zaman bəyan edib ki, Azərbaycan və Ermənistan arasındakı münaqişəli durum beynəlxalq hüququn norma və prinsipləri əsasında həllini tapmalıdır. Beynəlxalq hüquq isə təbii ki, Azərbaycanın tərəfində olub. Ümumən, hələ ötən əsrin 90-cı illərindən Qazaxıstan Azərbaycanın ərazi bütövlüyünün bərpasının tərəfdarı olduğunu bəyan etməsi ilə diqqət çəkib. Yəni, sözümüz ondadır ki, rəsmi Astana ölkəmizə dəstək baxımından üzərinə düşən hər şeyi edib.

***

Tarixə nəzər salaraq Prezident İlham Əliyevlə Qazaxıstanın o zamankı dövlət başçısı Nursultan Nazarbayevin 2011-ci ildə keçirilmiş görüşünü xatırlayaq. Həmin görüşdə N.Nazarbayev bildirmişdi ki, Ermənistan–Azərbaycan münaqişəsi, Qarabağ problemi, 1 milyon qaçqın, məcburu köçkün, ərazilərinin işğalı ilə əlaqədar yaranmış bütün çətinliklərə baxmayaraq, ötən iyirmi il ərzində Azərbaycan nailiyyətlər qazanıb. Burada vurğu "ərazilərin işğalı" ifadəsinin işlənməsi üzərinə qoyulmalıdır. Nəzərə alaq ki, ölkəmizdə müsbət qiymətləndirilmiş bu ifadə də Ermənistanın siyasi dairələrində kifayət qədər geniş mənfi rezonans doğurmuşdu.

Bundan əvvəl, yəni 2010-cu ildə isə ATƏT-ə sədrlik etməyə başlayan Qazaxıstan "dondurulmuş münaqişələr"in həllinə xüsusi diqqət yetirmişdi. Təşkilatın fəaliyyətdə olan o zamankı yeni sədri, Qazaxıstanın Xarici İşlər naziri Kanat Saudabayev regiona səfəri çərçivəsində, ilk olaraq, Azərbaycana baş çəkmiş, səfərin yekunları ilə bağlı keçirdiyi mətbuat konfransında bildirmişdi ki, 2010-cu il Qarabağ münaqişəsinin həllində dönüş ili olacaq. Əlbəttə, heç də hər şey cənab Saudabayevin arzuladığı kimi baş verməsə də, burada əsas məsələ niyyətin ifadəsidir. Başqa sözlə desək, Qazaxıstanın ATƏT-ə sədrliyinin verdiyi imtiyazı ölkəmizin haqq işi naminə istifadə etmək məramına söykənməsi bizim üçün çox önəmli idi. Həmin an konkret nəticənin əldə edilib-edilməməsi bir o qədər əhəmiyyətli deyildi.

Ümumən, onu da vurğulamaq yerinə düşər ki, Qazaxıstan üçün ərazi bütövlüyü, separatizm problemi aktual əhəmiyyət daşıyıb. Nəzərə alaq ki, müxtəlif illərdə bəzi marjinal rus siyasətçiləri tez-tez Qazaxıstana qarşı da ərazi iddiaları irəli sürüblər. Ona görə Astana üçün sərhədlərin toxunulmazlığı prinsipləri ilə əlaqəli olan dəyişməz beynəlxalq hüquq son dərəcə önəmli faktora çevrilib.



Qazaxıstanın 44 günlük müharibəyə qədərki Qarabağ mövqeyindən bəhs edərkən, ölkənin münaqişə zonasında atəşkəs rejiminin pozulması hallarına münasibətini də yada salmalıyıq. Bu baxımdan, 2016-cı ilin Aprel döyüşləri dövrünü xüsusi qeyd etməyə ehtiyac var. Həmin vaxt Qazaxıstanın Xarici İşlər Nazirliyi bəyanatla çıxış etmişdi. Sənəddə tərəflər təmkin nümayişinə və atəşin dayandırılması haqqında razılaşmaya ciddi riayət etməyə çağırılmaqla yanaşı, bildirilmişdi ki, rəsmi Astana ATƏT-in (artıq keçmiş olan) Minsk qrupunun Qarabağ probleminin nizama salınması üzrə səylərini dəstəkləyir, münaqişənin yalnız sülh yolu ilə həllinin zəruriliyini təsdiqləyir.

Qeyd etmək lazımdır ki, 2016-cı ilin Aprel döyüşləri Azərbaycanın öz torpaqlarını işğaldan qurtarmaq naminə hərbi güc amilini işə sala bilməsinin ilk böyük nümayiş meydanı idi. O vaxtadək erməni siyasi dairələri hesab edirdilər ki, Bakı hərbi yola üstünlük verə bilməz. Lakin 2016-cı ildən sonra onlar bu qənaətin yanlışlığını anladılar. Bu anlayış isə istər-istəməz, özlərinə hami axtarışına çıxmaq zərurətini yetişdirdi. Məhz həmin dönəmdə Azərbaycanın hərbi yola əl atacağı təqdirdə, KTMT-nin Ermənistana dəstək verməsi ilə bağlı diskussiyalar başladı. Yəni, İrəvanın KTMT-ni Azərbaycana qarşı hərbi müdaxiləyə cəlb etmək istəyi yalnız 44 günlük müharibədən sonrakı dövrün mənzərəsi deyil.

Müharibədən əvvəlki zaman kəsiyinə diqqət yetirərkən, 2017-ci ilin iyulunda Qazaxıstanın Ermənistandakı o zamankı səfiri Timur Urazayevin açıqlamasını xatırlamaq zərurəti yaranır. Səfir kifayət qədər açıq tekstlə bildirmişdi ki, Qarabağ münaqişəsinin KTMT-yə aidiyyəti yoxdur və münaqişə beynəlxalq hüquqa uyğun olaraq danışıqlar yolu ilə həllini tapmalıdır: "Qazaxıstanın mövqeyi belədir: biz Dağlıq Qarabağı qeyd edilən təşkilatla əlaqələndirmirik, çünki bu, regional münaqişədir və beynəlxalq hüquqa uyğun olaraq həll edilməlidir".

***

Artıq Azərbaycan torpaqlarının işğalı başa çatıb və Qazaxıstan işğaldan azad edilmiş ərazilərimizin bərpasında iştirak edir. Bu baxımdan, Prezident İlham Əliyevin Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevlə mətbuata bəyanatlarla çıxış edərkən, səsləndirdiyi bir fikrin üzərində dayanmaq istərdik: "Mən, həmçinin Qazaxıstan Prezidentinin işğaldan azad edilmiş Füzuli şəhərində qazax xalqının böyük oğlu Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin yaradılması təşəbbüsünə görə təşəkkürümü bildirmək istərdim. Mərkəzin tikintisi artıq başlanıb. Bu, Qazaxıstanın Azərbaycana hədiyyəsidir, Azərbaycan xalqı bunu heç vaxt unutmayacaq".

Qeyd edək ki, Azərbaycan Prezidenti eyni fikirləri, bir qədər də əhatəli şəkildə, ötən il avqustun 24-də Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev ölkəmizdə səfərdə olarkən mətbuata bəyanatında da bildirmişdi: "Fürsətdən istifadə edib Qazaxıstan Prezidentinə işğaldan azad edilmiş Füzuli şəhərində Uşaqların Yaradıcılığının İnkişafı Mərkəzinin yaradılması təşəbbüsünə görə bir daha təşəkkürümü bildirmək istərdim. Bu gün həmin mərkəzin təqdimatı keçirildi və biz Qazaxıstanda keçmiş məcburi köçkünlərin qayıtması probleminə nə dərəcədə səmimi münasibət bəsləndiyini, bu problemin Qazaxıstan üçün də nə dərəcədə aktual olduğunu bir daha gördük. Bu təşəbbüsə görə çox təşəkkür edirik. Bu, dostluğun, qardaşlığın, həmrəyliyin təzahürüdür. Əminəm ki, qazax xalqının böyük oğlu Kurmanqazının adını daşıyacaq Uşaqların Yaradıcılığının İnkişafı Mərkəzi həm də Qazaxıstan–Azərbaycan dostluğu mərkəzi olacaq".

Bəli, işğaldan azad edilmiş Azərbaycan torpaqlarının bərpasına töhfə verməyin özü ölkəmizin mövqeyinin müdafiəsidir ki, Qazaxıstan bunun tam təmənnasız, özü də xeyli dərəcədə rəmzi anlam daşıyacaq nümunəsini də ortaya qoymaqdadır. Amma, Prezident Tokayevin də bildirdiyi kimi, Qazaxıstan və Azərbaycan müxtəlif çoxtərəfli strukturlar çərçivəsində səmərəli qarşılıqlı fəaliyyət göstərir, bir sıra aktual beynəlxalq və regional məsələlərdə oxşar mövqelər tuturlar: "Bu baxımdan, qeyd etmək istəyirəm ki, Qazaxıstan ənənəvi olaraq Azərbaycan ilə Ermənistan arasında qarşılıqlı münasibətlərin diplomatik yollarla nizamlanmasının tərəfdarıdır, habelə tezliklə sülh müqaviləsi bağlanmasına dair səyləri alqışlayır. Bütövlükdə regionda sabitliyin və təhlükəsizliyin möhkəmlənməsi üçün qarşılıqlı dəstəyin davam etdirilməsinin və birgə tədbirlər görülməsinin zəruriliyi eyni qaydada anlaşılır".

Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşması məsələsində Qazaxıstanın mövqeyinə görə Prezident Tokayevə təşəkkür edən Prezident İlham Əliyevin mətbuata bəyantında bildirdikləri Qazaxıstanın bölgədə dayanıqlı sülhün təminatında maraqlı olması reallığına adekvatdır. Burada bir məqam da ayrıca qeyd edilməlidir. Dövlətimizin başçısı Qazaxıstanın beynəlxalq arenada nüfuzunu, ən mühüm qlobal məsələlərə dair ölçülüb-biçilmiş, prinsipial mövqeyini xüsusi vurğulayır. Cənab İlham Əliyev, məhz bu baxımdan, mətbuata bəyanatında Azərbaycan və Ermənistan arasındakı danışıqlar prosesinin indiki statusu barədə həmkarını məlumatlandırır: "Biz normallaşma əzmindəyik və İkinci Qarabağ müharibəsi başa çatandan sonra məhz Azərbaycan sülh müqaviləsi üzərində işə başlamağı təklif etdi. Praktiki olaraq bu iş başlanıb, amma bizim istədiyimiz kimi rəvan getmir. Lakin bunun alternativi yoxdur. Hətta 30 illik işğala və Azərbaycan xalqının məruz qaldığı məhrumiyyətlərə, hazırda bərpa etməli olduğumuz dağıntılara baxmayaraq, qonşular arasında münasibətlər normal olmalıdır. Bununla belə, biz gələcəyə baxırıq və hesab edirik ki, suverenlik, ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı, BMT-nin Nizamnaməsi, beynəlxalq hüququn bütün əsas normaları və prinsipləri əsasında sülh müqaviləsinə nail olmaq mümkündür, bu müqavilə çoxillik düşmənçilik səhifəsini çevirəcək".

Əlbəttə, Cənubi Qafqazda dayanıqlı sülh üçün düşmənçiliyə son qoyulması vacibdir. Amma 44 günlük müharibədən ötən müddət göstərir ki, Ermənistan sülh istəmir. 2022-ci ilin sentyabrında baş vermiş irimiqyaslı hərbi toqquşma da bunun təsdiqi idi. Yeri gəlmişkən, qeyd edək ki, o vaxt Ermənistanın xahişi ilə Qazaxıstanın da üzv olduğu KTMT-nin vəziyyətlə bağlı onlayn toplantısı çağrılmışdı. Sentyabrın 13-də keçirilmiş toplantıda çıxış edən Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev tərəflərə güc tətbiqindən əl çəkməyə və danışıqlara başlamağa çağırış etmişdi.

Ermənistan baş naziri Nikol Paşinyanın Azərbaycanın, guya, suveren Ermənistanın ərazi bütövlüyünü pozması iddiasını irəli sürərək, KTMT-ni ölkəmizə qarşı qaldırmaq cəhdlərinə cavab olaraq, Qazaxıstanın dövlət başçısı son dərəcə prinsipial məqama toxunmuşdu. Bildirmişdi ki, iki Cənubi Qafqaz ölkəsi arasında sərhədlər dəqiqləşmədiyindən, KTMT-nin təsir dairəsini müəyyənləşdirmək qeyri-mümkündür. Faktiki olaraq, bu mövqe də real müstəvidə Azərbaycana dəstəyin ifadə olunması idi.

Göründüyü kimi, Qazaxıstan Azərbaycanla dost və qardaşlığa sadiqlik xəttini son dərəcə düşünülmüş şəkildə ifadə və müdafiə etməyin bariz nümunəsini yaratmış ölkə olduğunu göstərməkdədir. Bu, həm də ortaq türk mədəniyyətinə, türk milli kimliyinə bağlılıqdan irəli gələn bənzərsiz örnəkdir. Ümid edək ki, Azərbaycan–Qazaxıstan əlaqələri perspektivdə daha ciddi uğurlara imza atacaqdır. Bunun üçün Azərbaycan və qazax xalqlarının yüksək iradəsi, aralarında dərin səmimiyyət mühiti var. Bu mühitin mövcudluğu isə hər iki dövlətin və xalqın misilsiz sərvətidir.

***Ə.CAHANGİROĞLU,***
***"Xalq qəzeti"***

## "Fövqəladə vəziyyət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 fevral tarixli 824-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Fövqəladə vəziyyət haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2004-cü il 19 iyul tarixli 90 nömrəli, "Fövqəladə vəziyyət haqqında" Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə" 2005-ci il 19 yanvar tarixli 175 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

# *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Fövqəladə vəziyyət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 fevral tarixli 824-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Müəyyən edilsin ki:

1.1. "Fövqəladə vəziyyət və sosial xarakterli fövqəladə mühit haqqında" Azərbaycan Respublikası Qanununun 2-3.3-cü maddəsinin birinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini sosial xarakterli fövqəladə mühit rejimi Azərbaycan Respublikasının bütün ərazisində tətbiq edildiyi halda Azərbaycan Respublikasının Prezidenti, ayrı-ayrı yerlərdə tətbiq edildiyi halda isə Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

1.2. həmin Qanunun 2-3.3-cü maddəsinin ikinci cümləsində və 2-3.6-cı maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla həyata keçirir;

1.3. həmin Qanunun 2-2.3-cü maddəsinin birinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. üç ay müddətində:

2.1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Fövqəladə vəziyyət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 fevral tarixli 824-VIQD nömrəli Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.1.2. "Fövqəladə vəziyyət və sosial xarakterli fövqəladə mühit haqqında" Azərbaycan Respublikası Qanununun 2-3.3-cü maddəsinin ikinci cümləsinə uyğun olaraq, sosial xarakterli fövqəladə mühitin aradan qaldırılması üzrə komissiyanın (qərargahın) fəaliyyəti qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

2.1.3. həmin Qanunun 2-3.6-cı maddəsinə uyğun olaraq, sosial xarakterli fövqəladə mühit rejiminin tətbiqi zamanı həmin fövqəladə mühitin aradan qaldırılması üzrə tədbirlərin növləri və həyata keçirilməsi qaydasını və dövlət ehtiyatlarının yaradılması, istifadə edilməsi və bərpası qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin.

2.2. "Fövqəladə vəziyyət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 fevral tarixli 824-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

**3.** "Fövqəladə vəziyyət haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 19 iyul tarixli 90 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 7, maddə 529) aşağıdakı dəyişikliklər edilsin:

3.1. adına, preambulaya və 2.1-ci bəndə "vəziyyət" sözündən sonra "və sosial xarakterli fövqəladə mühit" sözləri əlavə edilsin;

3.2. aşağıdakı məzmunda 2.1-1-ci və 2.1-2-ci bəndlər əlavə edilsin:

"2.1-1. həmin Qanunun 2-3.3-cü maddəsinin birinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini sosial xarakterli fövqəladə mühit rejimi Azərbaycan Respublikasının bütün ərazisində tətbiq edildiyi halda Azərbaycan Respublikasının Prezidenti, ayrı-ayrı yerlərdə tətbiq edildiyi halda isə Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

2.1-2. həmin Qanunun 2-3.3-cü maddəsinin ikinci cümləsində və 2-3.6-cı maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla həyata keçirir;";

3.3. 2.2-ci bəndə "Qanunun" sözündən sonra "2-2.3-cü maddəsinin birinci cümləsində," sözləri əlavə edilsin.

**4.** "Fövqəladə vəziyyət haqqında" Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 19 yanvar tarixli 175 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 1, maddə 9; 2017, № 12 (I kitab), maddə 2303; 2020, № 3, maddə 248) adına, preambulasına və 1.1-ci bəndinə "vəziyyət" sözündən sonra "və sosial xarakterli fövqəladə mühit" sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 11 aprel 2023-cü il**



# Kölgəsindən qorxan "lider"

**Son vaxtlar Ermənistan baş naziri Nikol Paşinyana qarşı sui-qəsd ehtimalının artması ilə bağlı informasiyalar çoxalmaqdadır. Hələlik bu barədə rəsmi məlumatlar mövcud olmasa da, proseslərin gedişatı, xüsusilə də sadə vətəndaşların sui-qəsdçi kimi polis nəzarətinə götürülməsi bu ehtimalın kifayət qədər real olduğunu göstərir.**

### Kremlin hədəfində

Hazırda Ermənistan baş nazirini narahat edən ən böyük amil Rusiyanın onu qətlə yetirməkdə maraqlı ola biləcəyi ehtimalıdır. Əslində, Paşinyanın Rusiya faktorundan bunca narahat olmasına kifayət qədər əsas var. Təkcə onu xatılrlatmaq kifayətdir ki, məhz Paşinyanın səyi ilə Avropa İttifaqının yarıhərbi, yarımülki missiyası Ermənistanda yerləşib və bütün bölgə ilə bağlı müşahidələr aparmaqdadır.

Paşinyanın 44 günlük müharibədəki məğlubiyyətə görə Rusiyanı ittiham etməsi, onu "satqın" adlandırması, Rusiya sülhməramlılarının fəaliyyətini "yarıtmaz" hesab etməsi, habelə, hər addımda Kremlin regiondakı nüfuzuna zərbə vurması da erməni baş nazirini Rusiya üçün arzuedilməz şəxslər sırasına daxil edir. Məhz bu səbədən də Paşinyan yaxın keçmişdə Rusiyaya qarşı səsləndirdiyi "cəsarətli" çıxışlara görə qorxuya düşməkdə, sui-qəsd ehtimalından ciddi narahatlıq keçirməkdədir.

Bu baxımdan, aprelin 7-də Paşinyanın Putinə zəng etməsi, regionla bağlı müzakirələr aparması Ermənistanın baş nazirinin yenidən Moskvaya yarınmaq cəhdi kimi qiymətləndirilə bilər. Çox güman ki, Paşinyan söhbət əsnasında özünü bu gün də Rusiyanın bölgədəki ən sadiq tərəfdaşı kimi təqdim etməyə, bundan sonra da Moskvaya lazım ola biləcəyi təəssüratı formalaşdırmağa çalışıb. Halbuki, bütün fakt və sübutlar bu gün Cənubi Qafqazda Rusiya üçün ən böyük problemin məhz Ermənistan olduğunu göstərir.

### "Generallar xofu"

Ermənistan baş nazirinin suq-qəsdlə bağlı təlaşının digər bir səbəbi orduda böyük nüfuza malik olan və Moskva ilə yaxınlığına görə seçilən generallarla bağlıdır.

*(ardı 4-cü səhifədə)*

(əvvəli 3-cü səhifədə)

# Kölgəsindən qorxan "lider"

Xatırladaq ki, 44 günlük müharibədən sonra Ermənistan ordusundakı generalların bir qismi müxtəlif ittihamlarla həbs edilib, bir qisim general isə istefaya göndərilib. Paşinyan müharibədəki məğlubiyyəti bəhanə edərək ordu daxilində öz maraqları konteksində bəzi "təmizlik işləri" həyata keçirsə də, Ermənistan ordusunda Rusiyaya rəğbət bəsləyən generallar bu gün də öz mövcudluğunu qoruyub saxlamaqdadırlar. Paşinyana görə, sui-qəsd təşəbbüsünün bu generallardan gəlmək ehtimalı kifayət qədər böyükdür.

Paşinyanın ruspərəst generallara "məğlub" etiketi əlavə etməsi erməni ictimaiyyətinin, xüsusilə də millətçi kəsimin ciddi narazılığına səbəb olub. Paşinyanı qorxaq sərkərdə, bacarıqsız diplomat hesab edən erməni millətçiləri onun yeni, "daha cəsur" və "səriştəli" liderlə əvəzlənməsini vacib hesab edir. Bu baxımdan, indiki məqamda Paşinyanın qətli və siyasi hakimiyyətin yeni fiqurla əvəzlənməsi millətçi kəsimin maraqları baxımından sosial sifariş kimi meydana çıxır. Bu səbəbdən də Paşinyan, haqlı olaraq, hesab edir ki, ona qarşı sui-qəsd cəhdi sadəcə xaricdən deyil, eyni zamanda, ölkə daxilindən də qaynaqlana bilər. Bu isə Paşinyan üçün ikiqat risk və təhlükə

güzəştə getməsinin iki əsas səbəbi var ki, bunlardan biri həmin generalların ordudan qovulacağı təqdirdə Rusiya ilə münasibətlərin daha da kəskinləşəcəyi ehtimalıdır. Hansı ki, Paşinyan aşkar anti-Rusiya siyasətinə rəğmən, Moskva ilə bütün körpüləri yandırmaqdan çəkinməkdədir. Digər səbəb isə həmin generalların orduda böyük nüfuza malik olması, istənilən an hansısa hərbi insident törədə biləcəyi ilə bağlıdır. Məhz bu səbəbdən də Paşinyan məlum generallara qarşı sərt tədbirlər görməyə tələsmir. Ermənistan baş naziri bu generalları nəzarətdə saxlamaqla proseslərin bundan sonrakı gedişatını izləməyi daha məqsədəuyğun hesab edir. Ancaq Ermənistan ordusunda çox tez-tez baş verən silahlı insidentlər göstərir ki, xaos və intriqaların hökm sürdüyü bu orduda hansısa generalı tam olaraq nəzarətdə saxlamaq mümkün deyil.

### Xalqdan gələn qorxu

Nikol Paşinyanın sui-qəsd qorxusunun arxasında duran əsas nüanslardan biri də, onun xalq tərəfindən də lənətlənməsi, lider kimi qəbul edilməməsidir. Xüsusilə də, Paşinyanın 44 günlük müharibədən sonra ac Ermənistana, həm də deməkdir. Başqa sözlə desək, Paşinyan davamlı olaraq özünü öz xalqından qorumağa məcburdur.

Özünə qarşı sui-qəsd ehtimalını kifayət qədər yüksək qiymətləndirən Nikol Paşinyan, bu təhlükədən mümkün qədər sığortalanmaq üçün ölkənin bütün hüquq-mühafizə orqanlarını ayağa qaldırıb. İştirak etdiyi hər bir toplantıda təhlükəsizlik tədbirlərinin maksimum səviyyədə təşkilinə diqqət yetirən Paşinyan, sadə vətəndaşları belə özü üçün təhdid mənbəyi hesab etməkdədir. Bu il martın 9-da Paşinyana məxsus avtomobil korteji hökumət binasına daxil olan zaman polislərin iki nəfər sıravi şəxsə hücum edərək, onları "neytrallaşdırması" buna sübutdur. Bu fakt bir daha sübut edir ki, vaxti ilə Bakını yeni işğallarla hədələyən Paşinyan, bu gün kölgəsindən qorxan, öz xalqının intiqamından ehtiyat edən "lider" vəziyyətinə düşüb. Bu isə Paşinyanla yanaşı, həm də Ermənistanın gələcəyi ilə bağlı bədbin proqnozları aktuallaşdırır. Çünki hər hansı dövlətin öz xalqını təhdid və təhlükə mənbəyi hesab edən bir "lider"lə hansısa uğura nail olması absurddur və bunu isbatlamaq üçün əlavə arqumentə ehtiyac da yoxdur.

*Seymur ƏLİYEV, "Xalq qəzeti"*

# İranda yeni edam rekordu

**Qonşu ölkənin hakim molla rejimi bu ilin ilk 3 ayında edamların sayına görə son 4 ildə yeni rekorda imza atıb. Bu barədə İranın İnsan Hüquqları Təşkilatı məlumat yayıb.**



Bildirilir ki, ilin son 65 günündə 138 nəfər barəsində ölüm hökmü həyata keçirilib. 2020, 2021 və 2022-ci illərin müvafiq dövründə 67, 72 və 94 məhkum barəsində ölüm hökmü çıxarılanda bu, dünyada ciddi etirazla qarşılanmışdı.

İranda yeni edam rekordu molla rejiminin ölkədə davam edən kütləvi iğtişaşların qarşısını almaqda, müxalifləri aradan götürməkdə ölüm hökmlərini ən təsirli vasitə saymasının birbaşa nəticəsidir. Bu səbəbdən, təkcə Novruz bayramı həftəsində 29 nəfərin boğazına kəndir keçirilib.

*"Xalq qəzeti"*

# Ermənistandan oyunbazlıq – Roma Statutuna qarşılıq KTMT missiyası

## *İrəvan Moskvanın əsəblərini tarıma çəkməkdə israrlıdır*

**Ermənistan konstitusiya məhkəməsinin Beynəlxalq Cinayət Məhkəməsinin Roma Statutunda təsbit olunmuş öhdəliklərin konstitusiyaya uyğunluğu barədə martın sonunda verdiyi qərarla bağlı müzakirələr aparılmaqdadır. Məlumdur ki, Rusiya Prezidenti Vladimir Putinin Ermənistana daxil olacağı təqdirdə həbs edilməsinin mümkünlüyünün təsdiqləndiyi bu qərar ölkə parlamenti tərəfindən ratifikasiya ediləcəyi təqdirdə qüvvəyə minəcəkdir. Ratifikasiya müddəti isə üç aydır. Yəni, üç ayın tamamında ya Ermənistanın ali qanunverici orqanı Roma Statutuna müsbət yanaşmalı, ya da onu rədd etməlidir.**



O da məlumdur ki, məlum sənəd onsuz da gərgin olan Ermənistan–Rusiya münasibətlərinə yeni gərginlik çalarları gətirməkdədir. Heç şübhəsiz, duruma rəng qatan, məhz, V.Putinin həbsi ilə bağlı məsələdir. İrəvan rəsmiləri hazırda elə görüntü yaradırlar ki, sanki, Roma Statutunun məğzində dayanan məqam bu deyil. Rusiyadan gələn təpkilər isə mövzuya birbaşa yanaşmanın göstəricisidir. Açıq şəkildə bildirilir ki, Ermənistan parlamenti sənədi ratifikasiya edəcəyi təqdirdə, ikitərəfli münasibətlər baxımından son dərəcə arzuolunmaz vəziyyət yaranacaqdır. İndiyədək İrəvanın anti-Rusiya davranışlarına təmkinlə yanaşan Moskva dairələri, belə görünür, güzəştə getməməyi üstün tuturlar. Ona görə də, Ermənistana münasibətdə açıq təhdidlər səslənməkdədir.

Belə bir durumda Ermənistan nə etməyi düşünür? Əlbəttə, ilk baxışdan elə təəssürat yaranır ki, sanki, ölkə parlamenti konstitusiya məhkəməsinin çıxardığı qərarı, ümumiyyətlə, ratifikasiya etməyəcəkdir. Ancaq etməyəcəkdirsə, onun müzakirəsi nəyə görə uzanır? Niyə qərar baxılması üçün hökumətə təqdim olunmur? Cavab budur ki, Ermənistan hökuməti yekun qərarını verməyib.

Görünür, həm də ona görə qərar verməyə tələsmir ki, bir növ, ikitərəfli oyun oynayır. Ermənistan həm Qərbə göstərmək istəyir ki, məsələ gündəmdədir, həm də öz aləmində Moskvanı gərginlikdə saxlayır. Hazırkı situasiyada İrəvan üçün Rusiyanın onun xeyrinə nə isə etməsi lazımdır ki, geri çəkilsin və Qərbdəki tərəfdaşlarına da göstərsin ki, Kreml onun mənafeyi baxımdan addım atdığı üçün Putinin həbsini nəzərdə tutan ssenariyə qol qoymaq istəmir. Bəs, Moskvanın İrəvanın mənafeyi baxımından atmalı olduğu addım nə ola bilər?

***

Mövcud istiqamətdə xüsusi düşünməyə ehtiyac yoxdur. Ağla ilk gələn Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatıdır (KTMT). Ermənistan qurumun Moskva üçün əhəmiyyəti üzərinə oynamaq yolunu tutur. Ölkə iqtidarı yaxşı anlayır ki, Rusiya KTMT-nin missiyasının Ermənistanda yerləşdirilməsi üçün dəridən-qabıqdan çıxır və hazırkı məqamda bu missiyanı Avropa İttifaqının Azərbaycan–Ermənistan sərhədinin Ermənistan tərəfində fəaliyyət göstərən mülki missiyasına alternativ kimi təsəvvürə gətirir. Faktiki olaraq, Kremldə belə düşünürlər ki, Aİ-nin missiyası Rusiyanı Cənubi Qafqazdan sıxışdırmaq cəhdidirsə, KTMT-nin mümkün missiyası buna qarşı ciddi müqavimətdir. İrəvanda Moskvanın bu baxışından xəbərdardırlar. Ona görə Roma Statutu ilə əlaqədar müzakirələrin getdiyi hazırkı şəraitdə Ermənistan–KTMT münasibətlərini gündəmə gətirirlər.

Diqqət edək, Ermənistan parlamentinin xarici əlaqələr daimi komissiyasının sədri Sarkis Xandanyan bildirir ki, Ermənistan heç vaxt ölkədə KTMT-nin müşahidə missiyasını yerləşdirməkdən imtina etməyib, hazırda missiyanın yerləşdirilməsini nəzərdə tutan sənədə əlavələr olunmaqdadır. "Ermənistan KTMT-nin müşahidə missiyasını heç vaxt tərk etməyib, sadəcə olaraq, belə bir missiyanın mövcudluğu ilə bağlı sənəd hələ də yenilənmə mərhələsindədir. Bzim üçün vacibdir ki, Ermənistan Respublikasının suveren ərazisi ilə bağlı faktiki baş verənlər obyektiv təqdim olunsun. Təbii ki, bu məqamları qəbul etmədən, vəziyyəti ətraflı qiymətləndirmədən, missiyanın necə olacağı və onun hansı regionda həyata keçirilməsini təsəvvürə gətirmək çətindir", – deyən parlamentari vurğulayıb ki, İrəvan özünün mövqelərini və istəklərini qane edən layihənin təqdim edildiyini görəndə, o zaman KTMT missiyasının yerləşdirilməsindən danışmaq mümkünə çevriləcəkdir.

Xatırladaq ki, Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan da bu il martın 20-də Moskvada rusiyalı həmkarı Sergey Lavrovla birgə mətbuat konfransında bildirmişdi ki, KTMT missiyasının göndərilməsi ilə bağlı qərar layihəsi müzakirə olunur və layihə üzərində iş davam edir. Erməni nazir onu da bildirmişdi ki, "İrəvan öz tərəfdaşlarından Azərbaycanın sentyabr (2022-ci il sentyabrın 12-14-də sərhəddə baş vermiş hərbi toqquşma nəzərdə tutulur – red.) təcavüzünə siyasi qiymət verməsini gözləyir". Daha doğrusu, İrəvanın gözlədiyi Azərbaycanı işğalçı kimi, KTMT tərəfindən rəsmən tanınmasıdır.

Göründüyü kimi, Ermənistan Rusiyadan Azərbaycana qarşı sərt və prinsipal addım atmağı gözləyir. Roma Statutu ilə bağlı durumun gündəmə gəldiyi hazırkı şəraitdə KTMT məsələsinin qabardılması, heç şübhəsiz, İrəvanın Moskvaya ünvanladığı mesajdır. Bu, həm də şantajdır. Baş nazir Nikol Paşinyan administrasiyası hesab edir ki, indiki durumda Rusiyanın Ermənistanla bağlılığı KTMT çərçivəsindədir və qurum birbaşa İrəvanın maraq və mənafelərindən çıxış etməsə, bağlılıq da aradan qalxacaqdır. Əgər bağlılıq aradan qalxacaqsa, deməli, İrəvan yönünü, tamamilə, Qərbə tərəf çevirəcəkdir. Bu gedişatda isə Putinin Ermənistana daxil olacağı təqdirdə dərhal həbsi də mümkündür.

Əlbəttə, demək olmaz ki, Paşinyan administrasiyası üçün belə bir ciddi qərarı vermək asandır. Üstəlik, nəzərə alaq ki, Rusiyada da Ermənistanın planından xəbərdardırlar. Hər bir halda ikinci birincinin əsəbini bu mövzuda tarıma çəkməyə üstünlük verməkdədir. Ona görə Ermənistan konstitusiya məhkəməsinin Beynəlxalq Cinayət Məhkəməsinin Roma Statutunda təsbit olunmuş öhdəliklərin əsas qanuna uyğunluğu barədə qərarının parlament tərəfindən ratifikasiyası ilə bağlı məsələ uzanır.

Bu məqamda Rusiyanın atacağı addım önəmlidir. Əlbəttə, Moskvada sözügedən məsələnin oyun olduğunu və İrəvanın heç vaxt Roma Statutunu ratifikasiya etməyə cəsarətinin çata bilməyəcəyini də düşünürlər. Onlar onu da başa düşürlər ki, hazırda Paşinyan administrasiyasının KTMT müstəvisindəki canfəşanlığı Azərbaycan əleyhinə nə isə qoparmaq məqsədinə köklənişdir. Belədə sual yaranır: Moskva Bakı ilə münasibətləri gərginləşdirmək istəyərmi? Digər tərəfdən, nəzərə alaq ki, KTMT müstəvisində Azərbaycana qarşı hər hansı addım quruma üzv olan və ölkəmizlə kifayət qədər isti münasibətlərə malik dövlətləri də pis vəziyyətdə qoymaqdır.

*Ə.RÜSTƏMOV, "Xalq qəzeti"*

# Dünyəvi dövlətin düşməni – "Hüseyniyyun"

## *Molla rejiminin yaratdığı bu radikal üsyançı qrupun hədəfi Azərbaycanın müstəqilliyidir*

**İran xüsusi xidmət orqanlarının nəzarəti altında fəaliyyət göstərən bu radikal-ekstremist, sağ təmayüllü terror qruplaşmasının əsas məqsədi vətəndaşlarımızı öz təsir dairəsinə salaraq, Azərbaycanda mövcud sivil, dünyəvi dövlətin dayaqlarını laxlatmaq imiş.**

Tehran rejiminin alovlu müdafiəçisi rolunda çıxış edən "Hüseynçilər" illərdən bəri din pərdəsi altında Azərbaycan cəmiyyətində pozuculuq fəaliyyəti ilə məşğul olublar. İran xüsusi xidmət orqanlarına bağlı bu radikal-ekstremist, məzhəbçi terror qruplaşmasının məqsədi vətəndaşlarımıza zərərli ideyaları aşılamaqla, onları dövlətə qarşı körükləmək, mövcud quruluşu devirməyə çağırışlar etmək idi. Təlimatlarını Tehrandan alan dini fanatizmin əsirləri zombilər kimi verilən bütün əmrləri sorğu-sualsız icra etməyə hazır olublar.



Ötən ilin oktyabrında Dövlət Təhlükəsizlik Xidmətinin (DTX) yaydığı məlumata görə, əməliyyat-istintaq tədbirləri ilə müəyyən edilb ki, 2018-ci ildən barələrində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilərək, beynəlxalq axtarışa verilmiş İbrahimbəyli Tohid Alim oğlu, Əsədov Rövşən Elçin oğlu, Məmmədov Orxan Kamran oğlu, Hacıyev Elşad Elçin oğlu (Əkrəm Hacızadə) hazırda İranda gizlənirlər. Aşkar edilib ki, İran xüsusi xidmət orqanları, SEPAH-la yaxından əməkdaşlıq edən bu şəxslər Ermənistan silahlı birləşmələrinin işğalçı əməllərinə bəraət qazandırmaq istiqamətində də ideoloji təxribatla məşğul olublar.

• **ARAYIŞ:** *2016-cı ilin əvvəlində Tohid İbrahimbəyli adlı radikal terrorçu İranın Qum və Məşhəd şəhərlərində dini təhsil alan 14 azərbaycanlı tələbədən ibarət "Hüseyniyyun" (Hüseynçilər) adlı silahlı qruplaşmanı təsis edib. Tələbələrin hamısı hərbi təlim keçib və Suriya ərazisində İŞİD-lə mübarizə aparmaq və Suriya ərəb ordusunu dəstəkləmək üçün Dəməşqə göndərilib.*

Hələ ötən əsrin 80-ci illərindən etibarən beynəlxalq təşkilatların hesabatlarında İİR-in adı terrorizmi dəstəkləyən dövlətlər sırasında çəkilir. Tehran bu "imicini" bu gün də qoruyub saxlamaqdadır. ABŞ Dövlət Departamentinin 2019-ci ildə tərtib etdiyi "Terrorla bağlı ölkələrin Hesabatı"nda (Country Reports on Terrorism) bütöv bir fəsil İrana həsr edilib. Molla rejiminin dəstəklədiyi "Hüseyniyyun" isə son illər İranla Azərbaycan arasında müşahidə edilən qarşıdurmada radikal üsyançı qrup kimi özünü göstərdi. Özünün təhlükəsizlik maraqlarını prioritet sayan rəsmi Bakının Türkiyə, Pakistan və İsraillə hərbi əməkdaşlığını əhəmiyyətli dərəcədə genişləndirməsi Tehran rejimində əməlli-başlı qıcıq yaradır.

"Hüseyniyyun" buna uyğun olaraq, ölkəmizdəki dünyəvi hökumətin xarici və daxili siyasətinə qarşı daha radikal mövqe sərgiləməyə başlayıb. İran illər boyu "Hüseynçilər" Hərəkatı, İslam Partiyası, Müsəlman Birliyi Hərəkatı, "Şəhriyar" Mədəniyyət Mərkəzi kimi təşkilatların fəaliyyətini stimullaşdıraraq, Azərbaycanın mövcud demokratik quruluşuna qarşı çıxıb. Adı çəkilən təşkilatların hamısı ölkəmizdə ayətullah Xomeyninin "İslam inqilabı doktrinası"nın yayılması, teokratik rejimin tələblərinə uyğun siyasi sistemin yaradılması üçün çalışıblar.

Əslində, bu proses hələ də davam edir. Təsadüfi deyil ki, "Hüseynçilər"in lideri Tohid İbrahimbəyli əqidədaşlarını təkcə İŞİD-lə mübarizəyə deyil, eyni zamanda Azərbaycanda silahlı münaqişəyə hazırlamaq niyyətində olduğunu açıq şəkildə bildirir. Aprelin 3-də Azərbaycanın Təbrizdəki konsulluğu qarşısında keçirilən aksiyanınm təşkilatçısı "Hüseyniyyun" idi. Buraya toplaşan təbrizli "Hüseynçilər", Azərbaycandakı "sionist rejimə" qarşı aksiyada Bakının İsrail dövləti ilə əlaqəsini qınayıb, Azərbaycanın rəsmi mediasında Xameneinin "təhqir edilməsini qətiyyətlə pisləyiblər". 2022-ci ilin avqustunda Azərbaycanın Londondakı səfirliyinin binasında düzənlənən tamaşanın "rejissorunun" da bu məzhəbçi terror qruplaşması olduğu təkzib olunmamış versiyalardan biridir.

• **ARAYIŞ:** *İİR-in Ali dini rəhbəri ayətullah Seyyid Əli Xameneinin Azərbaycandakı nümayəndəsi Ocaq Necatın ofisinin yerləşdiyi Hüseyniyyə məscidi il yarım bundan əvvəl DTX-nın həyata keçirdiyi kompleks əməliyyat-istintaq tədbirləri nəticəsində qapadılıb.*

* * *

Son bir neçə onillikdə molla rejiminin İnqilabı Keşikçiləri Korpusunun (SEPAH) himayə etdiyi "Livan Hizbullahı", Yəmən husiləri və İraqın milisləri kimi "Hüseyniyyun" da İranın həm regionda, həm də dünyada yürütdüyü "hərbi-dini strategiyasının" vacib atributuna çevrilib. Bu radikal dini təşkilat qısa müddət ərzində Azərbaycanda fəallaşmağa başladı. Məhz həmin dövrdə ölkəmizdə xarakterinə və icra üslubuna görə o vaxta qədər görünməmiş qanlı hadisələr törədildi. 2018-ci il iyulun 3-də Azərbaycanın ikinci böyük şəhəri Gəncənin İcra hakimiyyətinin başçısı Elmar Vəliyevə binanın qarşısında sui-qəsd edildi. Hüquq-mühafizə orqanları dini radikalların bu cinayəti ilə bağlı dəlillər topladı, əsas şübhəli şəxs Yunis Səfərov həbs edildi. Onun "Hüseyniyyun" qruplaşmasında olduğu, Qumda təlim aldığı və Suriyada döyüşdüyü üzə çıxdı. Yunis Səfərovun həbsindən sonra göstəriş alan "Hüseynçilər" soyuq silahla polisə hücum çəkdi. Bu zaman iki polis əməkdaşı öldürüldü, üçüncüsü isə yaralandı. Həqiqətən də, buna qədər Azərbaycanda bu tip cinayətlər törədilməmişdi. Gəncədəki qanlı olaylara görə məsuliyyəti "Hüseyniyyun"un boynuna götürməsi faktının özü çox mətləblərdən xəbər verir.

İki qonşu ölkə və xalq arasında Tehranın dindən uzaq İslam rejiminin səpdiyi ədavət toxumlarının təmizlənməsi, şübhəsiz, müəyyən vaxt aparacaq. Şübhə doğurmayan proqnoz isə ondan ibarətdir ki, şovinist fars iqtidarı dünyəvi Azərbaycana qarşı hər türlü təxribatlar həyata keçirmək üçün daim münbit zəmin və fürsət axtarışında olacaq.

*İmran BƏDİRXANLI, "Xalq qəzeti"*

### *Ekspert rəyi*



**Yeganə HACIYEVA, politoloq:**

– Beynəlxalq hesabatlarda qeyd edilir ki, 1979-cu ildə islamçıların hakimiyyətə gəlişindən sonra, İranın dövlət strukturları tərəfindən dünyanın 20-dən çox ölkəsində sui-qəsdlər, terror aktları təşkil edilib. Bu aktlar Avropa, Şimali və Cənubi Amerika, Afrika və Asiya daxil olmaqla, dünyanın 5 qitəsini əhatə edib. ABŞ Maliyyə Nazirliyi 2016-cı ildə İranda yaşayan Əl-Qaidənin 3 agentini müəyyənləşdirib və onlara qarşı sanksiyalar tətbiq edib. İndi İran rejiminin terrora dəstək verməsi qlobal problem kimi təsdiqlənib.

BMT ekspertlər qrupunun 2018-ci il hesabatında göstərilir ki, İran rejimi ayrı-ayrı ölkələrdə fəaliyyət göstərən terror təşkilatlarına dəstək verməklə yanaşı, həm də onlara öz ərazisində sığınacaqlar yaradıb. "Əl-Qaidə" liderlərinin İİR ərazisində "daha aydın göründüyü" bildirilir. İran bu təşkilatın ölkədə qalmasına, maliyyə əməliyyatları aparmasına icazə verib, üzvlərinin Cənubi Asiya və Suriyaya daşınmalarına şərait yaradıb.

Bütün bunlar din pərdəsi altında gerçəkləşdirilən riyakar siyasətdir. Proses dini-ideoloji müstəvidə təqdim edilsə də, mahiyyətcə İran dövlətinin siyasi maraqlarına xidmət edir. SEPAH-ın formalaşdırdığı və maliyyələşdirdiyi "Hüseyniyyun" terror təşkilatı Azərbaycanın Təbrizdəki baş konsulluğunun qarşısında yeni aksiyalar keçirib. Aksiyada azərbaycanlı diplomatlardan İranı tərk etmələri tələb olunub. "Hüseyniyyun" terror təşkilatı İran mediasına verdiyi müsahibədə 2018-ci ildə Gəncə hadisələrinə görə məsuliyyəti öz üzərinə götürüb. Müsahibədən o da aydın olur ki, bu təşkilat Azərbaycanda daha geniş terror aktlarına hazırlaşır.

# Naxçıvanlılar Heydər Əliyevi, ulu öndər isə Naxçıvanı qorumuşdu...



*Doğma, canım, varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır. Bütün şüurlu ömrümü onun inkişafına, tərəqqisinə həsr etmişəm.*

***Heydər ƏLİYEV,***
***Ümummilli lider***

**Tarixdə belə bir düsturlaşmış deyim var: “Şəxsiyyəti xalq yetişdirir”. İnsanlıq bunun əksinin də şahididir: “Şəxsiyyət də xalqı yetişdirir”. Bu, o zaman baş verir ki, xalq uzun müddət əsarətdə qalır, kənar təsirlərə müqavimətini və özünüyaşatma enerjisini itirib kölələşir. Belə cəmiyyət müstəqil dövlətini qurmaq, azad yaşamaq üçün özündə güc tapa bilmir. Görünür, çox sayda xalq tarix səhnəsindən belə çıxıb.**

Azərbaycan xalqı isə kənar imperiya əsarətinə düşüb dövlətçiliyini itirsə də, milli yaddaşından güc almış şəxsiyyətlərinin mübarizəsi ilə milli varlığını yaşadıb, bir əsrdə 2 dəfə istiqlal savaşı aparıb. Məhz belə tarixi dövrlərdə ulu Tanrı müstəqil olmaq əzmini yaşadan xalq üçün xilaskar lider göndərir. Belə tarixi şəxsiyyət öz xalqını müstəqil dövləti olan ölkələr cərgəsinə qoşur. Belə qeyrətli və qüdrətli şəxsiyyətlərin sırasında ümummilli lider Heydər Əliyevin bənzərsiz obrazı əbədilik öndə qərarlaşıb, adı isə xalq işinə xidmət zirvəsi kimi öndərləşib.

Milli tariximizin bu fenomen lideri sovet imperiyasından yarımasılı vəziyyətə salınmış Azərbaycanı mümkün olduğu qədər milli tələbatın cavablandırılması çevrəsində idarə edib, yeni müstəqillik dövrünə hazırlayıb. İttifaq dövlətinin ali rəhbərliyinə yüksələrək dünya şöhrətli siyasətçi və dövlət xadimi kimi yetişmiş Heydər Əliyev sonrakı dövrdə müstəqilliyin bərpa edilməsi və möhkəmləndirilib əbədi prosesə çevrilməsi uğrunda mübarizənin baş qəhrəmanı və lideri kimi yeni bir parlaq bioqrafiya da yaratdı.

100 il bundan əvvəl, 1923-cü ilin 10 mayında dünyaya göz açmış görkəmli dövlət xadimi Heydər Əliyev də Tanrının millətimizə xilaskar kimi göndərdiyi böyük dahi şəxsiyyət idi. Bütün mənalı həyatını Vətəninə həsr edən ulu öndərimiz Azərbaycanımıza xidmət, onun taleyində həlledici rol oynamaq üçün doğulmuşdu.

Prezident İlham Əliyevin “Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi haqqında” 29 sentyabr 2022-ci il tarixli Sərəncamında da qeyd olunduğu kimi: “Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir”.

Ümummilli liderimizin nəsillərə nümunə olan şərəfli həyatında Naxçıvana bağlılıq, tükənməz məhəbbət və ardıcıl qayğı xüsusi yer tutur. Azərbaycanın bu qədim diyarında dünyaya göz açıb boya-başa çatan xalqımızın gələcək xilaskarı, müstəqil dövlətimizin qurucusu ilk təhsilini də orada almış, 1939-cu ildə Naxçıvan şəhərindəki pedaqoji məktəbi bitirmişdir.

Dahi rəhbərin xalqa, Vətənə misilsiz xidmət nümunəsi olan möhtəşəm əmək fəaliyyətinin də ilk səhifələri Naxçıvanla bağlıdır. O, 1941-ci ildə Naxçıvan MSSR Xalq Daxili İşlər Komissarlığında işə başlamış, sonra isə Xalq Komissarları Sovetində çalışmışdır.

Görkəmli dövlət xadimi Azərbaycana rəhbərliyinin birinci dövründə Naxçıvana xüsusi diqqət yetirmişdir. Dahi şəxsiyyət muxtar respublikada aparılan quruculuq-abadlıq işlərinin vəziyyəti ilə tanış olmaq üçün 1970–1982-ci illərdə 4 dəfə Naxçıvanda səfərdə olmuşdur. Həmin illərdə Araz çayı üzərində iri su anbarı və elektrik stansiyası, 16 iri sənaye müəssisəsi, yüzlərlə sosial obyekt tikilib istifadəyə verilmişdir. Bütün bu genişmiqyaslı quruculuq fəaliyyəti nəticəsində Naxçıvan Muxtar Respublikası yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Ulu öndərimiz SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini vəzifəsində çalışanda da Naxçıvanın rifahı üçün çoxşaxəli tədbirlər həyata keçirmişdir.

Naxçıvanda yaşadığı 1990–1993-cü illər ümummilli liderin həyat və fəaliyyətindən qırmızı xətlə keçən xüsusi əhəmiyyətə və dəyərə malik tarixi dövrdür. Müdrik dahinin özü də bu illərin mahiyyətini ayrıca vurğulayaraq muxtar respublika sakinləri ilə görüşlərinin birində demişdir: “Naxçıvanda doğulmağım, ərsəyə gəlməyim, təhsil almağım mənim üçün əzizdir. Azərbaycana rəhbərlik etdiyim zaman Naxçıvanda quruculuq işlərinin görülməsindəki fəaliyyətim də mənim üçün əzizdir. Ancaq mənim üçün bunların hamısından əziz 1990-cı ildən 1993-cü ilə qədər burada sizinlə bir yerdə yaşamağım, işləməyim olubdur”.

20 iyul 1990-cı ildə Moskvadan Bakıya, iki gün sonra isə ağır blokada vəziyyətində olan Naxçıvana gələn Heydər Əliyevi xalq böyük coşqu ilə qarşılamışdı. Həmin vaxt Naxçıvan son dərəcə çətin bir şəraitdə yaşayırdı. O zamankı Azərbaycan rəhbərliyinin Naxçıvana ögey münasibətini də xatırlatsaq, muxtar respublikanın son dərəcə acınacaqlı durumu göz önünə gələr. Belə bir vaxtda xalqımızın böyük oğlu Heydər Əliyevin Naxçıvana gəlişi əhalinin əsl nicatına çevrilmişdir.

30 sentyabr 1990-cı ildə keçirilən seçkilərdə Naxçıvan Muxtar Respublikasının əhalisi yekdilliklə ulu öndəri Azərbaycan SSR-in və Naxçıvan MSSR-in xalq deputatı seçmişdi. 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin dahi şəxsiyyət Heydər Əliyevin sədrliyi ilə keçirilən ilk sessiyasında qəbul olunan tarixi qərarlar müstəqil Azərbaycan dövlətinin yaradılmasının əsasını qoymuşdur. Hələ sovet imperiyasının mövcud olduğu bir dövrdə üçrəngli milli Azərbaycan bayrağının Naxçıvan Muxtar Respublikasının dövlət rəmzi kimi qəbul edilməsi, Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından “Sovet Sosialist” sözlərinin çıxarılması, Naxçıvan MSSR Ali Sovetinin Naxçıvan Muxtar Respublikasının Ali Məclisi adlandırılması böyük cəsarət tələb edirdi.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi həmin bayrağın Azərbaycan Respublikasının rəsmi dövlət rəmzi kimi tanınması haqqında Azərbaycan SSR Ali Soveti qarşısında vəsatət də qaldırmışdı. Bütün bunlar 1991-ci ildə Azərbaycanın müstəqilliyini elan etməsinə şərait yaratmışdı.

1990-cı ilin 21 noyabrında Naxçıvan Muxtar Respublikası Ali Məclisi böyük dövlət xadimi Heydər Əliyevin işləyib hazırladığı “1990-cı ilin yanvar ayında Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında” tarixi qərar qəbul etmişdir.

Muxtar respublikanın əsl xilas və tərəqqisinin yalnız ümummilli liderimizin dühası sayəsində mümkün olduğunu çox yaxşı bilən Naxçıvan əhalisinin təkidli tələbi ilə görkəmli dövlət xadimi Heydər Əliyev 1991-ci ilin 3 sentyabrında Naxçıvan Muxtar Respublikası Ali Məclisinə Sədr seçilmişdir. Ulu öndər Heydər Əliyev Naxçıvana rəhbərlik etdiyi iki ilə yaxın müddətdə elə möhtəşəm işlər görmüşdür ki, onlar əhəmiyyət və miqyasına görə neçə-neçə onilliyə örnək ola bilər.

Həmin dövrdə ulu öndərimizin rəhbərliyi ilə 31 dekabrın “Dünya Azərbaycanlılarının Həmrəylik Günü” kimi qeyd olunması ilə bağlı tarixi qərar qəbul edilmiş, keçmiş SSRİ-dən miras qalmış təhlükəsizlik orqanları ləğv edilərək milli maraqlara xidmət edən yeni müvafiq qurum yaradılmış, rus qoşun hissələri muxtar respublikadan çıxarılmış, Naxçıvanın müdafiəsi üçün sistemli tədbirlər görülmüş, diyarımızın tarixi taleyi üçün müstəsna əhəmiyyətə malik Qars müqaviləsi yenidən gündəmə gətirilmişdir.

Bundan başqa, uğurlu aqrar islahatlar aparılmış, yeni iqtisadi münasibətlər formalaşdırılmış, əhalinin sənaye mallarına, ərzaq məhsullarına kəskin ehtiyacının ödənilməsi, enerji təminatı sahəsində böhranlı vəziyyətin aradan qaldırılması üçün layihələr həyata keçirilmişdir. Ölkəmizin ən kütləvi siyasi təşkilatı olan Yeni Azərbaycan Partiyasının təsis edilməsi, az vaxt ərzində böyük nüfuz qazanması da ulu öndərin fəaliyyətinin Naxçıvan dövrünə aiddir.

Beləliklə, ümummilli liderimizin 1990-cı ilin iyul ayından 1993-cü ilin iyun ayına qədər Naxçıvanda yaşaması bu bölgəni onu gözləyən çox böyük fəlakətlərdən qorumuş, naxçıvanlıların gələcəyə olan ümidinin itirilməsinə imkan verməmişdir. Prezident İlham Əliyev ümummilli liderimizin fəaliyyətinin Naxçıvan dövrü barədə danışarkən demişdir: “Onun gəlişi Naxçıvanı böyük bəlalardan qurtardı. Naxçıvanlılar Heydər Əliyevi qorudular, Heydər Əliyev isə Naxçıvanı qorudu”.

Azərbaycan “olum, ya ölüm” dilemması qarşısında qalanda xalq təkidlə Heydər Əliyevi Bakıya, ölkə rəhbərliyinə dəvət etmişdir. 1993-cü ilin 9 iyununda Bakıya gələn ulu öndərin 15 iyunda Milli Məclisin Sədri seçilməsi Vətənin və xalqın tarixində əsl Qurtuluş Gününə çevrilmişdir. Həmin ilin 3 oktyabrında xalqın böyük dəstəyi ilə ölkə Prezidenti seçilən dahi şəxsiyyət on il ərzində neçə-neçə qərinəyə bərabər işlər görmüş, tarixə müstəqil Azərbaycanın xilaskarı və qurucusu kimi daxil olmuşdur.

Ulu öndərimiz Heydər Əliyev Azərbaycana ikinci rəhbərliyi dövründə də Naxçıvana xüsusi diqqət və qayğı göstərmiş, blokadanın çətinliklərinin aradan qaldırılması, muxtar respublikanın inkişafı üçün mühüm tədbirlər həyata keçirmişdir. Ümummilli liderimizin Naxçıvana səfərlərini əhali bayram kimi qeyd edir, naxçıvanlılar öz xilaskarlarını böyük sevinc və coşqu ilə qarşılayırdılar.

Ulu öndərimizin “Mən istəyirəm ki, mənim arzum, istəklərim, Azərbaycan dövləti haqqında, müstəqil Azərbaycanın gələcəyi haqqında və Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan haqqında planlarım yerinə yetirilsin” – arzusunu yerinə yetirən ümummilli liderimizin siyasi kursunun davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Naxçıvana xüsusi diqqət yetirir, regionun inkişafı üçün önəmli kompleks tədbirlər həyata keçirir. Naxçıvanlılar yaxşı bilirlər ki, muxtar reaspublikada görülən bütün işlər, həyata keçirilən quruculuq tədbirləri Prezident İlham Əliyevin bu bölgəyə yüksək diqqət qayğısının, ulu öndərimizin arzularının reallaşdırılması istiqamətində apardığı işin nəticəsidir. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva da Naxçıvanı diqqətdən kənarda qoymamışdır.

Əlbəttə, bütün bu misilsiz nailiyyətlər ulu öndər, böyük dövlət xadimi Heydər Əliyev siyasi kursunun ardıcıl və dönmədən davam etdirilməsi nəticəsində qazanılır. Heydər Əliyev yolu sabahkı uğurlarımızın da etibarlı qarantıdır.

***Təranə QULİYEVA,***
***Naxçvan Muxtar Respublikası Baş nazirinin sabiq müavini***

## Milli Məclisdə “Heydər Əliyevin 100 illiyi” yubiley medalının təsis olunması haqqında qanun qəbul edildi



**Aprelin 11- də Milli Məclisin yaz sessiyasında növbəti plenar iclası keçirildi. Parlament Sədrinin birinci müavini Əli Hüseynli iclası açaraq, gündəliyə 11 məsələnin daxil edildiyini bildirdi.**

Deputatlar əvvəlcə cari məsələlər ətrafında çıxış etdilər. Son günlər baş vermiş hadisələrə münasibət bildirildi. Qeyd edildi ki, bu gün 2018- ci il aprelin 11-də keçirilmiş növbədənkənar prezident seçkilərindən beş il ötür. Bu müddət ərzində ölkəmiz bütün sahələr üzrə sürətli inkişaf yoluna qədəm qoymuş, beynəlxalq aləmdə əlaqələri daha da genişlənmiş, mövqeyi möhkəmlənmişdir. Həmin ildən respublikamızda start götürən genişmiqyaslı islahatlar bütün sahələri əhatə edib. Ən əsası isə növbədənkənar prezident seçkilərindən iki il sonra Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər Azərbaycan Ordusu Ermənisanın 30 illik içğalçılıq siyasətinə son qoyaraq tarixi Qələbə qazandı. Çıxış edənlər qeyd etdilər ki, bu qələbə Azərbaycanın dünya birliyindəki reytinqini daha da artırdı.

Sonra Ə.Hüseynli gündəlikdəki birinci məsələni – “Heydər Əliyevin 100 illiyi (1923-2023)” Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi haqqında “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Qanuna dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim etdi. Dedi ki, artıq qanun layihəsi üçüncü oxunuşda müzakirəyə çıxarılır. Əvvəlki oxunuşlarda kifayət qədər çıxışlar olub və deputatlar yubiley medalının təsis olunmasını razılıqla qarşılayıblar. Qeyd edildi ki, ölkə başçısının sərəncamı ilə 2023- cü il “Heydər Əliyev İli” elan edilib. Bu il ulu öndərin xatirəsinə veriləcək ən dəyərli töhfələrdən biri də onun adına yubiley medalının təsis edilməsidir.

Natiq bildirdi ki, 2005-ci ildə ulu öndərin xatirəsini əbdiləşdirmək məqsədilə Azərbaycan Respublikasının ən yüksək dövlət təltifi kimi “Heydər Əliyev” ordeni Milli Məclis tərəfindən təsis edilmişdir. “Heydər Əliyevin 100 illiyi” yubiley medalı da Azərbaycan medalları sırasında xüsusi yer tutacaq. Əsasnaməsindən də göründüyü kimi, bu medal ordenlərdən sonra sıralamada birincidir. Bu da onun statusundan xəbər verir. Əsasnamənin birinci maddəsinə görə, yubiley medalının digər medallarla müqayisədə təltif ediləcək şəxslərin dairəsi də kifayət qədər genişdir. Həmçinin medalın təsviri də kifayət qədər qənaətbəxşdir. Medalda Heydər Əliyevin barelyefi əks olunub və müstəqilliyimizin atributları öz əksini tapıb. “Heydər Əliyevin 100 illiyi” yubiley medalının təsis edilməsi ulu öndərin əziz xatirəsinə ehtiramın ciddi bir nümunəsidir və parlament tərəfindən veriləcək töhfədir.

Qanun layihəsi səsə qoyularaq qəbul edildi.

Sonra iclas Sahibə Qafarovanın sədrliyi ilə davam etdirildi. Sədr bildirdi ki, 3 və 4-cü məsələlər – “Prokurorluq haqqında”, “Dövlət qulluğu haqqında” və “Prokurorluq orqanlarında qulluq keçmə haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihələri parlamentə cənab Prezidentin bir məktubu ilə daxil olub. Qanun layihələrində hər hansı bir dəyişiklik olmadığından səsə qoyularaq qəbul edildi.

“Dərman vasitələri haqqında” Qanunda dəyişiklik edilməsi qanunun layihəsini parlamentin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov təqdim etdi. Müzakirələr zamanı deputatlar dərmanların digər ölkələrlə müqayisədə respublikamızda həddindən artıq baha qiymətə və keyfiyyətsiz olduğunu bildirilər. Qeyd edildi ki, dərman vasitələrinin idxal prosedurunun sadələşdirilməsi təmin edilməlidir. Komitə sədri Q.Paşayeva dedi ki, xaricdən dərman gətirəndə gömrükdə icazə verilmir: “Hər kəsin pasportunda qeyd olunur ki, şəxs ildə neçə dəfə xaricə səfər edir. İki dəfə xaricə səfər edən şəxs bilinir ki, dərman alveri ilə məşğul deyil. Ona görə də bu problemlər aradan qaldırılmalıdır”.

Ə. Əmiraslanov deputat həmkarlarının dediklərinə cavab olaraq bildirdi ki, tək dərmanların qiyməti yox, eləcə də keyfiyyəti, əlçatanlığı və bu sahədə olan digər problemlərlə bağlı Səhiyyə Nazirliyi və hökumət birlikdə sənəd üzərində iş aparır: “Sənədin hazırlanması ilə bağlı işlər artıq başa çatmaq üzrədir. Güman edirəm ki, yaxın vaxtlarda belə sənədi görəcəyik. Bununla da dərman vasitələri ilə bağlı mövcud olan problemlərin həlli nəzərdə tutulur”.

Qanun layihəsi birinci oxunuşda səsə qoyularaq qəbul edildi.

Bununla da Milli Məclisin iclası başa çatdı.

***Əliqismət BƏDƏLOV,***
***“Xalq qəzeti”***

## YAP-da partiyanın Veteranlar Şurasının üzvü Əli Həsənovla görüş keçirilib



**Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatında partiyanın Veteranlar Şurasının üzvü Əli Həsənovun 75 illik yubileyi münasibətilə görüş keçirilib.**

YAP Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov yubilyarı doğum günü münasibətilə təbrik edib. O bildirib ki, Əli Həsənov Heydər Əliyev ideyalarına sadiq, möhkəm əqidəli və vətənpərvər şəxsiyyət kimi uzun müddət müxtəlif sahələrdə uğurlu fəaliyyət göstərərək öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirib və ölkəmizin inkişafına sanballı töhfələr verib.

Yubilyarı təbrik edən Yeni Azərbaycan Partiyasının Veteranlar Şurasının sədri Arif Rəhimzadə qeyd edib ki, Əli Həsənov uzun müddət müxtəlif vəzifələrdə uğurla çalışaraq ona göstərilən etimadı layiqincə doğruldub.

Göstərilən diqqətə və ünvanına söylənilən xoş sözlərə görə təşəkkürünü bildirən Əli Həsənov Azərbaycanı tərəqqi və Zəfər zirvəsinə yüksəldən Heydər Əliyev ideyalarına daim sadiq olduğunu diqqətə çatdırıb.

# Tehran Azərbaycanla bağlı məkrli niyyətindən əl çəkməlidir

**Aprelin 9-da Tehranda Hayastanın təhlükəsizlik şurasının katibi Armen Qriqoryan və İranın Ali Milli Təhlükəsizlik Şurasının katibi Əli Şamxani arasında görüş keçirilib. Azərbaycan və İran xarici işlər nazirləri – Ceyhun Bayramov və Hüseyn Əmir Abdullahianın aprelin 7-də və 8-də reallaşan telefon danışığından sonraya təsadüf edən görüşdə Əli Şamxaninin səsləndirdiyi fikirlər diqqəti cəlb edir.**



İran mediasının məlumatına görə, Şamxani bildirib ki, Qafqaz regionunda gərginlik və münaqişə heç bir ölkənin maraqlarına xidmət etmir. Onun sözlərinə görə, regional çağırışlara son qoymaq üçün daimi dialoqa ehtiyac var. Əli Şamxani əlavə edib ki, regional problemlərin həllinə sərt yanaşma daimi dialoq və təmaslarla əvəz olunmalıdır. İranın Ali Milli Təhlükəsizlik Şurasının katibi Qafqazda çətin dövrün gəldiyini qeyd edərək, Azərbaycan və Ermənistanın mövcud gərginlikdən çıxa biləcəklərinə ümid etdiyini bildirib: “İslam Respublikasının regiondakı bütün tərəflərə ən vacib tövsiyələrindən biri mehriban qonşuluq münasibətlərini saxlamaq və regional problemlərin sülh yolu ilə həlli üçün birgə səylər göstərməkdir”.

***

Yazının girişində Tehrandakı görüşün Ceyhun Bayramovla Hüseyn Əmir Abdullahianın telefon danışıqlarından sonraya təsadüf etməsini xatırlatmağımız səbəbsiz deyil. Məhz bu telefon danışıqları zamanı tərəflər son aylarda ilk dəfə olaraq qarşılıqlı şəkildə hər iki ölkənin ərazi bütövlüyü və suverenliyinə hörmətlə yanaşdıqlarını bildiriblər. Azərbaycan XİN-in yaydığı məlumatda o da qeyd olunur ki, iki ölkə arasında mövcud olan narazılıq və anlaşılmazlıqlarla bağlı müfəssəl müzakirə aparılıb. Anlaşılmazlıqların aradan qaldırılması üçün danışıqların davam etdirilməsinin vacibliyi vurğulanıb.

Həmçinin, Azərbaycanla İran arasında mövcud olan layihələrin icrası istiqamətində iş aparılmasına dair razılıq ifadə olunub. Ceyhun Bayramov Azərbaycanın milli maraqlarına əsasən həyata keçirdiyi müstəqil xarici siyasətinə və region ölkələri ilə ikitərəfli münasibətlərinə hörmətlə yanaşılmasının vacib olduğunu diqqətə çatdırıb. Nazirlər qarşılıqlı təmasların davam etdirilməsinin vacib olduğunu vurğulayıblar.

Bundan bir gün sonra, aprelin 10-da İran Xarici İşlər Nazirliyinin mətbuat katibi Nasir Kənani nazirlər arasında baş tutmuş telefon danışıqlarının nəticələrini müsbət qiymətləndirib. Kənaninin bu fikirlərinə dair şərhində XİN-in mətbuat katibi Ayxan Hacızadə deyib: “Xarici işlər nazirləri arasında baş tutmuş son telefon danışıqları zamanı ölkələrimiz arasında yaranmış məlum vəziyyətə dair ətraflı fikir mübadiləsi aparılıb. Azərbaycan tərəfi bu danışıqları müsbət qiymətləndirir və məsləhətləşmələrin davam etdirilməsini vacib hesab edir. Azərbaycan bütün qonşu ölkələrlə, o cümlədən, İranla hər zaman qonşuluq münasibətlərinin inkişafında maraqlı olub. Dövlətlərin ərazi bütövlüyü və suverenliyinə qarşılıqlı əsasda hörmət Azərbaycanın xarici siyasətinin dəyişməz prioritetidir. Bu xüsusda, Azərbaycan tərəfi ölkəmizin milli mənafeyi və milli təhlükəsizliyinin təmin olunması üçün səylərini davam etdirir”.

Göründüyü kimi, İran–Azərbaycan münasibətlərində son aylarda yaşanan davamlı gərginlikdən sonra, ilk dəfə olaraq, yumşalma meyilləri hiss olunur. Bu yumşalma meyillərini Əli Şamxaninin Qriqoryanla görüşündə işlətdiyi fikirlərdən də görmək mümkündür. Əlbəttə, biz İranın Azərbaycanla bağlı son 30 ildən artıq müddət ərzində yürütdüyü siyasəti bir neçə gün ərzində dəyişəcəyini gözləmirik. Bu gözləntidə olmaq həddən ziyadə sadəlövhlük olardı, ancaq həm nazirlərin telefon danışığı, sonra XİN-lərin mətbuat katiblərinin açıqlamaları və nəhayət, Qriqoryanla görüşdə Şamxaninin dediyi sözlər diqqətdən yayınmır. Bununla belə, Ə.Şamxani görüşdə A.Qriqoryana xoş gələcək bir ifadə də işlədib. Deyib ki, Cənubi Qafqazda istənilən coğrafi dəyişiklik regionun təhlükəsizliyinin və sabitliyinin düşmənləri tərəfindən istifadə olunacaq gərginlik yaradır.

***

Görünən budur ki, heç zaman özünün milli maraqlarından geri bir addım da atmayan Azərbaycanın prinsipial mövqeyi İran tərəfini rəsmi Bakı ilə hesablaşmağa məcbur edib. Tehran başa düşür ki, Azərbaycanla münasibətlərin pozulması İrana baha başa gələ bilər. Kollektiv Qərbin sanksiya məngənəsində sıxılan, Körfəz Əməkdaşlıq Şurasının üzvləri ilə münasibətləri gərgin olan, Yaxın Şərqdə İsrail kimi nüvə dövləti ilə kəskin qarşıdurma şəraitində yaşayan İranın daha bir qonşusu ilə əlaqələrinin pisləşməsi onun özü üçün yaxşı heç nə vəd etmir. Azərbaycan İran və onun ərazisindən keçən tranzit yüklərin Rusiyaya daşındığı mühüm ölkə, “Şimal–Cənub” Beynəlxalq Nəqliyyat Dəhlizinin aparıcı dövlətidir. Bu baxımdan, ümid edək ki, İran ölkəmizlə bağlı bəd niyyətlərindən yaxın vaxtlarda əl çəkəcək, rəsmi Bakının İrana münasibətdə zaman-zaman nümayiş etdirdiyi xoş mərama adekvat cavab verəcək, yaranmış gərginliyi səbəbkarının onun özü olduğunu tezliklə anlayacaq.

*Səxavət HƏMİD, “Xalq qəzeti”*

### Ekspert rəyi



**Rasim MUSABƏYOV, politoloq:**

– Ermənilər ənənəvi olaraq vurnuxurlar. Bir tərəfdən onların müdafiə naziri Brüsselə gedir, Ermənistanın NATO çərçivəsində təlimlərdə iştirakı məsələsini alyans rəhbərliyi ilə müzakirə edir, tərəfdaşlıq barədə planların cızılması məsələsini gündəliyə gətirir. Digər tərəfdən isə hayların təhlükəsizlik şurasının katibi gedib İranda hərbi-təhlükəsizlik sahəsində hansısa əməkdaşlıq barədə sazişin hazırlanmasından danışır. Bunu Ermənistanı dolandıran, onlara maddi, siyasi, mənəvi dəstək verən Qərbdəki havadarları görməli və reaksiya verməlidirlər. Deməlidirlər ki, sən nə üzlə ABŞ-dən də, Avropa İttifaqından da, Fransadan da dəstək alırsan, eyni zamanda, bu gün NATO-nun düşməni olan Rusiyanın müttəfiqi olursan? Həmçinin, Ermənistan dünyadan təcrid olunmuş molla rejimi ilə də yaxın əlaqələri möhkəmləndirir. Hər bir halda, Ermənistanın İranla hərbi sahədə əməkdaşlığının hansısa nəticəyə gətirib çıxaracağına inanmıram. Ancaq öz-özlüyündə, təbii ki, buna Qərb ölkələrindən qiymət verilməsi vacibdir. Haylar hər yerdən nəsə ummağa, nəsə qoparmağa və hamının onların başını sığallamasına öyrəşiblər. Nə edirlərsə etsinlər, əsas odur ki, Azərbaycanın güclü ordusu var və “dəmir yumruğu” da öz yerindədir.

*Bu yaxınlarda UNESCO-nun bir məmuru əsassız bir ifadə işlədib ki, guya, bizə müraciət olunub, Azərbaycan isə səssiz qalıb. Biz 30 il ərzində dəfələrlə UNESCO-ya müraciət etmişik, dəfələrlə bildirmişik ki, bizim məscidlərimiz dağıdılıb, tarixi abidələrimiz dağıdılıb, bizim tarixi abidələrimiz erməniləşdirilir, bir dəfə missiya göndərildimi? ...Amma baxın, görün, məscid olub bura, UNESCO, buraya gəl, gəl gör. Avropa Şurası, səssiz qalma, gəl gör buranı! Bütün məscidlər dağıdılıb. Yaxşı, məscidi dağıtmaq olar? Məscidi dağıtmaq, deməli, cinayət deyil?*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Zəngilan, 24 dekabr 2020-ci il**

# UNESCO erməni vandalizminə niyə göz yumub?

## Bu qurum artıq bəşəri missiyasını deyil, Fransanın sifarişlərini yerinə yetirir

**İkinci Dünya müharibəsindən sonrakı dövrdə dünyada davam edən ikili standartların törətdiyi eybəcərliklər bəşəri dəyərlərə kifayət qədər ağır zərbə vurmuşdur. Təbii ki, həmin ikili standartlar hansısa siyasi dairələr, ayrı-ayrı dövlətlər və ya müxtəlif lobbiçilərin, diaspor təşkilatlarının “əlinə baxan” tanınmış siyasətçilər tərəfindən “reallaşdırılırdı”. Yəni, bu halların öz üzərinə “hamıya münasibətdə ədalətli olmaq” missiyasını götürmüş beynəlxalq təşkilatlara dəxli yox idi. Çox təəssüf ki, indi beynəlxalq təşkilatlar da ənənəvi hal almış ikili standartlar “təcrübəsindən” gen-bol istifadə edir və bəhrələnirlər.**



Biz bunu BMT Təhlükəsizlik Şurasının məlum münaqişə ilə bağlı qəbul etdiyi qətnamələrin az qala otuz il kağız üzərində qalması zamanı da gördük, dünyadakı mədəni və tarixi abidələrin qorunması missiyasını üzərinə götürmüş UNESCO-nun ölkəmizin 20 faizindəki bütün abidələrin məhv edilməsinə biganə qaldığı zaman da. Biz ötən yazılarımızdan birində qeyd etmişdik ki, UNESCO-nun Azərbaycanla yüksək səviyyəli əməkdaşlığı olub və Azərbaycan dövləti və Heydər Əliyev Fondu bu qurumun fəaliyyətinin stimullaşdırılmasında kifayət qədər müsbət rol oynayıb.

Son zamanlar isə UNESCO rəhbərliyi Azərbaycanofobiya və Türkofobiya xəstəliyindən ciddi şəkildə əziyyət çəkir. Bu da səbəbsiz deyil. Həmin beynəlxalq təşkilata fransız əsilli bir animasiya mütəxəssisinin gətirilməsindən sonra UNESCO sanki Paris tərəfindən özəlləşdirilib. Xanım Odri Azule özünü elə aparır, rəhbərlik etdiyi qurumun fəaliyyətini elə istiqamətləndirir ki, sanki bu təşkilatın təsisçisi BMT yox, Fransa senatıdır. Bu ədalətsizliyin nə qədər davam edəcəyi, bu riyakarlığa nə zaman son qoyulacağı hələ ki, məlum deyil. Biz güman edirik ki, BMT Təhlükəsizlik Şurasındakı ikili standartlara son qoyularsa, UNESCO rəhbərliyindəki ədalətsizliklər də aradan qaldırıla bilər və məhz həmin zaman biz yenə də bu qurumun fəaliyyətində məmnuniyyətlə iştirak edərik.

Siyasətçilərimiz, politoloq və ekspertlərimiz haqlı olaraq soruşurlar ki, beynəlxalq təşkilatlar söhbət Azərbaycandan gedən zaman niyə qəbul edilmiş prinsiplərə əməl etmirlər? Çox çətin sualdır. Ancaq bu çətin sualı ortaya atanlar haqlıdırlar. Fikrimizi konkret faktlarla əsaslandıraq. Mətbuatdan məlum olduğu kimi, UNESCO-nun Baş direktoru Odri Azule bu yaxınlarda Ukraynaya ikigünlük səfər edib. Öz həqiqi funksiyasını və rəhbərlik etdiyi qurumun missiyasını yerinə yetirmək istəyən bu xanım müharibə nəticəsində dağıdılmış və ziyan dəymiş mədəni obyektlər daxil olmaqla, Ukraynanın mədəniyyət obyektlərini ziyarət edib. Təbii ki, bu addımlar son dərəcə əhəmiyyətlidir. Maraqlıdır, bəs həmin vəhşiliklər Azərbaycan ərazisində törədiləndə bu qurum harada idi və Azulenin gözlərini kim bağlamışdı? Təbii ki, ermənilərin səsinə və başqa nələrinəsə ehtiyacı olan Emmanuel Makronun idarə etdiyi Fransa dövləti.

Avropada və ümumiyyətlə, dünyada hamıya məlumdur ki, işğalçı Ermənistan dövləti otuz ilə yaxın müddətdə Azərbaycanın mədəni, tarixi və dini abidələrini demək olar ki, tamamilə dağıdıb. Ancaq həmin vəhşiliklərə lazımı qiyməti verməli olan UNESCO susub. Halbuki, belə bir missiyaya ehtiyacın olduğunu bu ərazilərə səfər etmiş istənilən xarici diplomatik nümayəndəliyin əməkdaşı və ya Qərbdən olan jurnalist dəfələrlə etiraf etmişdi.

Hətta pakistanlı beynəlxalq əlaqələr üzrə analitik Xalid Taymur Əkrəm UNESCO-nun bu faktlara biganəliyini açıq şəkildə qınamışdır: “Azərbaycan Ermənistanın 30 illik işğal zamanı törətdiyi vəhşiliklərə dair bütün sübutları dəfələrlə təqdim edib. Xüsusilə, Qarabağın bütün mədəni, dini və tarixi abidələrinin dağıdılması qeydə alınıb, sənədləşdirilib və ictimaiyyətə təqdim edilib. Əsas məqsədi tarixi-mədəni irsin qorunub saxlanması olan təşkilatın (UNESCO) nümayəndələri işğaldan azad edilmiş Azərbaycan torpaqlarına səfər edənlərin siyahısında birinci olmalı idilər. Bu, ikili standartların birbaşa nümayişi deyilsə, bəs nədir?”

Bu zaman başqa bir sual da ortaya çıxır. Tutaq ki, UNESCO rəhbərliyi Ermənistan dövlətinin hansısa absurd hesabatlarına və yalanlarına inanaraq, Azərbaycan ərazisinə missiya göndərmək istəmir. Göndərməsin və göndərən günü də olmasın. Bəs Ermənistan ərazisində dağıdılan, tar-mar edilən, yer üzündən silinən Azərbaycan abidələrini – məscid və məbədlərimizi niyə görmür və vandallara “Əl saxla!” – demirlər. Axı Ermənistan Fransanın Afrikadakı vassallarından heç nə ilə fərqlənmir. UNESCO missiyası oraya rahatca gedə bilər və gedir. Gedirlər və bizim abidələrimizin dağıdılmasını və öz torpaqlarımızdan tariximizin silindiyini “görmürlər”. Amma, görəcəklər. Dünya belə qalmayacaq və Parisin özəlləşdirdiyi UNESCO öz əzəli missiyasını və bəşər mədəniyyəti qarşısındakı funksiyalarını yerinə yetirəcək.

UNESCO rəhbərliyi unutmasın ki, Azərbaycan hər zaman bu quruma ciddi töhfələr vermiş ölkələrdəndir. Dünyanın bir çox yerində bəşəri mədəniyyətin bir parçası adlanan nümunələrin qorunmasında Azərbaycan həm təşəbbüskar, həm də maliyyəçi qismində iştirak edib. Ekspertlərin fikrincə, UNESCO-nun ən yeni tarixində, fəaliyyətində, nüfuzunun artırılmasında mənəvi mənada borcu olduğu ölkələrdən biri, məhz Azərbaycandır. Mütəxəssilər bu fikirdədirlər ki, UNESCO-nun mənəvi cəhətdən borclu olduğu ölkəyə qarşı belə yanaşması yolverilməzdir. Xanım Azule ya bu səhvlərini düzəltməlidir, ya da bəşər övladının tarixi abidələrinə, maddi-mədəniyyətinə zərbə vuranları müdafiə etdiyinə görə dünyanın mütərəqqi insanlarının daimi qınaq ünvanına çevriləcək.

*İttifaq MİRZƏBƏYLİ, “Xalq qəzeti”*

### Ekoaksiyanın gündəliyi

# Ekoloji marafon çağdaş vətənpərvərlik salnaməsidir

**Bu gün Laçın–Xankəndi yolunda – Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində ekofəallarımızın faydalı qazıntı yataqlarının qanunsuz istismarı ilə bağlı başladıqları aksiyanın 4 ayı tamam oldu. Ötən aylar ərzində sırf dinc xarakter daşıyan aksiya Azərbaycanın vətəndaş cəmiyyətləri tərəfindən səbir və dözümlə, dövlət qanunvericiliyinin bütün şərtlərinə əməl etməklə keçirilir. Dünən yalnız səhər saatlarında Xankəndidən Laçın istiqamətinə hərəkət edən Beynəlxalq Qırmızı Xaç Komitəsinə məxsus 5 yük və 8 minik avtomobili ərazidən maneəsiz keçib.**



Yolun humanitar məqsədlər üçün tam açıq olması Ermənistanın blokada ilə bağlı səsləndirdiyi iddiaların saxta olduğunu bir daha göstərir. Min bir dona girən riyakar düşmən isə aksiyanı dayandırmaq üçün hər bir vasitədən istifadə edib beynəlxalq qurumlardan dəstək almaq istəyir. Vaxt daraldıqca hazırkı vəziyyətdə ərazilərimizin işğalını, eləcə də torpaqlarımızdan qeyri-qanuni istismarı davam etdirməyin mümkünsüz olduğunu görüb hətta “saman çöpündən yapışır”. Baxmayaraq ki, Azərbaycanın tarixi Qələbəsi ilə nəticələnən 44 günlük müharibədən sonra Hayastanın işğalçılıq planları alt-üst olub, amma düşmən ölkə hələ də havadarlarının dəstəyinə ümid edir.

Bu günlərdə İranın Ali Milli Təhlükəsizlik Şurasının katibi Əli Şamxaninin ermənistanlı həmkarı ilə görüşündə Tehranın regionda istənilən coğrafi dəyişikliyə qarşı çıxacağını yenidən bəyan etməsinin Ermənistan mətbuatında geniş yer alması dediklərimizin sübutudur. Haylar hələ də, xarici havadarlarından dəstək alacaqlarını düşünürlər. Qonşu İranın mövcud vəziyyəti gərginləşdirmək cəhdlərinin səbəbsiz olmadığını düşmən özü də yaxşı başa düşür. Təxminən, 30 il ərzində İranın Ermənistanla birləşib Azərbaycanın keçmiş işğal altında olan ərazilərindən Avropaya narkotik vasitələrin daşınması üçün istifadə etməsi haylara da böyük mənfəət gətirib. Onlar “Bəlkə də qaytardılar” xülyası ilə hələ də gözləyirlər.

Amma, bununla belə, ötən dövr ərzində Azərbaycanın yerüstü, yeraltı sərvətlərini vəhşicəsinə talan edib, ekologiyanı dəhşətli terrora məruz qoyduqları üçün gec-tez cavab verəcəklərini də anlayırlar. Çünki bunu regionda yaranan hazırkı reallıq tələb edir. Başa düşürlər ki, Qarabağdakı terrorçu dəstələrin bölgədə qalması elə erməni xalqının da başına müsibətlər gətirir. Təbii ki, xarici qüvvələrin regionda sülhün, sabitliyin bərqərar olmasına böyük maneə yaratmaları Ermənistanın gələcəyi üçün yaxşı heç nə vəd etmir. Məhz belə qüvvələrin təsirindən Ermənistan tərəfi sülh sazişi üzrə danışıqlar prosesinin razılaşdırılmış gedişatını pozmaqda davam edir.

Azərbaycan Prezidenti İlham Əliyev bu günlərdə çıxışında Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması ilə bağlı danışarkən qeyd edib ki, biz normallaşma əzmindəyik və İkinci Qarabağ müharibəsi başa çatandan sonra məhz Azərbaycan sülh müqaviləsi üzərində işə başlamağı təklif etdi. Praktiki olaraq bu iş başlanıb, amma bizim istədiyimiz kimi rəvan getmir. Dövlətimizin başçısı bunun alternativinin olmadığını da qeyd edib.

Azərbaycan Prezidentinin bu fikirləri düşmən ölkəyə də, onun havadarlarına da ciddi mesajdır. Ermənilər bilməlidirlər ki, özlərini torpaqlarımızın ağası kimi apara, əvvəllər olduğu kimi xarici havadarları ilə birləşib təbii sərvətlərimizin vəhşicəsinə talanını davam etdirə bilməzlər. Ekoaksiyaçılarımız hayların ümidlərini puça çıxarırlar. Ötən aylar ərzində onların bütün çətinliklərə rəğmən, qışın ən sərt günlərində belə, haqlı tələbləri yerinə yetirilməyincə yüksək ruhla etirazlarını davam etdirmələri də xalqımızın qəti iradəsinin təcəssümü, çağdaş vətənpərvərlik salnaməsidir.

*Leyla QURBANOVA, “Xalq qəzeti”*

# Qazaxıstan enerji sahəsində mötəbər tərəfdaşdır

**Xəzərin sağ və sol sahillərində, əlverişli geosiyasi məkanda yerləşən Azərbaycan və Qazaxıstan arasında dostluq, qardaşlıq münasibətləri qədim tarixi köklərə malikdir. Ötən əsrin sonlarında tarixi zərurət nəticəsində müstəqillik əldə etmiş bu iki türk respublikasının münasibətləri hazırda müttəfiqlik və strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. İndi ölkələrimiz arasında bir çox sahələrdə olduğu kimi, iqtisadiyyat sahəsində də geniş əlaqələr mövcuddur.**




Xatırladaq ki, iqtisadi əməkdaşlığı inkişaf etdirmək məqsədilə dost və qardaş ölkələrin iştirakı ilə 1999-cu ildə Ticari-İqtisadi Əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiya yaradılıb. Ötən müddətdə komissiyanın 19 iclası keçirilib. Həmin iclaslarda iki ölkə arasında ticarət-iqtisadi, energetika, nəqliyyat, logistika, sənaye və informasiya-kommunikasiya texnologiyaları, kənd təsərrüfatı və qida təhlükəsizliyi sahələrində ikitərəfli əlaqələrin mövcud vəziyyəti müzakirə olunub, gələcək əməkdaşlığın genişləndirilməsi ilə bağlı növbəti addımlar müəyyənləşdirilib.

Azərbaycan və Qazaxıstan arasında energetika sahəsində də əlaqələrin çoxillik tarixi var. Belə ki, hələ keçmiş sovetlər dönəmində Azərbaycan neftçiləri Qazaxıstanın Manqışlaq və Quryev neft mədənlərində qazaxlı həmkarları ilə birgə fəaliyyət göstəriblər. Eyni zamanda Azərbaycan və Qazaxıstandan olan neftçilər, geoloqlar və mühəndislər Xəzər akvatoriyasında yerləşən perspektivli sahələrin araşdırılmasında da fəal əməkdaşlıq ediblər.

Hazırda Azərbaycanın Qazaxıstanla energetika sahəsində əməkdaşlığı yeni inkişaf dövrünü yaşayır. Xatırladaq ki, hələ Prezident İlham Əliyevin 2004-cü ildə Qazaxıstana ilk rəsmi səfəri zamanı bu ölkənin o zamankı dövlət başçısı Nursultan Nazarbayevlə ölkələrimiz arasında iqtisadi münasibətlər, xüsusən də, Xəzərin karbohidrogen ehtiyatlarının dünya bazarına nəql edilməsi sahəsində əməkdaşlıq məsələlərinə dair geniş fikir mübadiləsi aparılmışdı. 2006-cı ildə isə "Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında neftin Qazaxıstan Respublikasından Xəzər dənizi və Azərbaycan Respublikasının ərazisi ilə Bakı–Tbilisi–Ceyhan sistemi vasitəsilə beynəlxalq bazarlara nəql edilməsinə dəstək verilməsi və şərait yaradılması haqqında" müqavilə imzalanmışdı.

Artıq bu ilin mart ayından başlayaraq qazax neftinin Azərbaycan ərazisindən, Heydər Əliyev adına Bakı–Tbilisi–Ceyhan (BTC) boru kəməri ilə tranzitinə başlanılıb. Martın 23-də Qazaxıstan neftinin ilk partiyası tankerlə Aktau limanından Səngəçal terminalına çatdırılıb. Ayın 27-də isə "KazTransOil" şirkəti Aktau limanında "Prezident Heydər Əliyev" tankerinə 9959 ton "Tengiz" nefti yükləyərək BTC kəməri ilə nəql edilməsi üçün Azərbaycana yola salıb.

Aprel ayında BTC ilə daha 125 min ton Qazaxıstan nefti nəql olunacaq. Bütövlükdə isə, 2023-cü ilin sonuna kimi Xəzər dənizi ilə ay ərzində 12–14 tankerlə daşınacaq Qazaxıstan neftinin BTC-yə vurulması planlaşdırılır. Onu da qeyd edək ki, SOCAR Qazaxıstan neftini BTC-yə qəbul etmək üçün ötən il Səngəçal terminalının ərazisində toplayıcı boru kəmərləri şəbəkəsinin yenilənməsi istiqamətində mühüm layihələr həyata keçirib. Bu da BTC-nin ötürmə gücündən istifadə səviyyəsini xeyli artırıb. Qazaxıstanın "Tengiz" yatağından hasil edilən neftin BTC ilə nəqli SOCAR və "KazMunayQaz" şirkəti arasında ildə 1,5 milyon ton neftin tranzitini nəzərdə tutan saziş çərçivəsində həyata keçirilir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin aprelin 10-da Qazaxıstana rəsmi səfəri isə ölkələrimiz arasında iqtisadi əlaqələrin mühüm tərkib hissəsi sayılan energetika sahəsində əməkdaşlığın genişləndirilməsi üçün də yeni imkanlar yaradır. Belə ki, səfər çərçivəsində dövlət başçılarının keçirdikləri məhdud və geniş tərkiblərdə görüşlər zamanı iki ölkə arasında nəqliyyat-logistika imkanlarının daha da artırılması, kənd təsərrüfatı sahəsində əməkdaşlıq, həmçinin birgə investisiya layihələri ilə yanaşı, Qazaxıstan neftinin Azərbaycan ərazisindən ixracı da müzakirə olunub.

Elə dövlət başçıları həmin gün mətbuata bəyanatlarla çıxış edərkən də energetika sahəsində əməkdaşlığın genişləndirilməsinin vacibliyini diqqətə çatdırıblar. Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev hazırda enerji resurslarının dünya bazarlarına çatdırılmasının daha da şaxələndirilməsinin ölkəsi üçün prioritet vəzifə olduğunu diqqətə çatdıraraq deyib: "Bildiyiniz kimi, bizim razılaşmalar sayəsində bu il Qazaxıstan neftinin ilk partiyası Azərbaycandan keçməklə göndərilib. Növbəti addım tədarük həcminin artırılması və bu işlərə uzunmüddətli sabit xarakter verilməsidir. Fürsətdən istifadə edib bu mühüm təşəbbüsləri şəxsən dəstəklədiyinə görə Azərbaycanın lideri, hörmətli İlham Heydər oğlu Əliyevə minnətdarlığımı bildirmək istəyirəm".

Azərbaycanın dövlət başçısı İlham Əliyevin bəyanatında səsləndirdiyi fikirlər də bu baxımdan diqqət çəkir: "Ölkələrimiz arasında müttəfiqlik münasibətləri bizim qarşılıqlı fəaliyyətimizin gələcək inkişafının möhkəm təməlidir. Bu gün biz bu təməli konkret məzmunla zənginləşdiririk və ötən ilin avqust ayında Bakıda qəbul edilmiş qərarlar, o cümlədən, Prezident Tokayevin qeyd etdiyi kimi, Qazaxıstan neftinin Azərbaycandan keçməklə tranzitinin başlanması, Orta Dəhlizin imkanlarını tam həcmdə səfərbər etmək üçün ölkələrimizin nəqliyyat-logistika infrastrukturlarının birləşdirilməsi üzrə ciddi işin başlanması barədə qərarlar bu gün artıq reallaşır".

Yeri gəlmişkən, bir qədər əvvəl, aprelin 7-də Bakıda keçirilən Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında ticarət-iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyasının 19-cu iclasının nəticələri ilə bağlı imzalanmış protokolda da Azərbaycanın öz ərazisi vasitəsilə Qazaxıstan neftinin dünya bazarlarına daşınmasının həcmini artırmağa hazır olduğu bildirilib. Qazaxıstan Baş nazirinin müavini–ticarət və inteqrasiya naziri Serik Jumanqarinöz isə ötən cümə günü Bakıda jurnalistlərlə söhbət zamanı deyib ki, hazırda Bakı-Tbilisi-Ceyhan boru kəməri 40 faiz yüklənib. "Orada hələ də təxminən 20 milyon ton mümkün ötürmə gücü qalmaqdadır. Və bu, prinsipcə, birgə əməkdaşlıq çərçivəsində hədəflədiyimiz həcmdir", – deyə o, əlavə edib.

Qazaxıstan neftinin BTC vasitəsilə nəqlinə başlanılması isə öz növbəsində ölkələrimiz arasında enerji sahəsində əməkdaşlığın yeni mərhələyə qədəm qoymasından xəbər verir. Eyni zamanda bu sahədə əməkdaşlıq Azərbaycanın Mərkəzi Asiya ilə energetika sahəsində əlaqələrin yaradılmasına təkan verəcək.

**Mirbağır YAQUBZADƏ,**
**"Xalq qəzeti"**




# Avropa ölkəmizin zəngin "yaşıl hidrogen" ehtiyatına böyük maraq göstərir

**Hidrogen rəngsiz, qoxusuz, şəffaf cəhətləri ilə ən yüngül element olaraq karbonsuz gələcək üçün ən zəruri element hesab edilir və təmiz enerji sistemlərində "gələcəyin enerjisi" kimi qiymətləndirilir.**

Hidrogen çəkisinə görə istənilən yanacaqdan daha çox enerji tutumuna, məsələn, benzindən təxminən üç dəfə çox, lakin həcminə görə həmin yanacaqdan dörd dəfə az enerji tutumuna malikdir. Lakin hidrogen elementinin təbiətdə saf element şəklində olmaması və birləşmələr halında mövcudluğu bu mənbədən enerji baxımından istifadəni çətinləşdirir. Hidrogen su, biokütlə və digər yanacaq növləri daxil olmaqla, müxtəlif mənbələrdən əldə edilməklə enerji və ya yanacaq mənbəyi kimi istifadə olunur.

Mütəxəssislərin fikrincə, hidrogen təmiz yanan yanacaq növüdür. Onun alovlanması yan məhsul kimi yalnız su buxarının əmələ gəlməsi və bu proses zamanı istilik və elektrik enerjisinin istehsalının gerçəkləşməsi ilə müşahidə olunur.

Hidrogenin potensialı iqlim dəyişikliyi ilə mübarizə tədbirlərində də çox yüksək qiymətləndirilir. Dekarbonizasiya prosesinin daha mürəkkəb olduğu dəniz, hava nəqliyyatı və müəyyən sənaye proseslərində hidrogen enerjisi ənənəvi yanacaqları əvəzetmə qabiliyyətinə malikdir.

"yaşıl hidrogen" istehsalının aşağı maya dəyərini gerçəkləşdirməyə imkan verir", – idarəçilik üzrə dünyada ən böyük qlobal konsaltinq şirkətlərindən olan "Boston Consulting Group"un icraçı direktoru və tərəfdaşı Vladimir Roqov bildirib. O, Avropada hidrogenin qiymətinin təqribən 5,8 ABŞ dolları/kiloqram olmaq ehtimalını nəzərə alaraq, Azərbaycanın il ərzində təxminən 230-500 milyon ABŞ dolları əldə edə biləcəyini proqnozlaşdırıb.

V.Roqov daha sonra bildirib ki, Azərbaycan mövcud qaz kəmərləri şəbəkələri vasitəsilə Avropaya axının 10–15 faizi həddində hidrogeni səmərəli və sərfəli şəkildə nəql edə bilər. Bu isə xüsusən də Böyük Səhradan cənubda yerləşən ölkələrdən mayeləşdirilmiş hidrogenin dəniz yolu ilə son dərəcə səmərəsiz daşınması ilə müqayisədə daha sərfəlidir.

İcraçı direktorun sözlərinə görə, hidrogenə gələcək tələbatı nəzərə alaraq hazırda yeni boru kəmərlərinin tikintisi imkanlarını nəzərdən keçirməyə dəyər. Məsələn, TAP-ın ötürücülük qabiliyyətinin illik 11 milyard kubmetr qaz olduğunu nəzərə alaraq, Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya arasında bərpaolunan enerji və hidrogen üzrə dördtərəfli əməkdaşlıq və "yaşıl enerji" dəhlizinin inkişafını nəzərdə tutan strateji tərəfdaşlıq sənədi də Avropa Komissiyasının Prezidentinin iştirakı ilə imzalanması da bu baxımdan mühüm önəm daşıyır.

Sonda qeyd edim ki, Azərbaycanın "yaşıl enerji" ilə bağlı siyasəti bu sahənin inkişafına dövlətin maliyyə vəsaitlərini deyil, xarici şirkətləri cəlb etməyə yönəlib. Xarici investorlarla artıq 710 MVt gücündə külək və günəş enerji layihələrinin icra edilməsinə başlanılıb, 25 QVt-a yaxın istehsal gücləri üzrə əməkdaşlıq sənədləri isə imzalanıb. Bu potensial əsasında ölkəmizin Avropaya "yaşıl enerji"ni tədarük etmək niyyəti ifadə edilib. Xəzər dənizindəki mövcud 157 QVt-lıq külək potensialının isə Avropa İttifaqına yüksək gərginlikli xətlər vasitəsilə elektrik enerjisi, "yaşıl hidrogen", ammonyak şəklində veriləcəyi ilə bağlı Avropa Komissiyası və özəl şirkətlərlə birlikdə müzakirəsinə başlanılıb.

### *Ekspert rəyi*

**Hüseynqulu QULİYEV, iqtisadçı-ekspert:**



– Enerji keçidi və hidrogenlə bağlı ölkəmizin planları dayanıqlı inkişaf üçün davamlı enerji kontekstində mühüm daşıyır. Bu baxımdan 2030-cu ilədək təmiz ətraf mühitə malik "yaşıl artım" ölkəsinə çevrilmək Azərbaycanın dövlət siyasətində prioritet istiqamətlərdən biridir. "Yaşıl enerji" ilə bağlı siyasi iradə, 200 QVt-a yaxın bərpa olunan enerji potensialı və etibarlı tərəfdaşlıq mühiti respublikamıza enerji keçidini reallaşdırmaqla yanaşı, bərpaolunan enerji növlərinin, o cümlədən hidrogenin təchizatçısına çevrilməsinə imkan verir. "Masdar", "ACWA Power", BP və "Fortescue Future Industries" şirkətləri ilə "yaşıl enerji" və hidrogen üzrə ümumilikdə 22 QVt-dan çox güclərin yaradılması isə enerji keçidinə milli və qlobal səviyyədə töhfə verəcəyinə əminlik yaradır.

Respublikamızın enerji tədarükçüsü kimi gələcək rolu barədə isə onu deyə bilərəm ki, Azərbaycan Avropanın enerji təchizatını alternativ mənbələrlə şaxələndirən ölkədir. Bu coğrafiya Avropa üçün neft, təbii qazdan sonra bərpaolunan enerji və hidrogenin potensial mənbəyi kimi tanınır.

Avropanın qaz təchizatının diversifikasiyasında strateji rol oynayan Cənub Qaz Dəhlizi ilə hazırda qaz tədarükünün artırılması ilə yanaşı, hidrogenin də nəqli nəzərdən keçirilir. Hidrogen, ümumən "yaşıl enerji"nin istehsalı və ixracı Avropa İttifaqı ilə yenilənmiş strateji tərəfdaşlığımızın mühüm komponentidir. Azərbaycan, Gürcüstan, Macarıstan

Azərbaycanda "yaşıl hidrogen" sənayesinin inkişafı üçün mövcud əlverişli şərait ölkəmizə xarici investorların marağını getdikcə artırır, hidrogen sektorunun və bərpaolunan enerji mənbələrinin sürətli inkişafını şərtləndirir. Belə ki, "Global Solar Atlas" Agentliyinin məlumatına görə, Azərbaycan günəş enerjisinin potensialına görə İtaliyanın cənubu ilə müqayisə oluna bilər və bu baxımdan Almaniyanı demək olar ki, 1,5 dəfə üstələyir. Digər tərəfdən, Abşeron yarımadasında külək enerjisinin potensialı Şimal dənizinin şelf rayonları ilə müqayisə oluna biləcək səviyyədədir.

"Azərbaycanın bərpa olunan enerji resurslarının potensialı son dərəcə yüksəkdir ki, bu da respublikaya mühüm rəqabət üstünlüyü, daha doğrusu, candan hidrogenin nəqli potensialı illik 40-85 min ton təşkil edir (qaz həcminin 5-10 faizi). Bu, təkcə İtaliyanın 2030-cu ilə proqnozlaşdırılan hidrogen tələbatının cəmi 2-4 faizinə (2,3 milyon ton) bərabərdir.

Energetika naziri Pərviz Şahbazov isə Əbu-Dabi Davamlılıq Həftəsi çərçivəsində keçirilən "Yaşıl hidrogen sammiti"ndəki çıxışında xalis sıfır emissiya iqtisadiyyatlarına qlobal keçiddə mühüm rola məxsus "yaşıl hidrogen"i enerji və ekoloji təhlükəsizliyi gerçəkləşdirilməsi baxımından alternativi olmayan enerji vasitəsi kimi dəyərləndirilib.

**Vaqif BAYRAMOV,**
**"Xalq qəzeti"**

# "ACE" layihəsinə 2,9 milyard dollar vəsait ayrılıb

**"Azəri-Çıraq-Günəşli" yataqlar blokunun növbəti işlənmə mərhələsi çərçivəsində həyata keçirilən "ACE" layihəsinə indiyədək 2,9 milyard dollar vəsait ayrılıb.**



Bu barədə jurnalistlərə layihənin mexaniki təhvil üzrə rəhbəri Şükür Sadıxov bildirib. Onun sözlərinə görə, layihənin ümumi dəyəri 6 milyard dollar təşkil edir.

Ş. Sadıxov daha sonra bildirib ki, layihə çərçivəsində artıq iş həcminin 85 faizi tamamlanıb. Ötən müddətdə heç bir insan xəsarətinə yol verilmədən 25 milyon saat iş görülüb.

Qeyd edək ki, "ACE" layihəsi çərçivəsində ilk neftin hasilatı 2024-cü ilin birinci rübünə nəzərdə tutulur.

***"Xalq qəzeti"***

# İşğaldan azad olunmuş ərazilərdə yeni istehsal sahələri yaradılır

**Cəbrayıl rayonundakı "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında İtaliyanın "İveco" markalı avtomobilləri üçün servis mərkəzinin yaradılmasına dair layihə işləri başa çatıb.**



Bu barədə İqtisadiyyat Nazirliyi İqtisadi Zonaların İnkişafı Agentliyinin sədri Elşad Nuriyev məlumat verib. Yaxın vaxtlarda mərkəzin inşasına başlanılacağını bildirən E. Nuriyev onu da deyib ki, hazırda Ağdam Sənaye Parkında da bir neçə layihə ilə bağlı müraciətlərə baxılır.

Xatırladaq ki, ötən il Sumqayıt Kimya Sənaye Parkında rezident kimi qeydə alınmış "Az-Tex-Import" MMC 3 hektar ərazidə İtaliyanın qabaqcıl texnologiyalarının tətbiqi ilə "İveco" markalı yüngül, orta və ağır tonnajlı yük və xüsusi təyinatlı avtomobillərin istehsalını planlaşdırır. İnvestisiya dəyəri 19,2 milyon manat olan layihə çərçivəsində 90 nəfər daimi işlə təmin ediləcək.

Bununla yanaşı, 2023-cü ilin iyul ayında Qarabağda yük avtomobillərinə servis xidməti göstərəcək müəssisə də işə salınacaq. Artıq Rusiya–Azərbaycan birgə müəssisəsi olan "Auto Leasing Azerbaijan"da tikinti işlərinin 85 faizi artıq tamamlanıb.

***"Xalq qəzeti"***

# İlk rübdə 6,4 milyard kubmetr qaz ixrac edilib

**2023-cü ilin birinci rübündə Azərbaycanda 7,7 milyon ton neft və kondensat hasil edilib. Bunun da 6,4 milyon tonu ixraca yönəldilib.**

Bu barədə energetika naziri Pərviz Şahbazov "Twitter" hesabında paylaşım edib. Nazirin sözlərinə görə, hesabat dövründə 3 faiz artımla hasil edilmiş 12,2 milyard kubmetr qazın 6,5 milyard kubmetri ixrac olunub.

Paylaşımda qeyd edildiyi kimi, yanvar-mart aylarında qaz ixracı 11,2 faiz artıb. İxrac olunmuş ümumi qazın 2,9 milyard kubmetri Avropanın, 2,7 milyard kubmetri Türkiyənin, 0,9 milyard kubmetri isə Gürcüstanın payına düşüb. Hesabat




dövründə TANAP Türkiyəni 1,4 milyard kubmetr qazla təchiz edib.

***"Xalq qəzeti"***

# Şuşa, sən əbədi bizimsən!

## Bundan sonra heç bir qüvvə bizi bu şəhərdən ayıra bilməyəcək

**Xocavəndin Yuxarı Güzlək kəndində 7 igid kəşfiyyatçımızın xatirə mərasimindən sora Şuşaya yola düşdük. Bu qala-şəhərin görüşünə, Qarabağ şəhidlərinin, Vətən uğrunda canından keçən övladların–yenilməz döyüşçülərin qalib ruhlarını ziyarətə gedirik. Yol boyu viran qoyulan kəndlərin, dağıdılan evlərin, qəbiristanlıqların yanından keçdikcə, düşmənin vəhşiliyindən, yağının insan adını necə alçaltdığından bir daha dəhşətə gəldik.**



Avtobusun pəncərəsindən görünən bu acı mənzərə mənə qohumum Vahid Quliyevin neçə illər əvvəl dediyi sözləri xatırlatdı. Əslən şuşalı olan Vahid kişi doğma şəhərə gedən yollar bağlanandan sonra dinclik, rahatlıq tapmadı. Biçarə dünyanın ən ağır dərd-kədər yükünü – Vətən həsrətini daşıdı, ölkəsində Vətən yanğısı ilə yaşadı. Dərdi ovuda-ovuda: “Uğursuz sevgi də, doğma adamların vaxsız-vədəsiz itkisi də, dost xəyanəti də gec-tez vaxtın, zamanın gücünə təslim olur, unudulur. Təkcə yurd-yuva, od-ocaq yarası sağalmır, qaysaq bağlamır”, – dedi.

Bəli, Şuşa 28 il yarım şuşalıların gözlərində dumana-çənə büründü. Bəlkə də bu illərdə övladlarını itirən, yadlara üz göstərməyən Şuşaya yaz-yay da gəlmədi. Sazın-sözün çal-çağırına həsrət qalan Cıdır düzü yağının qudurğan kef məclislərinin məkanına çevrildi...

1992-ci il mayın 8-də bu dağ şəhəri erməni faşizminin caynağına keçdi, yurdundan qovularaq, kənd-kənd, şəhər-şəhər səpələnən şuşalıların məcburi köçkün həyatı başladı. Düz 28 il yarım uzun bir zaman ərzində onlar gündüzlər min bir qayğının ağır yükü altında, gecələr əzablı yuxuların qoynunda Şuşa intizarı ilə – yurd yerlərinə dönmək, sönmüş ocaqlarını yandırmaq istəyilə yaşadılar. Beləcə bu nisgilli insanlar bir-birinə calanan əzablı illərin hər günündə doğma obalarına dönmək, hər daşa, qayaya üz sürtmək, hər gülün-çiçəyin ətrini sinələrinə doyunca çəkmək həsrətilə sabahlara ümidlə boylandılar.

Qarabağın işğalda olmayan azad yelərinə gəlib Şuşa qalasına sarı boylandılar. Kədərli, hüznlü baxışlarını qala səmtdən saatlarla çəkmədilər. Bu lal baxışları ilə sanki, yurda qovuşmaq arzularına çatmaqda o şəhərin başı üzərində dolaşan narahat ruhlardan imdad, kömək dilədilər. Onları yurd-yuvalarından didərgin salan, doğmalarının qəbirlərini tapdalayan azğın–yolsuz düşməni cəzalandırmağı da o ruhlara tapşırdılar.



***

Şuşa işğal edildiyi gündən –1992-ci il mayın 9-dan ta azad edilən günədək heç kimdə bu qala-şəhərin nə vaxtsa yağı tapdağından xilas olunacağına şübhə yox idi. Hamıda o günün nə vaxtsa gələcəyinə, doğma Qarabağımızın “döyünən ürəyinin” düşməndən təmizlənəcəyinə qəti əminlik var idi. Bu inamı Azərbaycan Ali Baş Komandanı İlham Əliyevin qətiyyəti sayəsində ordumuzun gündən-günə artan güc-qüdrəti yaratmışdı.

2020-ci il sentyabrın 27-də başlayan əks-həmlə əməliyyatları ilə Silahlı Qüvvələrimiz addım-addım Şuşaya yaxınlaşırdı, bu, dövlətimizin başçısının dediyi kimi, uğura bir nəfəs qədər yaxın olduğumuzdan xəbər verirdi, Prezident İlham Əliyevin o zaman Türkiyə mətbuatına verdiyi müsahibələrin birində “Şuşa azad edilmədən bu əməliyyat tamamlanmış sayılmaz, yarımçıq qalar” – söyləməsi də bu qələbəyə, uğura yönələn ümid və əminliyimizi daha da artırırdı.

Nəhayət, o gün gəldi. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev 2020-ci il noyabrın 8-də xalqımızı Şuşanın işğaldan azad edilməsi münasibətilə təbrik edərək dedi: “Böyük fəxarət və qürur hissi ilə bəyan edirəm ki, Şuşa şəhəri işğaldan azad edildi! Şuşa bizimdir! Qarabağ bizimdir! Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bütün şuşalıları ürəkdən təbrik edirəm.

İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, zəfərimizin günüdür!”

Dövlətimizin başçısı müraciətində, həm də xalqa Şuşanın işğaldan azad edilməsi müjdəsini verməsini həyatında bəlkə də ən xoşbəxt günlərindən biri olduğunu bildirdi: “Mən bu gün, eyni zamanda, ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, ulu öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!”

***

Ermən faşizmi Şuşanın işğalı illərində havadarlarına arxalanaraq sülh danışıqlarından, tapdaq altında saxladığı torpaqları azad etməkdən boyun qaçırdı. Bununla kifayətlənməyib, “Qarabağın döyünən ürəyi”, “musiqi və incəsənət beşiyi” olan Şuşanı gələcəkdə, hətta oyuncaq “DQR”in paytaxtı elan etmək, qondarma rejimin parlamentini bu əzəli, tarixi şəhərimizə köçürmək iddiasını səsləndirdi. Paşinyan beynəlxalq norma və qaydaları pozaraq tez-tez Şuşya gəldi, burada görüşlər keçirdi. Məsuliyyətsiz erməni baş nazir burada keyf məclisləri qurdu, separatçı rejimin nümayəndələri ilə yallı getdi, “Qarabağ Ermənistandır, nöqtə” kimi sərsəm bəyanat verdi. Düşmən bununla da Azərbaycan xalqında bir ümidsizlik yaratmaq, inadımızı qırmaq, inamımızı sarsıtmaq, sonda isə Qarabağı Ermənistana birləşdimək məqsədi güddü. Lakin Ali Baş Komandanımızın rəhbərliyi ilə müzəffər ordumuz işğalçının bu planını alt-üst etdi, arzusunu ürəyində qoydu!

### “Büllur şəhər” yenidən qurulur

Ətrafa baxıram, yaxında-uzaqda görünən maşın-texnikanın sayı bilinmir. Tikinti-quruculuq işlərinin miqyası aydın nəzərə çarpır. “Dağlar gözəli”, “Büllur şəhər” adlandırdığımız Şuşanın özündə isə diqqətçəkən bir qələbəlik hökm sürür. Küçələrdəki insan gurluğu adamda bu şəhərdən didərgin düşənlərin indi od-ocaqlarına qayıtması təsəvvürü yaradır. Əslində, qalada, Cıdır düzündə ürəyi riqqətə gətirən belə bir mənzərə, sözün əsl mənasında, dünyanın, elə ölkəmizin Azərbaycanın bu mədəniyyət mərkəzinə marağından, Qarabağın incisi olan bu məkanın cazibə qüvvəsindən irəli gəlir. Bir sözlə, təkcə yazın indiki vədəsində deyil, elə payızın, qışın sazaqlı günlərində də Şuşa qonaqlı-qaralı olur, yaxından-uzaqdan gələnləri sevgiylə, məhəbbətlə qarşılayır...

Bununla bağlı Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin şöbə müdiri Səmayə Məmmədova deyir ki, qonaqlarımızın sayı getdikcə artır. Ötən il şəhərə 12 min nəfərin gəlməsi qeydə alınıb. Bu il həmin göstəricinin daha da artacağı gözlənilir. Bu, mart ayının 18-dən başlayaraq, Şuşaya gəlmək istəyən insanların arzu və istəklərinin nəzərə alınması–2 günlük turistik proqramın təşkil olunması ilə bağlıdır.

***

Şuşada erməni vəhşiliyinin izləri ürək ağrıdır. Düşmən illərlə əsarətində saxladığı bu şəhərdə, necə deyərlər, nəinki daşı-daş üstə qoyub, heç olanı, qərinələrlə saxlanılanı belə qorumayıb, daşa-torpağa düşmən münasibətini gizlətməyib, maddi-mədəni abidələrimizi silməyə, dağıtmağa cəhd göstərib.

Şuşa işğaldan azad ediləndən dərhal sonra şəhərin yaralarına məlhəm qoyulmağa başlanıb. Qala divarlarının böyük hissəsi, dahi Bülbülün ev muzeyi, Cıdır düzünə aparan tarixi daş döşəməli yollar və Molla Pənah Vaqifin məqbərəsinin bərpası tamamlanıb. Aşağı Gövhər ağa, Yuxarı Gövhər ağa, Saatlı, Təzə məhəllə məscidləri, Mamayı, Xoca Mərcanlı bulaqları və Mehmandarovların malikanə kompleksinin bərpasının yaxın vaxtlarda başa çatdırılması nəzərdə tutulub.

Şuşa Şəhər Dövlət Qoruğu İdarəsinin ictimaiyyətlə əlaqələr şöbəsinin aparıcı mütəxəssisi İsmayıl İsmayılov Şuşanın memarlıq abidələri haqqında danışarkən bu tarixi yadigarların respublikamızın digər coğrafiyasındakı nümunələrdən özünəməxsusluğu ilə fərqləndiyini, onların tikiliş üslubu, eyni zamanda, üzərlərindəki daş kitabələrin bu qala-şəhərin qədim Azərbaycanın tarixi bir parçası olmasını özündə ehtiva etdiyini bildirir.

İ.İsmayılov söhbətində, həmçinin hələ 1977-ci ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan SSR Nazirlər Sovetinin qərarı ilə Şuşa şəhərinin tarixi-memarlıq hissəsinin qoruq elan olunduğunu, həmin vaxt buradakı abidələrin əsaslı şəkildə çox həssaslıqla bərpasının gerçəkləşdirildiyini də xatırladır.



Xatırladaq ki, 1992-ci ilin may ayının 8-də işğalçı ölkənin silahlı qüvvələrinin şəhərə hücumu zamanı, eləcə də Şuşa düşmən əsarətində olduğu dövrdə buradakı tarixi-mədəni abidələr məqsədyönlü şəkildə, bilərəkdən dağıdılıb. Xalqımıza məxsus qiymətli irs nümunələrini məhv etməklə, talamaqla qəsbkar Şuşanın Azərbaycana məxsus olmasının izlərini silmək məqsədi güdüb.

Beləliklə, 30 illik işğal dövründə düşmən Şuşada bütün yaşayış evlərininin, inzibati, ictimai binaların böyük bir hissəsini tamamilə dağıdıb, yer üzündən silinib. Qalan qisminin isə əvvəlki görkəminə qaytarılması üçün şəhər düşməndən təmizlənəndən dərhal sonra bərpasına başlanılıb. Ötən müddətdə Şuşada genişmiqyaslı bərpa layihələri aparılıb və bu istiqamətdə həyata keçirilən tədbirlər sayəsində müsbət nəticələr əldə edilib. Yuxarıda adları sadalanan tarixi irs nümunələrinin əvvəlki görkəmdə bərpa olunması məhz bunun bariz ifadəsidir.

Yeri gəlmişkən, Şuşada inşa edilən yeni yaşayış binalarının da cari ilin sonuna qədər təhvil veriləcəyi və dövlət proqramına uyğun olaraq əhalinin köçürülməsinin həyata keçiriləcəyi planlaşdırılıb.

### Şəhər fasiləsiz enerji alır

Şəhərin fasiləsiz elektrik enerjisi ilə təminatı istiqamətində önəmli layihələr gerçəkləşdirilib. Qısa vaxtda–37 gün ərzində 110/35/10 kilovoltluq “Şuşa” yarımstansiyasının istifadəyə verilməsi, Füzulidəki “Şükürbəyli” yarımstansiyasından şəhərə 110 kilovoltluq ikidövrəli elektrik verilişi xəttinin çəkilməsi Azərbaycan energetikasında mühüm hadisəyə çevrilib.

Hazırda Şuşanın elektrik şəbəkəsi Rəqəmsal İdarəetmə Mərkəzi vasitəsilə idarə olunur. Həmin mərkəzdəki SCADA sistemləri yüksəkgərginlikli xətlərlə yanaşı, abonentə qədər olan 0,4 kV-lıq xətləri də nəzarətdə saxlayır. Abonentlə nəzarətçi arasında təmas sıfıra endirilir. Şəbəkədə hər hansı nasazlıq olduqda dərhal həmin mərkəzdə bilinir. Beləliklə, qabaqlayıcı tədbirlər görülür və qəza baş verməzdən əvvəl qarşısı alınır. Rəqəmsal İdarəetmə Mərkəzi Bakıdakı mərkəzlə əlaqələndirilir.

Şuşa şəhərində yerüstü elektrik xətlərinin də ləğv ediləcəyi, bütün şəbəkənin beton tunellər vasitəsilə və izolyasiyalı kabellərlə abonentin evinə qədər yeraltı olacağı olacaq. Qışda açılmaların olmaması, elektrik verilişinin dayanıqlılığı üçün şəbəkə yerin altına keçirilir.

### Yeni 3 su anbarı yaradılır

Şuşa şəhəri işğaldan azad olunduqdan sonra təxirəsalınmaz tədbirlər görülərək, şəhərə suyun verilməsi və həyati əhəmiyyətli obyektlərin su təchizatı təmin edilib.

Şuşaya içməli su iki mənbədən verilir. Ermənilər tərəfindən dağıdılaraq sıradan çıxarılmış həmin xətlər qısa müddətdə bərpa edərək şəhərə içməli suyun verilməsi həyata keçirildi. Hazırda Şuşa 24 saat içməli su ilə təmin olunur, burada 800 və 1000 kubmetrlik anbarlar fəaliyyət göstərir. Gələcəkdə Şuşanın tam dayanıqlı içməli su ilə təmin olunması üçün daha üç anbarın inşası planlaşdırılır. Yaxın günlərdə Daşaltı kəndinin yuxarı hissəsində Zarıslı çayı üzərində su anbarının tikintisinə başlanacaq. Bundan başqa, şəhərin bərpası işləri çərçivəsində yeni kanalizasiya sistemlərinin qurulması da nəzərdə tutulub.

Şəhərdə yeni yaşayış məhəlləsinin, teleqüllənin təməli qoyulub. 960 şagirdlik məktəb və 90 çarpayılıq xəstəxananın inşasına başlanılıb. Yeni məscidin və beşulduzlu otelin tikintisi də nəzərdə tutulub. Keçmiş poçt binasının memarlığı saxlanılmaq şərtilə əsaslı şəkildə təmir olunması, burada “ASAN xidmət”, DOST mərkəzləri və əhaliyə xidmət göstərən digər qurumların fəaliyyət göstərəcəyi planlaşdırılıb.

### Əlavə avtomobil yolu çəkilir

Hazırda tikintisi sürətlə aparılan Əhmədbəyli–Füzuli–Şuşa yolu indiki Zəfər magistralından 20 kilometr qısadır. Belə ki, hazırda Zəfər yolu bu gün üçün 101,5 kilometr təşkil edir. Yeni istifadəyə veriləcək yol isə 81,2 kilometrdir.

Yeni yol dörd cərgəli olmaqla tam təhlükəsiz olacaq. Hər iki tərəfdən çəpərlənəcək.

Şuşa qoruq şəhəri və mədəniyyət mərkəzi olduğu üçün aparılan hesablamalara görə, şəhərə xarici turistlərin indikəndən bir neçə dəfə böyük axını gözlənilir. Buna görə yolun ödənişli olması onun gələcəkdə saxlanılması baxımından məqsədəuyğun sayılır.

***

Şuşada genişmiqyaslı quruculuq işləri dövlətimizin başçısının tapşırığına uyğun olaraq şəhərin tarixi memarlıq xüsusiyyətlərinə uyğun şəkildə aparılır. Qədim mədəniyyət paytaxtımızda tarixiliklə müasirliyin qovuşması diqqətdə saxlanılır.

Bütün görülən işlər, həyata keçirilən layihələr isə böyük sürətlə reallaşdırılır və bu tikinti-quruculuq mənzərəsi Şuşa şəhərinin yaxın gələcəkdə əvvəlki görkəmdə bərpa olunacağı və bütün dünyanı öz gözəlliyi ilə valeh edəcəyi əminliyini yaradır.

Bəli, Şuşa tezliklə əvvəlki xoş günlərini yaşayacaq, sevinc dolu sabahların ümidi ilə neçə-neçə uğura imza atacaq. Başından duman-çən çəkilən şəhərin abadlıq-quruculuq işləri getdikcə geniş vüsət alacaq, buradakı müqəddəs ocaqlar, mədəniyyət və incəsənətimizin böyük simalarının ev-muzeyləri yenə də ziyarətgahlara dönəcək, erməni vandalizminin qurbanına çevrilən tarixi, mədəni abidələrə həqiqi sahiblərinin-sakinlərin gücü və əzmi ilə yenidən “nəfəs” veriləcək. Şuşa dünyanın ən qədim mədəniyyət mərkəzlərindən biri kimi keçiriləcək mərasimlərə daim evsahibliyi edəcək, məşhur turizm məkanı kimi şöhrət qazanacaq.

Şəhərdən ayrılarkən uzun illər həsrət qaldığımız doğma, əziz Şuşaya – ruhumuzun paytaxtına üz tutub öyünclə dedim: “Şuşa, sən bundan sonra əbədi olara bizimsən, heç bir qüvvə səni bir daha bizdən ayıra bilməyəcək!”.

*Vaqif BAYRAMOV,*
*“Xalq qəzeti”*

**Bakı–Şuşa–Bakı**

# Ədliyyə naziri Sabirabadda vətəndaşlarla görüşüb

**Aprelin 11-də ədliyyə naziri Fikrət Məmmədov Sabirabad rayonunda Sabirabad, Saatlı, İmişli və digər rayonlardan olan vətəndaşlarla görüşüb.**



Görüşdə hər bir vətəndaş diqqətlə dinlənilərək, müraciətləri ilə bağlı aidiyyəti tapşırıqlar verilib. Vətən müharibəsi iştirakçılarına və şəhid ailələrinə xüsusi həssaslıqla yanaşılaraq, qayğıları ilə maraqlanılıb.

Bölgə sakinləri onlara göstərilən diqqət və qayğıya, yerlərdə mütəmadi qəbulların təşkilinə görə dövlətimizin başçısına minnətdarlıqlarını ifadə ediblər.

Səfər zamanı ədliyyə naziri yerli məhkəmə və ədliyyə orqanlarının iş şəraiti ilə tanış olub, ədliyyə işçiləri və hakimlərlə görüşüb. Ulu öndərin ideya və amallarını uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ədliyyə və məhkəmə sistemində müasir çağırışlara uyğun aparılan mütərəqqi islahatları qeyd edərək, qarşıda duran vəzifələrə toxunub, müvafiq tapşırıq və tövsiyələr verib.

*"Xalq qəzeti"*

# Bosniya və Herseqovinanın təhlükəsizlik naziri Azərbaycanda

**Azərbaycan Respublikasının fövqəladə hallar naziri, general-polkovnik Kəmaləddin Heydərovun dəvəti ilə Bosniya və Herseqovinanın təhlükəsizlik naziri Nenad Neşiçin başçılıq etdiyi nümayəndə heyəti ölkəmizə rəsmi səfərə gəlib.**



Respublikamızda fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması məqsədilə görülən işlər, habelə Fövqəladə Hallar Nazirliyinin fəaliyyət istiqamətləri haqqında ətraflı məlumat verən K.Heydərov iki ölkənin uyğun qurumları arasında müxtəlif sahələr, o cümlədən fəlakətlərdən mühafizə üzrə elmi və texniki bilik və təcrübələrin mübadiləsi, şəxsi heyətin təlim-tədrisi ilə bağlı əməkdaşlıq münasibətlərinin inkişaf etdirilməsinin qarşılıqlı faydalı olduğunu vurğulayıb.

Səmimi görüşə görə təşəkkürünü bildirən Bosniya və Herseqovinanın təhlükəsizlik naziri Nenad Neşiç iki ölkə arasında uğurlu əməkdaşlıq münasibətlərinə toxunub. O, ölkəsinin müxtəlif fövqəladə hadisələrə həssas olduğunu diqqətə çatdıraraq, fövqəladə hallarla mübarizə sahəsində Bosniya və Herseqovinada görülən işlər barədə ətraflı məlumat verib. N.Neşiç bu istiqamətdə Azərbaycan Fövqəladə Hallar Nazirliyi ilə əməkdaşlığın inkişaf etdirilməsində maraqlı olduqlarını dilə gətirib.

Yekunda "Azərbaycan Respublikası Hökuməti ilə Bosniya və Herseqovinanın Nazirlər Şurası arasında təbii və digər fəlakətlərdən mühafizə sahəsində əməkdaşlıq haqqında Saziş" imzalanıb.

*"Xalq qəzeti"*

# Vətən müharibəsinin daha 14 iştirakçısı polis orqanlarında xidmətə qəbul olunub



**Aprelin 11-də daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov respublikanın şəhər, rayon polis orqanlarında sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib. Bu barədə Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.**

Sıra baxışında nazirliyə onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 132 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb. Onlardan 14 nəfəri Vətən müharibəsinin iştirakçısı olub.

Gənclərlə görüşdə çıxış edən nazir V.Eyvazov xidmətə qəbulun şəffaflıq və aşkarlıq prinsipləri əsasında keçirildiyini qeyd edib. O, seçim turunun digər mərhələlərindən də uğurla keçərək, daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini verib.

*"Xalq qəzeti"*

# Azərbaycan teatrı–150: inkişaf perspektivləri






**Dünən Heydər Əliyev Mərkəzində "Azərbaycan teatrı–150: inkişaf perspektivləri" mövzusunda Teatr Forumu keçirilib. Tədbirdə dövlət və hökumət rəsmiləri, tanınmış mədəniyyət və incəsənət xadimləri iştirak ediblər.**

Mədəniyyət nazirinin birinci müavini, nazir vəzifəsini icra edən Adil Kərimli çıxış edərək forumun əhəmiyyətindən danışıb, Azərbaycanda teatr sənətinin keçdiyi inkişaf yolu haqqında məlumat verib.

O, vurğulayıb ki, Birinci Teatr Forumunun Heydər Əliyev Mərkəzində keçirilməsi təsadüfi deyil, mühüm rəmzi məna daşıyır. Forum "Heydər Əliyev İli" çərçivəsində ulu öndərin 100 illiyi ərəfəsində keçirilir. Ulu öndər mədəniyyətin inkişafında böyük xidmətləri olmuş dahi şəxsiyyət idi.

"Forumun əsas məqsədi teatr adamlarını bir araya gətirmək, bu sahənin daha da inkişafı üçün bu platformadan istifadə etməkdir. Uzun zaman idi peşəkarların bir araya gəlib problemləri sistemli və doğru-düzgün müzakirə etməsi üçün belə şərait yaranmamışdı. Biz bu fürsəti layiqincə dəyərləndirməliyik. Forumun keçirilməsində əməyi olan hər kəsə təşəkkür edirəm. Bu gündən mədəniyyət könüllüləri də fəaliyyətə başlayıb", – deyə Adil Kərimli bildirib.

Əməkdar incəsənət xadimi, sənətşünaslıq doktoru, professor Məryəm Əlizadə ilk dəfə teatrla bağlı forumun keçirilməsini əlamətdar hadisə adlandırıb. Teatr sənətinin inkişafı naminə dövlət səviyyəsində göstərilən dəstəkdən danışan M.Əlizadə bu günədək teatrın keçdiyi inkişaf yoluna nəzər salıb. O, ulu öndər Heydər Əliyevin mədəniyyət və incəsənət adamlarına göstərdiyi diqqət və qayğı haqqında fikirlər səsləndirib.

Sonra Məryəm Əlizadənin "Heydər Əliyev və Azərbaycan mədəniyyəti" mövzusunda məruzəsi dinlənilib.

Forum panel müzakirələrlə davam edib.

*"Xalq qəzeti"*

# Ermənistanın təxribatı nəticəsində 3 hərbi qulluqçumuz şəhid olub



**Aprelin 11-i saat 16:20 radələrində Ermənistan silahlı qüvvələrinin bölmələri Gorus rayonunun Dığ yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Laçın rayonu istiqamətindəki üzbəüz mövqelərini müxtəlif çaplı silahlardan istifadə etməklə atəşə tutub. Daha sonra qarşı tərəf minaatan və iriçaplı silahlardan da istifadə etməklə mövqelərimizi atəşə tutmaqda davam edib.**

Müdafiə Nazirliyinin Mətbuat Xidmətinin yaydığı məlumatda bildirilir ki, hərbi qulluqçularımızın sayıqlığı nəticəsində Ermənistan tərəfinin təxribatının qarşısı qətiyyətlə alınıb, atəş mövqeləri susdurulub. Ordumuz tərəfindən görülən cavab tədbirləri zamanı Ermənistan silahlı qüvvələrinin bölmələri xeyli sayda itki verib.

Hazırda qeyd olunan istiqamətdə nisbi sakitlikdir, əməliyyat şəraiti bölmələrimizin tam nəzarəti altındadır.

Ermənistan tərəfinin təxribatının qarşısını alarkən Azərbaycan Ordusunun hərbi qulluqçuları Zalov Vidadi Nizami oğlu, Həsənov Elşad Qabil oğlu və Tağıyev Səbuhi Gündüz oğlu şəhid olublar.

Müdafiə Nazirliyinin rəhbərliyi şəhid hərbi qulluqçularımızın yaxınlarına dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin!**

*"Xalq qəzeti"*

# XİN: Ermənistanın hərbi təxribatları regional sülhü təhdid edir

**Azərbaycan Respublikası Müdafiə Nazirliyi tərəfindən verilmiş məlumata əsasən, aprelin 11-də Ermənistan silahlı qüvvələrinin bölmələri Gorus rayonunun Dığ yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Laçın rayonu istiqamətində yerləşən üzbəüz mövqelərini atıcı silahlardan intensiv atəşə tutub. Qarşı tərəfin törətdiyi təxribat nəticəsində Azərbaycan Ordusunun hərbi qulluqçuları şəhid olub və yaralanıb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildiriblər ki, Ermənistanın bu kimi təxribatlarının beynəlxalq ictimaiyyət tərəfindən sülh sazişi üzrə danışıqlara ciddi çağırışlar fonunda baş verməsi Ermənistanın sülh prosesində maraqlı olmadığını göstərir. Ermənistanın bu kimi hərbi təxribatları, eyni zamanda siyasi təhrikçi addımlarla və bəyanatlarla müşayiət olunur.

Ermənistanın beynəlxalq hüququn norma və prinsiplərini tapdalayaraq Azərbaycana qarşı apardığı təxribatlar nəinki Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini pozur, eyni zamanda regional sülh və təhlükəsizliyi ciddi şəkildə təhdid edir.

Ermənistanın bu əməlləri ciddi formada beynəlxalq ictimaiyyət tərəfindən rədd edilməli və qınanmalıdır.

Ermənistanın təxribatlarının qarşısını almaq məqsədilə Azərbaycanın Silahlı Qüvvələri bütün lazımi tədbirləri görür və bundan sonra da görəcək.

"Bir daha bəyan edirik ki, Ermənistanın törətdiyi təxribatlara görə məsuliyyət tam şəkildə Ermənistanın üzərinə düşür", – deyə XİN-in açıqlamasında bildirilib.

*"Xalq qəzeti"*

# Azərbaycan və Malayziyanın XİN başçıları arasında telefon danışığı baş tutub

**Aprelin 11-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə Malayziyanın xarici işlər naziri Zambri Abdul Kadir arasında telefon danışığı olub.**




Telefon danışığı zamanı Azərbaycanla Malayziya arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq gündəliyində duran məsələlər, o cümlədən regionda və dünyada mövcud vəziyyət ətrafında fikir mübadiləsi aparılıb.

Tərəflər müqəddəs Ramazan ayı, eləcə də bu ilin aprel ayında qeyd olunan Azərbaycanla Malayziya arasında diplomatik münasibətlərin 30 illiyi münasibətilə qarşılıqlı təbriklərini çatdırıb, dost və qardaş ölkələrimiz və xalqlarımız arasında əməkdaşlığın daha da genişlənəcəyinə əminlik ifadə edilib.

Nazir Ceyhun Bayramov Azərbaycanla Malayziya arasında müxtəlif, o cümlədən iqtisadi, energetika, humanitar, təhsil, turizm və digər sahələrdə əməkdaşlıq gündəliyindən məmnunluqla bəhs edərək, münasibətlərin inkişafında qarşılıqlı təmasların əhəmiyyətli olduğunu bildirib. Bu xüsusda, ötən ilin iyulunda Xarici İşlər nazirlikləri arasında Kuala Lumpurda keçirilmiş siyasi məsləhətləşmələrin əhəmiyyəti diqqətə çatdırılıb. İki ölkə arasında müxtəlif regional və beynəlxalq təşkilatlar, o cümlədən Birləşmiş Millətlər Təşkilatı (BMT), Qoşulmama Hərəkatı (QH), İslam Əməkdaşlıq Təşkilatı (İƏT) çərçivəsində həyata keçirilən uğurlu əməkdaşlıq təcrübəsi qeyd edilib.

Öz növbəsində nazir Zambri Abdul Kadir Azərbaycanla Malayziya arasında dostluq, dini bağlılıq, həmrəylik və qarşılıqlı dəstəyə əsaslanan siyasi dialoqun səviyyəsindən məmnunluqla bəhs edərək, münasibətlərin daha da inkişafı üçün mövcud potensialdan səmərəli istifadə olunmasının vacibliyini vurğulayıb. İş adamları və əhali arasında təmasların artırılmasının əhəmiyyəti, əməkdaşlıq və təhsil əməkdaşlıq proqramları çərçivəsində mübadilələrin həyata keçirilməsinə hazırlıq ifadə olunub.

***Qəzənfər QASIMOV,***
***"Xalq qəzeti"***

*Türkiyə seçkilər qarşısında*

# Xalq öz müdrik qərarını verəcək



**Ankara Bilkənd Universitetinin professoru Əmrulla Məmmədovun qardaş ölkədə 2023-cü il mayın 14-də keçirləcək prezident və parlament seçkilərinin xüsusi əhəmiyyəti və hazırkı seçki prosesinə qatılan namizədlərinin şansları və məramları barədə redaksiyamızın xahişilə hazırladığı analitik yazının ikinci hissəsini bu gün oxucuların diqqətinə təqdim edirik.**

**II məqalə**

Ötən yazıda qeyd etdiyimiz kimi, seçkilərdə əsas rəqabətin iki alyans arasında olacağı aydındır. Bunlardan birincisi AKP və MHP-nin (Milliyyətçi Hərəkat Partiyası) liderlik etdiyi Xalq Alyansıdır. Bu iki partiyanın birliyi 2016-cı il 15 iyul dövlət çevrilişinə cəhddən sonra ölkənin varlığı üçün təhlükə yarandığı zaman ağır sınaqdan üzüağ çıxıb. Hər iki liderin hünəri və uzaqgörənliyi sayəsində bu birlik həm partiya üzvləri, həm də cəmiyyət tərəfindən böyük dəstək alıb.

2016-cı ildən sonra Türkiyə və onun ətrafında baş verənlər, Qərbin rəsmi Ankaranın müstəqil xarici siyasətindən narahatlığı, İraq və Suriyada terror aktları və ABŞ-nin bu bölgəyə hərbi müdaxilələri, bunun ardınca COVID-19-un yaratdığı qlobal tibbi, sosial, iqtisadi, üstəlik, Rusiya–Ukrayna müharibəsi özünün kövrək dövrünü yaşayan Türkiyə iqtisadiyyatına mənfi təsir etdi.

Bu qarışıq dövrdə neft və təbii qazın qiymətləri yüksəldi, unutduğumuz yaşayış minimumu və yüksək inflyasiya rəqəmləri yenidən gündəmə gəldi. Təbii ki, bütün bunların sadə vətəndaşların gündəlik həyatına təsir etməməsi mümkün deyildi. Müxalifət isə çoxdan fürsət gözləyirdi. Məhz buna görə də 2022-ci ilin əvvəlindən etibarən ana müxalifət partiyası CHP və onun tərəfdarı İyi Partiya (İP) növbədənkənar seçkilərlə bağlı tələblər irəli sürdülər.

Amma boş yerə. İqtisadiyyatın yavaş-yavaş dirçəlməsi və hakimiyyətin seçkilərin vaxtında keçiriləcəyi ilə bağlı davamlı etirazları müxalifəti çıxış yolunu ölkədən kənar ünsürlərdə axtarmağa vadar etdi. Müxalitət liderləri müxtəlif Qərb ölkələrinə, xüsusilə, ABŞ-yə dəstək səfərləri etdilər, Türkiyədə hökumət əleyhinə olan və qadağan olunmuş təşkilatlarla fikir mübadiləsi apardılar, hətta PKK-ya dəstək verən müxtəlif dərnək və fondlarla məsləhətləşmələrdə bulundular.

Hər halda, bəzi Qərb ölkələrinin liderləri Rəcəb Tayyib Ərdoğanın və AKP iqtidarının getməsini istədiklərini açıq şəkildə bildirirlər və buna nail olmaq üçün müxalifətə hər cür dəstək verəcəklərini vəd edirlər. Nəticədə, bütün bunlar cəmiyyətdə indiyədək heç vaxt görünməmiş qütbləşməyə gətirib çıxardı.

Qeyd etmək lazımdır ki, R.T.Ərdoğan və ümumən Xalq Alyansının son 20 ildə böyük uğurları olub. Müdafiə sənayesində yerli istehsalın nisbəti səksən faizə yüksəlib, quruda, dənizdə və havada ölkəni müdafiə edərək qorumaq üçün modern hərbi maşınlar, texnika və silah sistemləri yaradılıb. Pilotsuz uçuş aparatı "Bayraktar"ın və onun yeni, daha təkmil modellərinin şöhrəti bütün dünyanı dolaşır. Ökədə nəhəng infrastuktur layihələri icra olunub, İstanbul hava nəqliyyatı üzrə dünyanın ən böyük "hab"larından birinə çevrilib. Bu günlərdə Türkiyə kosmosa özəl müşahidə peykini çıxarıb, özünün ilk aviadaşıyıcı gəmisini suya buraxıb. Yeni TOGG avtomobillərinin milli brendə çevriləcəyinə ümidlər böyükdür.

İstər Aralıq dənizi və Qara dənizdə, istərsə də kontinental şelfdə yerli mütəxəssislərin və avadanlıqların köməyilə edilən kəşflər yeni neft və təbii qaz yataqlarının aşkar edilməsinə səbəb olub. Tezliklə bu təbii qaz evlərimizə də gələcək.

Terrorla mübarizədə baş verənlər təqdirəlayiq mübarizə nümunəsidir. Türkiyə Silahlı Qüvvələri (TSK) 40 ilə yaxındır ki, PKK terroru ilə mücadilə aparır. Amma TSK son 15 ildə xüsusilə böyük uğurlara imza ataraq, ölkədəki terror ünsürlərini sıfıra endirib. Yeni antiterror konsepsiyasına görə, TSK İraq və Suriyadakı terror ünsürlərini yerindəcə məhv edən, onlara itki verən mövqeyə yüksəlib.

Xarici siyasətdə təşəbbüslər də gözəldir. Yeni Afrika siyasəti, xüsusilə, Liviya, İsrail və Misirlə yaxınlaşan, Ukrayna–Rusiya müharibəsində hər iki tərəflə danışa və ünsiyyət qura bilən etibarlı vasitəçi kimi çıxış edən, Qafqazda və Mərkəzi Asiyada postsovet məkanında yerləşən ölkələrlə yaxşı münasibətlər quran, NATO-nun ikinci ən güclü ordusu, həm də siyasi səhnənin əvəzsiz ortağı olan Türkiyə özünün zəkalı və qətiyyətli mövqeyi sayəsində həm Yunanıstanı bir addım geri çəkilməyə vadar etdi, həm də ABŞ-ni bəzi hərbi alış-veriş etməyə razı saldı.

Bütün bunlar həm Xalq Alyansının vahid namizədi R.T.Ərdoğanın seçki yarışında əlini gücləndirir, həm də Xalq Alyansını yaradan partiyaların ümumi məclis seçkilərində uğur qazanması üçün zəmin yaradır. Son günlər həyata keçirilən tədbirlər qərarsız seçicilərin öz tərəfinə keçməsini təmin edəcək. Bunlar Xalq Alyansına qalməsi üçün güclü dəstək xarakteri daşıyır.

İkinci Seçki Alyansı – Millət Alyansına gəldikdə biz nə görürük? Qarşımızda ideoloji və seçki kütləsi baxımından əks qütblərdə olan və seçiciləri arasında "qan uyğunsuzluğu" səbəbindən onları bir yerdə saxlamaq, möhkəmlətmək çox çətin olan alyans nümunəsi var.

Ana müxalifətdəki dünyəvi CHP-nin rəhbərlik etdiyi alyansın digər görünən üzvləri millətçi və mühafizəkar partiyalardır: İP, Səadət Partiyası, DEVA Partiyası, Gələcək Partiyası və Demokrat Partiyası. Biri də var – HDP, zahirən görünməzdir, PKK-nın siyasi qolu kimi işləyir, 6 partiyalı masaya istədiyini qəbul etdirməyə cəhd edir.

Onları bir araya gətirən və məcburi birliklərinin "sementi" olan ünsür R.T.Ərdoğana qarşı patoloji nifrət və kin-küdurətdir. Bundan sonra nə olursa-olsun, Ərdoğan getsin. Onların başqa arzuları və düşüncələri yoxdur. Onları ölkə, iqtisadiyyat, cəmiyyət maraqlandırmır. Bu səbəbdən son aylarda tez-tez böhranlar yaşansa da, sonda yenidən bir araya gəlməli oldular. Bu 6 partiyalı masanın lideri olaraq CHP istədiklərini aldı və qarşılığında yalnız vədlər verdi.



Fikrimcə, deyilənlərin işığında seçki mübarizəsi şiddətli keçsə də, R.T.Ərdoğan birinci turda qalib gələcək. Parlament seçkilərində Millət Alyansı və HDP-nin rəhbərlik etdiyi Əmək və Azadlıq Alyansı (İşçi Hərəkatı Partiyası – EHP, İşçi Partiyası-EMEP, Xalqların Demokratik Partiyası-HDP, Sosialist Məclislər Federasiyası – SMF və Sosial Azadlıq Partiyası – TÖP) partiyaları qısa müddət ərzində parlamentdə balanssız çoxluq təşkil edə bilərlər. Bunlar, əlbəttə, ehtimallardır. Əlahəzrət zaman ən şeyin doğrusunu ortaya qoyacaq.

Nəhayət, bu seçkilər fonunda Azərbaycan–Türkiyə münasibətlərinə toxunmaq istərdim. Bu əlaqələr son 32 ildə müxtəlif mərhələlərdən keçərək indiki vəziyyətinə çatıb. Bir vaxtlar Dağlıq Qarabağdan yaralıları və mülki vətəndaşları, o cümlədən uşaqları xilas etmək üçün Türkiyədən tələb olunan 2-3 helikopteri Azərbaycana çatdırmaq iqtidarında olmayan Ankara bu gün xoşbəxtlikdən Bakının ən yaxın müttəfiqidir. Türkiyə Respublikasının Prezidenti R.T.Ərdoğan İkinci Qarabağ müharibəsində "can Azərbaycana" hərtərəfli dəstək verib. Bu, danılmaz reallıqdır ki, Türkiyə Azərbaycan Ordusunu öyrədib, silahlandırıb, hər cür texniki və maddi-texniki yardım göstərib.

Bu gün Azərbaycanın üçrəngli bayrağı Şuşada, Zəngilanda, Laçın və Kəlbəcərdə, Ağdamda və Füzulidə dalğalanırsa, Türkiyənin indiki yetkililərinin, xüsusilə Türkiyə Cümhuriyyətinin Prezidenti sayın R.T.Ərdoğanın əməyi danılmazdır. Türkiyə bir dövlət olaraq BMT və NATO, Avropa İttifaqı və Rusiyaya qarşı Azərbaycanı dəstəkləyib, İranın müdaxiləsinə qarşı qəti mövqeyini bəyan edib. Bu baxımdan, fikrimcə, Türkiyə Cümhuriyyətinin vətəndaşı olan və seçkilərdə səs verəcək soydaşlarımız Xalq Alyansının və onun namizədi R.T.Ərdoğanın seçilməsi üçün əllərindən gələni etməlidirlər.

**P.S.** "Xalq qəzeti" olaraq biz də inanırıq ki, Türkiyə vətəndaşları mayın 14-də keçiriləcək prezident seçkilərində özləri ən doğru və ədalətli seçim edəcəklər. Müdrik türk xalqının seçimi bütün hallarda bizim üçün məqbuldur.

**Çapa hazırladı:**
**Məsaim ABDULLAYEV,**
**"Xalq qəzeti"**

# Qardaşlıq körpüsü

## *Türkiyə diplomatiyası və hərbi qüdrəti ilə regionun ən güclü dövlətinə çevrilib*

**"Türkiyə Cümhuriyyətin 100-cü ildönümü təntənələrinə həyatın bütün sahələrində son illərdə qazanılmış uğurların sevinci və öyüncü ilə hazırlaşır. Bu hazırlıqlar yeni dünya düzəninin yaratdığı qeyri-sabitlik şəraitində Türkiyənin geopolitik və strateji mövqeyi baxımından xarici və daxili siyasətdə sabitlik adası yaratma cəhdləri ilə müşayiət olunub". Türkiyə Prezidenti yanında Təhlükəsizlik və Xarici Siyasət Şurasının üzvü, Yedditəpə Universitetinin professoru Məsut Hakkı Çaşın "Xalq qəzeti"nə bu açıqlamasında Türkiyənin, əsasən, son 20 ildəki fəaliyyətini dəyərləndirərək daha sonra bildirdi:**



–Türkiyə xüsusilə də SSRİ-nin dağılmasından sonra, Azərbaycan və Orta Asiya respublikaları, həmçinin Bosniya, Kosova, Somali və Əlcəzair kimi münaqişə bölgələrinə də bacardığı dərəcədə sülh və sabitlik gətirib və bu mövqeyini ildən-ilə gücləndirib. Digər tərəfdən, yeni dünya düzəni qurularkən Türkiyə NATO ilə birlikdə keçmiş Yuqoslaviyanın parçalanması zamanı Bosniya və Kosova əməliyyatları ilə yanaşı, böyük qətliamların da qarşısını alıb. Türkiyə Əfqanıstanda da beynəlxalq terror və Talibana qarşı mücadiləni NATO ilə birlikdə aparıb.

Ölkə rəhbərliyi çoxqütblü dünyada çoxmərkəzli bir xarici siyasət yürüdərək, böyük güclərlə balans siyasəti irəli sürüb. Qara dənizin altından keçən rus qazının Şərqdən Cənub–Şərq və Avropaya daşınması "Türk axını" layihəsi ilə icra olunur. "Akkuyu" atom elektrik stansiyasının (AES) inşası rus şirkətlərinə verilib. Aprelin 27-də bu AES-in birinci enerji blokuna nüvə yanacağı doldurulacaq. Rusiya turistlərinin ölkəmizə ziyarətləri isə rekord səviyyəyə çatıb.

Ölkəsinin Rusiya və Ukrayna arasında önəmli vasitəçi rol oynadığına diqqət çəkən həmsöhbətim, Türkiyənin Qara dənizdə sabitliyi təmin etdiyini də vurğuladı:

– Montro Konvensiyasına əsasən, Türkiyə Qara dənizlə Aralıq dənizini birləşdirən Bosfor və Dardanel boğazları üzərində hüququndan istifadə edərək Rusiya–NATO müharibəsinin qarşısını alıb. Məhz Rusiya və Ukrayna ilə münasibətlərini balansda saxlayan Türkiyə "Taxıl koridoru" açmaqla qlobal dünyanın ərzaq böhranının qarşısını alıb.

Türkiyənin Rusiyanın yanında yer alması bəzi NATO ölkələri tərəfindən tənqid olunsa da, ölkəmiz BMT qərarı olmadığı üçün Rusiyaya qarşı sanksiyalar tətbiqinə əməl etmədi. Bu baxımdan Türkiyə Rusiyaya hava sahəsini də bağlamayıb.

Türkiyə–Azərbaycan qardaşlığı 44 günlük müharibədə Azərbaycan ordusunun zəfər əldə etməsində və Ermənistanın Qafqazda haqsız işğal etdiyi torpaqlardan çıxmasında böyük rol oynadı.

Professor Məsut Hakkı Çaşın daha sonra Türkiyənin Yaxın və Orta Şərq siyasətinə də toxunaraq rəsmi Ankaranın BMT tərəfindən legitim olaraq tanınan Liviya Milli Keçid Hökumətini dəstəklədiyini və ölkədə qırğınların qarşısının alınmasında böyük rol oynadığını diqqətə çatdırdı:

– Digər tərəfdən, Türkiyə Qətər ilə münasibətləri inkişaf etdirdi, İsrail ilə siyasət təkrar normallaşma prosesinə girdi, İranın nüvə silahı əldə etməsi cəhdlərinə qarşı narahatlığını ifadə etdi. Türkiyə hazırda NATO-nun üçüncü böyük gücü olaraq təşkilatı Qara dənizdə, Baltik dənizində və Şərqi Avropada dəstəkləyir.

Müsahibimiz onu da vurğuladı ki, cümhuriyyət tarixinin 100-cü ilinə güclü bir dövlət olaraq qədəm basan Türkiyənin inkişaf etdirilməsində Prezident Ərdoğanın rolu inkaredilməzdir:

–Son 2 onillikdə ölkəmizdə infrastruktur, dəniz və hava limanları, fabriklər açılması ilə yanaşı, dəmir yollarının müasirləşdirilməsi, yeni sürət qatarının fəaliyyətə başlaması kimi çox böyük önəmli dəyişiklərə imza atıldı. Türkiyənin özəlliklə də bölgədə meydana gələn İraq, Liviya, Suriya savaşları və Rusiya–Ukrayna müharibələrindən aldığı dərslər Türkiyə müdafiə sənayesinə çox böyük uğurlar qazandırdı.

Pilotsuz uçuş aparatları (İHA) və silahlı pilotsuz uçuş aparatlarının (SİHA) istehsalı ilə Türkiyə dünyada yüksələn bir gücə çevrildi. Müdafiə sənayesi sahəsində "Akıncı", "Hürkuş", "Singur", "Aksungur", "Anka 3", "Qızıl alma" kimi adlar, demək olar ki, dünyada bir marka olaraq tanınmağa başladı. Bundan əlavə, Türkiyə Silahlı Qüvvələri xüsusilə zirehli heyət daşıyıcı (ZPT), tank və raket sektorlarının milli sərmayələri və yerli istehsalatları ilə də məşğul oldu.

Yaxın gələcəkdə yerli, yəni, milli döyüş təyyarələrini sahəyə buraxmağa hazırlaşan və işlərini sürətlə davam etdirən Türkiyə, başda "F-16" təyyarələri olmaqla ABŞ-dan asılılıqdan xilas olacaq, hətta bu sahədə dünyanın aparıcı ölkələrindən birinə çevriləcək. Keçən il 28 ölkəyə satmış olduğu SİHA-larla Türkiyə dünyada birinci oldu.

Hərbi dəniz donanmasında da Türkiyənin böyük uğurlar qazandığını vurğulayan siyasətçi ölkəsinin Qara dəniz, Aralıq dənizi və Egey dənizlərində öz Vətənini qoruyacaq çox önəmli bir dəniz gücü halına gəldiyini bildirdi:

Ölkəmiz elektronik hərbi gəmilərilə Aralıq dənizində Amerikadan sonra ən önəmli donanmaya çevrilib. Hərbi dəniz qüvvələrinin uğurları Türkiyəni Yunanıstanın Şimali Kipr Türk Cümhuriyyətinə qarşı ola biləcək müdaxiləsinə qarşı hazır vəziyyətə gətirib.

Bugünlərdə isə ölkəmiz ilk müşahidə peykini səmaya, ilk aviadaşıyıcı gəmisini isə suya buraxdı. Beləliklə, hava, quru və dəniz donanmasındakı uğurları və diplomatiyası ilə Türkiyə regionun ən güclü dövlətinə çevrilib.

***Söhbəti apardı:***
***M.SULTANOVA***

**Ankara**

# Pentaqon məxfi sənədlərin sızma miqyasını araşdırır

**Pentaqon hələ də məxfi sənədlərin sızma miqyasını müəyyən edə bilmir və kəşfiyyat məlumatlarının yayılmasının mümkün nəticələrini öyrənir. Bu barədə ABŞ müdafiə nazirinin ictimai əlaqələr üzrə müavini Kris Miger bəyan edib. Məlumatı CNN telekanalı yayıb.**

Miger deyib: "Müdafiə Nazirliyi məlumatların yayılma miqyasını öyrənmək, dəyən zərəri qiymətləndirmək və nəticələri yüngülləşdirmək üçün görüləcək tədbirlər üzərində 24 saat çalışır". Onun sözlərinə görə, müdafiə naziri Lloyd Ostin aprelin 6-da sızma barədə məlumatlandırılıb və o vaxtdan bəri yuxarı komandanlıqla hər gün iclas keçirir.

Nazir müavini qeyd edib ki, Pentaqon təhqiqatla məşğul olan və nazirliyin bir neçə bölməsinin fəaliyyətini koordinasiya edən xüsusi qrup yaradıb.

"Reuters" agentliyi isə internetdə dərc olunmuş məxfi sənədlərin saxta ola biləcəyi və hazırda Pentaqonun onların doğruluğunu yoxlamağa başladığı barədə informasiya yayıb. Xatırladaq ki, həmin sənədlərdə Çin, Asiya-Sakit Okean və Yaxın Şərq regionu, eləcə də Ukrayna ilə bağlı məxfi informasiyalar yer alıb. Bu sırada Ukraynanın hava hücumundan müdafiə sistemlərinin düzülüşü, artilleriya mərmilərinin sayı və Baxmut ətrafında vəziyyətin qiymətləndirilməsi barədə də məlumatlar var.

***"Xalq qəzeti"***

# Türkiyə milli tankını da yaratdı

## *"Altay" məğlubedilməz zirehli "pələng" sayılır*

**Qardaş Türkiyənin BMC şirkətinin istehsal etdiyi "Altay" əsas döyüş tankının ilk dəsti 2023-cü il aprelin 23-də Türkiyə Silahlı Qüvvələrinə təhvil veriləcək. Bunu mətbuata açıqlamasında şirkətin baş direktoru Murat Yalçıntaş deyib.**



Şirkət rəhbəri bildirib ki, aprel ayında Türkiyə Silahlı Qüvvələrinə sınaq üçün 2 ədəd "Altay" tankı veriləcək. 2024-cü ilin sonlarına qədər tamamlanacaq sınaqlardan sonra 2025-ci ildə başlanacaq seriyalı istehsal zamanı "Altay" tankında Cənubi Koreya istehsalı olan mühərrik və transmissiyadan istifadə ediləcək. 2026-cı ilin ikinci yarısından etibarən "Altay" tankları "BMC Power"nin istehsal edəcəyi yerli mühərriklə təchiz olunacaq. İndidən bir çox xarici ölkədən tankla bağlı müraciətlər daxil olur.

Türkiyənin Müdafiə sənayesi (SSB) naziri İsmail Dəmir bundan əvvəl bildirmişdi ki, hazırda Cənubi Koreyanın zirehli texnikalarında istifadə edilən güc qurğuları "Altay" tankına quraşdırılandan fərqlidir. Cənubi Koreya hələ də alman transmissiyasından istifadə edir.

"Altay" tankının prototipi hər cür iqlim və ərazi şərtlərində keçirilən çətin testlərdə üstünlüyünü təsdiqləyib. Fərqli ssenarilərdə atış testləri keçirilən tankın bütün hava şəraitində və məsafələrdə yüksək vuruş dərəcəsi qeydə alınıb. Birinci mərhələdə hazırlanan prototiplərin kalifikasiya və qəbul testləri 2017-ci ilin fevralında uğurla tamamlanıb.

Türkiyə Milli Müdafiə Nazirliyindən istehsala icazə sənədi alındıqdan sonra, "Otokar" şirkəti Quru Qoşunları Komandanlığının ehtiyaclarını qarşılamaq üçün "Altay" tankının seriyalı istehsalını əhatə edəcək ikinci mərhələdə 250 ədəd tankın istehsalı və onların İnteqrə Logistik Dəstək işlərinə dair təklifi SSB-yə təqdim edib. SSB-nin elan etdiyi bu tenderə "Otokar" ilə yanaşı, BMC və FNSS şirkətləri 2017-ci il noyabrın 16-da təkliflərini verib. 2018-ci ilin aprel ayında Türkiyə Müdafiə Sənayesi Nazirliyi "Altay" tankının seriya istehsalı üçün qərar verib.

SSB başqanı İsmail Dəmir 2020-ci ildə seriya istehsalının ilkin mərhələsində əldə olan mühərriklərlə 5 və ya 6 "Altay" əsas döyüş tankının istehsalının həyata keçiriləcəyini, sonrakı mərhələdə bu prosesin xaricdən alınan mühərriklərlə davam etdiriləcəyini bildirmişdi.

Bundan başqa, Türkiyə Müdafiə Sənayesi Nazirliyi "Altay" tankının gövdə platforması üzərindən inkişaf etdirilərək minatəmizləmə maşını yaratmaq istəyir. Bununla bağlı, 2018-ci ildə SSB Məlumat İstək Sənədi (BİD) ilə layihəyə qoşulacaq şirkətlərə müraciət edib. SSB işi Quru Qoşunlar Komandanlığı üçün aparacaq.

Layihə çərçivəsində mexaniki keçid açma sistemi ilə tank və piyada əleyhinə minaları yerindən çıxarıb keçid kənarına atan, minaları partlatmaq yolu ilə müəyyən ölçülərdə keçid qazan, maqnetik lokator sistemi ilə maqnetik borulu minaları partladan, təmizlənmiş keçid işarələmə sistemi ilə minalı sahədə açdığı keçidi işarələyə bilən yeni tırtıllı texnikanın hazırlanması planlaşdırılır.

***Rizvan FİKRƏTOĞLU,***
***Xalq qəzeti***

*Təbabət çarə axtarır...*

# Onkoloji xəstəlik cilovlanacaqmı?

**Elmi tədqiqatlar sübut edib ki, insanların 25 faizə qədəri onkoloji xəstəlikdən dünyalarını dəyişir. Onkoloji xəstəliyə fillər, goreşənlər istisna olmaqla, nadir hallarda heyvanlarda da rast gəlinir. Alimlər heyvanlar üzərində apardıqları bir çox tədqiqatlarla canlıları onkoloji xəstəliklərdən qoruyan amilləri aşkar ediblər.**



2015-ci ildə Çikaqo Universitetinin genetiki Vinsent Linç fillərdə, eynilə insanlarda olduğu kimi 1–2 növ yox, xərçəng əleyhinə olan TP53 geninin 20 növünü müşahidə edib. Alimlər, həmçinin öyrəniblər ki, fillərin geninin istehsal etdiyi zülallar insanlarınkına nisbətən daha keyfiyyətlidir. ABŞ və İsrailin bu işlə məşğul olan elm adamları artıq fillərin geni əsasında nəinki xərçəngi müalicə edən, hətta onun yaranmasını və inkişafını gecikdirən preparat hazırlamağa başlayıblar.

Uzun illər qocalıq əlamətlərinin və onkoloji xəstəliyin hakim rolunun təsir etməməsi üzrə tədqiqatlar aparılması goreşənlərin ideal obyekt olmasını bütün dünyada zəruri edib. Kembric Universitetinin tədqiqatçıları tüksüz goreşənlərin müxtəlif orqanlarından 79 nümunə götürüblər. Onlar bu nümunələri siçan və siçovullarda xərçəng yarada bilən onkoloji hüceyrələrlə yoluxdurub sağlam siçanlara, siçovullara və goreşənlərə yeridiblər. Nəticədə, siçanlarda bədxassəli xərçəngin inkişaf etdiyi aşkarlanıb, digər gəmiricilərdə yox. Alimlər hazırda "pis" hüceyrələri vaxtında aşkarlayıb məhv edən goreşənlərin immun sistemi üzərində tədqiqatlara başlayıblar.

Goreşənlərin müxtəlif növlərinin (zolaqlı kaftar, adi kaftar, tüksüz goreşən və s.) nəslindən olan uzaq "qohumları" praktik olaraq xərçəngə tutulmurlar. ABŞ-ın Roçester Universitetinin alimləri belə nəticəyə gəliblər ki, əsas məsələ onlarda xüsusi IFN-beta zülalının olmasındadır. Sağlam hüceyrələrə xərçəng transfer edəndə orqanizmdəki həmin zülal özünəxas məhvetmə proqramını işə salır. Həm də bu, onunla əlaqəlidir ki, siçanlar 1–1,5 il yaşayırlarsa, goreşənlər 30–40 il ömür sürürlər və onların müdafiə sistemi daha güclüdür. Həmçinin goreşənlərin hüceyrələrində nuklein turşularının səviyyəsi siçanlara nisbətən daha yüksək olduğundan onları xəstəliklərə qarşı dözümlü edir və viruslara yoluxmaqdan qoruyur.

Bəs insanlarda?.. Onkoloq Arzu Əliyeva bildirir ki, onkoloji xəstələrin 15 faizi xərçəng genlərini valideynlərindən miras olaraq alır və öz uşaqlarına ötürə bilir. Xərçəng erkən diaqnoz qoyulduqda yüksək müalicə nəticəsi verən xəstəlik qrupuna aiddir. Xəstəlik inkişaf etmədən qabaqlayıcı tədbirlərin alınması əsl hədəfdir. Bu səbəbdən xərçəng xəstələrinin mütləq şəkildə irsi meyilliliyi araşdırılmalıdır.

Xərçəngin diaqnostikası və müalicə alqoritm üsulları çox sürətlə dəyişir. İrsi olub-olmamasına baxmayaraq, artıq xərçəng xəstələrində geniş gen panelləri araşdırılır və bu genetik nəticələrə əsasən xəstəyə tətbiq ediləcək müalicə variantları "hər şəxsə özəl" olaraq təyin edilir.

Əvvələr xərçəngin müalicəsi patoloji müayinədən çıxan mikroskopik nəticələrə görə aparılırdısa, indi, ilk növbədə, genetik analizlərin nəticəsinə əsaslanaraq, icra olunur. Hazırda hətta ilkin mərhələdə olan xərçənglərdə belə genetik testlərin köməyi ilə müalicəni asanlaşdıran və həyat keyfiyyətini yaxşılaşdıran "ağıllı dərman hədəfi" var. Bu isə müalicə prosesini daha asan edir.

Bütün xəstəliklərin əsas səbəbi immun sisteminin zəifləməsidir. Hətta irsiyyətində xərçəng hüceyrələri olan minlərlə insan var ki, müdafiə sistemi yüksək səviyyədə olduğundan onlarda xəstəlik özünü göstərmir. Ona görə də hər kəs özünün həkimi olmalı, nəyi yeyib-içdiyinə diqqət etməlidir.

***Z.BƏŞİRQIZI, "Xalq qəzeti"***

*Bizə yazırlar*

# "Günəşli" ilə bağlı xoş təəssürat

**İnsanların sağlamlığının qorunması, bərpası dövlətin kifayət qədər nəzarətdə saxladığı məsələdir. Təsadüfi deyil ki, ölkəmizdə sanatoriya-kurort və istirahət evləri, turizm obyektləri şəbəkəsi get-gedə genişlənir, yenidən qurulur.**

Belə mərkəzlərdən biri də Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası "Kurort " QSC-nin Mərdəkanda yerləşən "Günəşli" nevroloji sanatoriyasıdır.

Bura əsasən mərkəzi sinir sistemi ilə bağlı problemləri olan xəstələrin reabilitasiyası üzrə fəaliyyət göstərir.

Sanatoriyanın yerləşdiyi məkan, iqlim müalicə üçün çox əlverişlidir. Füsunkar təbiət sanki, sanatoriya kollektivinin – həkimlər, tibb bacıları və köməkçi-texniki personalın fədakarlığı ilə vəhdət təşkil edir. Nəticədə xəstələrin sağlamlıqları uğurla bərpa edilir. Sanatoriyanın baş həkiminin müalicə üzrə müavini Fatma Quliyeva, kardioloq Adil Ağadadaşov, nevropatoloqlar Qumru Abdullayeva və Heydər Şirəliyev, psixoterapevt Sabir Mehdiyev, tibb bacıları Şəlalə Cəfərova, Zülfiyyə Əliyeva,Valentina Tumanova, Kəmalə Kazımova, Aygün Dadaşova, Aynurə Sadıqova, Sahilə Abdulova, Pirayə Abdulova, Solmaz Əliyeva və Guldanə Rəhimova kollektivin aparıcı qüvvələridir. Təcrübə və bacarıqları, insanpərvərlikləri ilə nümunədirlər. Bu sıraya xidmətçi Züleyxa Məmmədovanı da qoşardıq. Qayğıkeşliklə hər kəsin köməyinə çatır. Fiziki qüsurlu, zəif xəstələrə duş qəbuluna qədər yardımçı olur.

Son zamanlar sanatoriya üçün mütərəqqi tibbi cihaz və avadanlıqlar alınmış, iş prosesi tamamilə kompüterləşdirilmişdir. İşçilərin texniki, professional bilik səviyyəsinin artırılmasına xüsusi fikir verilir. Sanatoriyada qida məsələsi ciddi nəzarətdədir.Yeməkxanada verilən təamlar çeşidinə və keyfiyyətinə görə standartlara tam uyğundur. Burada müalicə alan xəstələrin asudə vaxtının səmərəli keçməsi məqsədilə mədəni-kütləvi tədbirlər təşkil olunur. Musiqili-bədii, şeir gecələri keçirilir. Ulu öndər Heydər Əliyevin 100 illiyi ilə bağlı keçirilən silsilə tədbirləri dinləyicilər maraqla izləyirlər.

Burada müalicə alan qələmdaşımızlarımız – Əməkdar müəllim, Prezidentin fərdi təqaüdçüsü, AYB üzvü, Sumqayıt şəhər Ağsaqqallar şurası sədrinin birinci müavini Ofeyla Babayeva, Əməkdar mühəndis və dramaturq Akif Zeynalov minnətdarlıq məktubunda onların da adını çəkməyimizi xahiş etdilər. Ümumi fikrimiz bu oldu ki, nə yaxşı, pespublikamızda beynəlxalq miqyasda rəqabət aparmağı bacaran belə sağlamlıq ocaqları var.

***Süleyman HÜSEYNOV,***
***İbrahim HACIYEV, AYB üzvləri***



# "EXOL AZERBAIJAN" Qapalı Səhmdar Cəmiyyətinin 2022-ci il dekabrın 31-nə maliyyə vəziyyəti haqqında hesabatı

*manatla*

| AKTİVLƏR | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|
| **UZUNMÜDDƏTLİ AKTİVLƏR:** | | |
| Torpaq, tikili və avadanlıqlar | 997 467 | 179 142 |
| İnvestisiya mülkiyyəti | - | 816 558 |
| Sair uzunmüddətli aktivlər | 179 536 | 53 848 |
| Təxirə salınmış vergi aktivlər | - | - |
| **CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR:** | **1 177 003** | **1 049 548** |
| **QISAMÜDDƏTLİ AKTİVLƏR:** | | |
| Ehtiyatlar | 1 004 460 | 624 846 |
| Qısamüddətli debitor borcları | 133 694 | 23 295 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 121 255 | 124 427 |
| Sair qısamüddətli aktivlər | 605 | 909 |
| **CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR:** | **1 260 014** | **773 477** |
| **CƏMİ AKTİVLƏR** | **2 437 017** | **1 823 025** |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | |
| **KAPİTAL:** | | |
| Ödənilmiş nominal (nizamnamə) kapitalı | 2 000 | 2 000 |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 516 943 | 437 039 |
| **CƏMİ KAPİTAL:** | **518 943** | **439 039** |
| **UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR:** | | |
| Uzunmüddətli kreditor borcları | 2 348 | 307 796 |
| Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər | 281 126 | |
| | **283 474** | **307 796** |
| **QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR:** | | |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 59 108 | |
| Qısamüddətli kreditor borcları | 536 386 | 1 076 190 |
| Sair qısamüddətli öhdəliklər | 1 039 106 | - |
| | **1 634 600** | **1 076 190** |
| **Cəmi öhdəliklər** | **1 918 074** | **1 383 986** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **2 437 017** | **1 823 025** |

**Mənfəət, zərər və ya digər məcmu gəlirlər haqqında hesabat**

| | | |
|---|---|---|
| Əsas əməliyyat gəlirləri | 7 230 620 | 6 418 826 |
| Satışın maya dəyəri | (4 399 175) | (4 200 042) |
| **Ümumi mənfəət** | **2 831 445** | **2 218 784** |
| Sair əməliyyat gəlirləri | 23 458 | 44 500 |
| Kommersiya xərcləri | - | (10 234) |
| İnzibati xərclər | (194 995) | (431 779) |
| Sair əməliyyat xərcləri | - | (57 425) |
| **Əməliyyat mənfəəti (zərəri)** | **2 659 908** | **1 763 845** |
| Maliyyə gəlirləri | - | - |
| Maliyyə xərcləri | (4 622) | (2 720) |
| **Vergiqoymadan əvvəl mənfəət (zərər)** | **2 655 286** | **1 761 125** |
| **Mənfəət vergisi xərcəri** | **-** | **-** |
| Cari vergi xərcləri | - | - |
| Təxirə salınmış vergi gəlirləri *7* | - | - |
| **Hesabat dövrünün xalis mənfəəti (zərəri)** | **2 655 286** | **1 761 125** |

**Kapitalda dəyişikliklər haqqında hesabat**

| | Ödənilmiş nizamnamə kapitalı | Kapital ehtiyatları | Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | Cəmi kapital |
|---|---|---|---|---|
| **2021-ci il dekabrın 31-nə qalıq** | **2 000** | **-** | **437 039** | **439 039** |
| Hesabat dövründə xalis mənfəət (zərər) | - | - | *2 655 286* | *2 655 286* |
| Dividend | - | - | *(2 575 382)* | *(2 575 382)* |
| Düzəliş | | | - | - |
| **2022-ci il dekabrın 31-nə qalıq** | **2 000** | **-** | **516 943** | **518 943** |
| ***2022-ci il üzrə kapitalda ümumi dəyişikliklər*** | - | - | *79 904* | *79 904* |

| | | | | |
|---|---|---|---|---|
| **2020-ci il dekabrın 31-nə qalıq** | **2 000** | **-** | **589 685** | **591 685** |
| Hesabat dövründə xalis mənfəət (zərər) | - | - | *1 761 125* | *1 761 125* |
| Dividend | - | - | *(1 120 000)* | *(1 120 000)* |
| Düzəliş | - | - | *(793 771)* | *(793 771)* |
| **2021-ci il dekabrın 31-nə qalıq** | **2 000** | **-** | **437 039** | **439 039** |
| ***2021-ci il üzrə kapitalda ümumi dəyişikliklər*** | - | - | *(152 646)* | *(152 646)* |

**Pul vəsaitlərinin hərəkəti haqqında hesabat**

| | | |
|---|---|---|
| Müştərilərdən daxil olan pul vəsaitləri | 7 515 096 | 9 989 968 |
| Təchizatçılara və işçilərə ödənilən pul vəsaitləri | (4 648 944) | (9 617 414) |
| **Əməliyyatlardan əldə olunan pul vəsaitləri** | **2 866 152** | **372 554** |
| Ödənilmiş mənfəət vergisi | - | - |
| **Əməliyyat fəaliyyətindən xalis pul vəsaitlərinin hərəkəti** | **2 866 152** | **372 554** |
| Əsas vəsaitlərin satışı | - | 52 510 |
| Əsas vəsaitlərin alışı | (46 544) | (314 153) |
| Alınmış faizlər şəklində pul vəsaitlərinin daxilolmaları | - | - |
| Digər tərəflərə verilmiş qısamüddətli və uzunmüddətli borclar üzrə pul vəsaitlərinin daxilolmaları | - | - |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti**<br>Dividend ödənişi | **(46 544)**<br>(2 847 100) | **(261 643)**<br>(626 300) |
| Borc şəklində alınmış pul vəsaitlərinin daxilolmaları | | 499 458 |
| Borc şəklində alınmış pul vəsaitlərinin xaricolmaları | | (220 122) |
| Uzunmüddətli öhdəliklərin azalması (artması) | 24 320 | |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən yaranan pul vəsaitlərinin hərəkəti** | **(2 822 780)** | **(346 964)** |
| Mübadilə məzənnələrinin dəyişməsinin təsiri | | |
| **Pul vəsaitləri və onların ekvivalentlərinin artması (azalması)** | **(3 172)** | **(236 053)** |
| Pul vəsaitləri və onların ekvivalentləri, *ilin əvvəlində* | 124 427 | 360 480 |
| Pul vəsaitləri və onların ekvivalentləri, *ilin sonunda* | 121 255 | 124 427 |
| **Pul vəsaitləri və onların ekvivalentlərinin komponentləri** | **-** | **-** |
| Pul vəsaitləri | 121 255 | 124 427 |
| Bank depozitləri | - | - |

**"Tax Audit" MMC**
**MÜSTƏQİL AUDİTORUN HESABATI**
**"EXOL AZERBAIJAN" QSC-nin səhmdarlarına və rəhbərliyinə!**

***RƏY***

Biz, "Exol Azerbaijan" QSC-nin (bundan sonra cəmiyyət) 2022-ci il dekabrın 31-nə maliyyə vəziyyəti, mənfəət , zərər və digər məcmu gəlirlər, kapitalda dəyişikliklər və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti haqqında hesabatlarından, habelə mühasibat uçotunun əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən izahedici qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

Bizcə, əlavə edilmiş maliyyə hesabatları cəmiyyətin 2022-ci il dekabrın 31-nə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun bütün əhəmiyyətli aspektlərdə düzgün əks etdirir

***Rəy üçün əsaslar***

Biz, auditi Beynəlxalq Audit Standartlarına (BAS-lara) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən maliyyə hesabatlarının auditinə aid etik normalarla Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının Peşəkar Mühasiblərin Etika Məcəlləsinin tələblərinə uyğun cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu məcəllənin tələblərinə uyğun yerinə yetirmişik. Bizcə, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

***Əsas audit məsələləri***

Əsas audit məsələləri bizim peşəkar mühakiməmizə görə cari dövrün maliyyə hesabatlarının auditində ən əhəmiyyətli məsələlərdir. Bu məsələlər maliyyə hesabatlarının auditi baxımından və maliyyə hesabatlarına dair rəyimizin formalaşdırılmasında bütövlükdə nəzərə alınmış və biz bu məsələlərə aid ayrılıqda rəy vermirik.

***Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti***

Rəhbərlik, maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun hazırlanmasına ,düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı ,yaxud bunu etməkdən başqa münasib alternativ yaranmadığı halda, rəhbərlik cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər cəmiyyətin maliyyə hesabatlarının təqdim edilməsi prosesinə nəzarətə görə məsuliyyət daşıyırlar.

***Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti***

Bizim məqsədimiz təqdim edilmiş maliyyə hesabatlarında dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını tərtib etməkdir. Kafi əminlik, əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun aparılmış audit onu həmişə aşkarlasın. Təhriflər, dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda, yaxud məcmu olaraq istifadəçilərin maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmək ehtimalı yarandığı halda əhəmiyyətli hesab olunur.

**Direktor və auditor - Rəşid Balakişiyev, 10 yanvar 2023-cü il.**

# Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Geologiya və Geofizika İnstitutu

*2023-cü il üçün aşağıdakı ixtisaslar üzrə doktorantura və dissertanturaya qəbul elan edir*

**Doktorantura (fəlsəfə doktoru hazırlığı üzrə)**

2507.01 – "Geofizika, faydalı qazıntıların geofiziki axtarış üsulları" 1 yer (əyani)
2508.01 – "Geoekologiya" – 1 yer (əyani)
2512.01 – "Ümumi və regional geologiya" – 1 yer (əyani)
2515.01 – "Petrologiya, vulkanologiya" – 1 yer (əyani)
2518.01 – "Hidrogeologiya" – 1 yer (əyani)

**Dissertantura (elmlər doktoru hazırlığı üzrə)**

2506.01 – "Geologiya"– 2 yer

**Dissertantura (fəlsəfə doktoru hazırlığı üzrə)**

2506.01 – "Geologiya" – 1 yer
2507.01 – "Geofizika, faydalı qazıntıların geofiziki axtarış üsulları" – 1 yer
2508.01 – "Geoekologiya" – 1 yer

QEYD – 1. Doktorantura və dissertanturaya qəbul yerləri ödənişsizdir.

2. Doktorantura və dissertanturaya sənəd qəbulu "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi" (TMİS) vasitəsilə elektron qaydada həyata keçiriləcəkdir. Sənəd təqdim etmək istəyən şəxslər Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin portal.edu.az saytına daxil olmalı, orada "Ali və orta ixtisas təhsili müəssisələrinə təhsilalan qeydiyyatı" xidmətini seçərək, təlimatlara uyğun olaraq qeydiyyatdan keçməlidirlər.

3. Sənədlərin təqdim edilmə müddəti – 2023-cü il aprelin 12-dən mayın 16-dəkdir. Telefon- 510 -01 -41 (143).

# Odlar Yurdu Universiteti 2023-cü il üçün doktoranturaya və dissertanturaya qəbul elan edir

| İxtisasın şifri | Elm sahələri və ixtisaslar | Fəlsəfə doktoru proqramı üzrə | | |
|---|---|---|---|---|
| | | Doktoranturaya qəbul planı | | Dissertanturaya qəbul planı |
| | | Dövlət sifarişli və ödənişli əsaslarla | | |
| | | əyani | qiyabi | |
| 2414.01 | Mikrobiologiya | | | 1 |
| 3338.01 | Sistemli analiz, idarəetmə və informasiyanın işlənməsi | 1 | 1 | 1 |
| 5308.01 | Ümumi iqtisadiyyat | 1 | 1 | 2 |
| 5312.01 | Sahə iqtisadiyyatı | 1 | 1 | |
| 5704.01 | Dil nəzəriyyəsi | 1 | | 2 |
| 6107.01 | Ümumi psixologiya | | 1 | 1 |

**Sənəd qəbulu 2023-cü il aprelin 12-dən mayın 13-dək portal.edu.az saytında olacaqdır.**

**Ünvan-Bakı şəhəri, K.Rəhimov küçəsi 13, Odlar Yurdu Universiteti, 402-ci otaq, əlaqə telefonları- +99450-378-86-30, +99412-465-67-05.**

# "Azərrabitəinşaat" ATSC səhmdarlarının nəzərinə!

"Azərrabitəinşaat" ATSC səhmdarlarının növbədənkənar ümumi yığıncağı 14 iyun 2023-cü il saat 15.00-da Nəsimi rayonu, akademik H.Əliyev küçəsi 10/61 nömrəli ünvanda keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. Təşkilati məsələ – cəmiyyətin idarə heyətinə yeni sədrin seçilməsi.
2. Maliyyə çətinliklərinin müzakirəsi.

***İdarə heyəti***

# Kosmosu fəth edənlər...

**12 Aprel Beynəlxalq Kosmonavtika Günüdür. Bu tarix əvvəllər yalnız keçmiş SSRİ-də yad edilirdi. Sonradan BMT Baş Assambleyasının 65-ci sessiyasında yekdilliklə qəbul edilən qətnaməyə əsasən, 12 Aprel Beynəlxalq Kosmosa Uçuş Günü (Space Probe Day) kimi bütün dünyada qeyd olunur.**



Məlum olduğu kimi, 1961-ci il aprelin 12-də sovet vətəndaşı Yuri Qaqarin "Vostok" kosmik gəmisində Yer kürəsinin ətrafında orbital uçuş həyata keçirərək kosmik dövrün əsasını qoydu. Cəmi 108 dəqiqə davam edən bu uçuş kosmosun tədqiqinin və mənimsənilməsinin başlanğıcı oldu. Kosmosun tədqiq edilməsi ABŞ və SSRİ arasında strateji yarış şəklini alsa da, sonralar bu, bir əməkdaşlığa çevrildi. SSRİ dağıldıqdan sonra bu işi Rusiya Federasiyası davam etdirir.

1969-cu ildə isə ABŞ astronavtları ilk dəfə Ayın səthinə eniblər. Bu günə qədər kosmosa təqribən 517 insan uçub, onlardan 55-i qadındır. Dünyada ilk qadın kosmonavt məhz rus Valentina Tereşkovadır. Təəssüf ki, indiyədək 22 kosmonavt müxtəlif şəraitdə həyatını itirib.

Məlumat üçün bildirək ki, vətəndaşları kosmosa uçuş keçirən ölkələr bunlardır: SSRİ, Rusiya, ABŞ, Çexoslovakiya, Polşa, Almaniya, Bolqarıstan, Macarıstan, Vyetnam, Kuba, Monqolustan, Rumıniya, Fransa, Hindistan, Kanada, Səudiyyə Ərəbistanı, Niderland, Meksika, Suriya, Əfqanıstan, Yaponiya, Böyük Britaniya, Avstriya, Qazaxıstan, Belçika, İtaliya, İsveçrə, Ukrayna, İspaniya, Slovakiya, Cənubi Afrika Respublikası, İsrail, Çin, Braziliya, İsveç, Malayziya və Koreya Respublikasıdır.

Fəxrlə qeyd edək ki, sovet kosmonavtikasının baniləri arasında görkəmli həmyerlimiz Kərim Kərimovun da adı var. O, "R-22" raketlərinin istehsalında müstəsna rol oynayıb.1957-ci il oktyabrın 4-də belə raketlərdən birinin köməkliyi ilə dünyada ilk dəfə olaraq yerin süni peyki kosmik fəzaya çıxarılıb və bununla da planetimizdə kosmos dövrü başlanıb. Sovet kosmonavtlarının arasında Bakıda yaşayıb təhsil almış Vitali Jolobovun və həmyerlimiz Musa Manarovun da adları var.

Kosmosda hamıdan çox qalan da rusiyalı kosmonavtdır. Sergey Avdeyev açıq fəzada 747 sutka 17 saat keçirib. İxtisasca həkim olan Valeri Polyakov isə "Mir" stansiyasında bir ildən çox – 437 sutka 17 saat növbə çəkib.

**M.HACIXANLI,**
**"Xalq qəzeti"**

# "Türkoloji etüdlər" təqdim olunub



**Görkəmli türkoloq alim Minaxanım Təkləlinin "Türkoloji etüdlər" kitabının Azərbaycan Yazıçılar Birliyinin (AYB) Natəvan klubunda təqdimatı olub.**

Bakı Mühəndislik Universiteti nəzdində fəaliyyət göstərən "Azərbaycan multikulturalizmi" elm-tədris mərkəzinin professoru, AYB üzvü Minaxanım Təkləli ümumtürk mədəni irsi ilə bağlı ciddi araşdırmalar aparır, yorulmaz səylər göstərir. Sözügedən kitabın ərsəyə gəlməsi buna daha bir sübutdur.

Tədbirdə Əməkdar elm xadimi Tofiq Məlikli kitab haqqında məlumat verərək, onun türkologiya və dilçilik baxımından dəyərli nəşr olduğunu bildirib. Yazıçı-publisist, filologiya üzrə fəlsəfə doktoru Şəfəq Nasir M.Təklələlinin böyük türkçülük sevdasından bəhs edib və onun öz kitabları ilə bütün türk dünyasına, türkçülüyə elmi xidmət göstərdiyini vurğulayıb. Yazıçı-publisist, Əməkdar jurnalist Fazil Güney Minaxanım Təklələlinin bu araşdırmalarının təqdirəlayiq olduğunu qeyd edib. Digər natiqlər də kitab haqqında öz fikirlərini bölüşüblər.

Professor Minaxanım Təkləli təqdimata toplaşanlara təşəkkür edərək bildirib ki, bu kitabda araşdırmalarının əsasını bir çox rus sözlərinin, dövlətçilik ənənələrinin, dövlət atributları və simvollarının türkcədən gəlməsi, türk köklü olması təşkil edir.

***Ə.ƏLİYEV, "Xalq qəzeti"***

# Şahmatçılarımız Avropa Oyunlarına hazırlaşırlar

**Polşada keçiriləcək III Avropa Oyunlarında iştirak edəcək Azərbaycan şahmatçılarının adları açıqlanıb. Belə ki, bu nüfuzlu turnirdə ölkəmizi Şəhriyar Məmmədyarov və Günay Məmmədzadə təmsil edəcəklər. "Xalq qəzeti"nə eksklüziv müsahibəsində Azərbaycan Şahmat Federasiyasının I vitse-prezidenti Faiq Həsənov yarışda rəqabətin güclü olacağını bildirdi.**



Federasiya rəsmisi qeyd etdi ki, Avropa Şahmat İttifaqının böyük səylərindən sonra şahmat Avropa Oyunlarının proqramına salınıb: "Krakovda keçiriləcək Avropa Oyunlarında şahmat yarışları ilk dəfə təşkil ediləcək. Blits üzrə keçiriləcək yarışın rəqabət səviyyəsi yüksək olacaq. Qitənin ən güclü 8 komandası turnirdə mübarizə aparacaq. Hər komandanın heyəti 2 nəfərdən (1 kişi və 1 qadın şahmatçı) ibarət olacaq.

F.Həsənov onu da qeyd etdi ki, yarışa əmsalı 2600-dən yuxarı kişi, 2400-dən çox qadın şahmatçılar buraxılacaq. Ölkəmizi də ən güclü kişi və qadın şahmatçımız – Şəhriyar Məmmədyarov və Günay Məmmədzadə təmsil edəcəklər. Artıq onların yarışa hazırlığı başlayıb. Hər iki idmançımızın Avropa Oyunlarında yaxşı nəticə əldə etmək üçün böyük potensialları var. Şahmatçılarımızdan Avropa Oyunlarında qələbə gözləyirik.

Qeyd edək ki, komandanın heyəti ilə bağlı ərizə təşkilatçılara göndərilib. İştirakçı ölkələr Beynəlxalq Şahmat Federasiyasının martın 1-də açıqlanan klassik şahmat üzrə reytinqinə əsasən seçilib.

Reqlamentə görə komandalar dairəvi sistemlə mübarizə aparacaq. İlk dörd yeri tutacaq ölkələr pley-off mərhələsinə vəsiqə qazanacaqlar.

**Leyla QURBANOVA,**
**"Xalq qəzeti"**

# Dondurulmuş insanlar diriləcəkmi?

**Dünyada bir gün diriləcəyini gözləyən 250-dən çox dondurulmuş insan var. Onlar əsasən, xəstə insanlardır. Hazırda müalicəsi olmayan xəstəliyə tutulan insanların əksəriyyəti hesab edirlər ki, bir gün həmin xəstəliyin müalicəsi tapılacaq və onlar oyanıb həyat uğrunda mübarizəyə davam edəcəklər. İlk dondurulmuş insan xəstəlikdən əziyyət çəkən Kaliforniya Universitetinin psixologiya üzrə professoru, 73 yaşlı Ceyms Betforddur. O, artıq 51 ildir dondurulmuş vəziyyətdə saxlanılır. Professor 1967-ci il yanvarın 12-də dondurulub. O, ağciyər xərçəngindən əziyyət çəkirmiş. Artıq xərçəng hüceyrələrinin ağciyərlərinə yayıldığını biləndən sonra dondurulması barədə qərar verib. Onun bədəni mənfi yüz doxsan altı dərəcədə olan maye azotda, xüsusi hazırlanmış "krio" adlı dəmir silindrdə saxlanılır.**



Bəs insan necə dondurulur? Bütün bu proseslərə başlamazdan əvvəl damarlarda olan qan boşaldılır. Sonra bu insanların bədəninə "antifriz" adlanan və bütün orqanları qoruyan kimyəvi qarışıq doldurulur. Donmaq üçün hazırlanan bədən yuxarıda adını çəkdiyimiz dəmir silindrin içərisinə yerləşdirilir.

Hesablamalara görə, ABŞ-da bütün bədəni 200 min dollara, tək başı isə səksən min dollara dondurmaq mümkündür. Sadəcə, başlarını donduran insanlar gələcəkdə bir bədənə sahib ola bilməsələr də, beynindəki məlumatları bir robotun üzərinə köçürə biləcəklərinə inanırlar.

Lakin bir qrup mütəxəssis bildirir ki, bu mexanizm heç bir işə yaramır. Həmin insanları diriltmək mümkün olmayacaq. Onların fikrincə, xəstə insanları bu yolla aldadaraq onlardan qazanc üçün istifadə edirlər. Lakin insanları donduran şirkətlər bu iddiaları qəbul etmir.

Qeyd edək ki, insanları gələcəyə saxlamaq niyyəti ilə dondurmaq fikri ilk dəfə 1960-cı ildə meydana gəlib. O vaxtdan bu günə qədər dondurulma ilə bağlı mexanizmlər sürətli şəkildə inkişaf etməyə başlayıb. Belə ki, alimlər insanı artıq diri-diri yox, ölən kimi dondurmağın və gələcəkdə diriltməyin mümkün olduğunu qeyd edirlər. Buna görə də dünyada 1500-dən çox insan öldükdən sonra dondurulmasına razılıq verilməsi üçün bəzi şirkətlərlə müqavilə imzalayır.

***Fidan HÜQUQQIZI,***
***"Xalq qəzeti"***

# Süni intellekt kimləri əvəz edəcək?

**Texnologiyanın sürətlə inkişaf etdiyi dünyada süni intellekt sistemlərinin bir çox peşəni əvəz etməsi ehtimal edilir. Aparılan araşdırmalar süni intellektin gələcəkdə 300 milyon insanı işsiz qoyacağı proqnozlaşdırılır. Bəs bu sahələr hansılardır?**



**Proqram təminatı və kodlaşdırma.** Dövrümüzün ən çox tələb olunan sahələri arasındadır. Lakin süni intellekt proqramlarının yaxın gələcəkdə bunu dəyişdirəcəyi gözlənilir. "ChatGPT" kimi qabaqcıl texnologiyaların daha sürətli kod yaradacağı və daha az insan gücündən istifadə olunacağı düşünülür.

**Media.** Məlumatları daha yaxşı anlayan və yeni məzmun yarada bilən süni intellekt bu peşənin insanlarını da işsiz qoya bilər.

**Analitiklər.** Məlumatların təhlili və nəticələrin proqnozlaşdırılmasında çox uğurlu olan süni intellektin analitiklərin gördüyü işlərin çoxunun öhdəsindən gələ biləcəyi ehtimal edilir.

**Mühasiblər.** İnformasiyaların toplanmasını və təhlil edilməsini yüksək səviyyədə bacaran süni intellektin daha da inkişaf etməsi mühasibatlığa da təsirsiz ötüşməyəcəyi düşünülür.

**Müştəri xidməti.** Çatbotların yaradılması yaxın günlərdə müştəri xidməti nümayəndələrinin həyatını çətinləşdirə bilər. Belə ki, 2027-ci ilə qədər şirkətlərin, təxminən, 25 faizi üçün əsas müştəri xidmətinin süni intellekt olacağı proqnozlaşdırılır.

**Əfsanə ƏHƏDLİ,**
**"Xalq qəzeti"**

# Təhlükəsiz sensor şəbəkəsi

**Azərbaycan İnformasiya Texnologiyaları İnstitutunda kiber-fiziki sistemlərin (KFS) sensorlar şəbəkələrinin təhlükəsizlik problemləri araşdırılır.**



İnstitutdan mediaya verilən açıqlamada bildirilib ki, KFS müasir sensor, hesablama və şəbəkə texnologiyalarından istifadə edərək kiber-fiziki komponentləri effektiv şəkildə inteqrasiya edə bilən sistemdir. O, sensor, emal, idarəetmə və kommunikasiya imkanları olan aparat, proqram təminatı və sensorlarla təchiz edilib. KFS süni intellekt, əşyaların interneti, intellektual xidmətlər və proqramlar, informasiya təhlükəsizliyi, bulud hesablamaları və sosial şəbəkələrlə əlaqəlidir.

***"Xalq qəzeti"***

## HAVA PROQNOZU

✓ *Aprelin 12-də*

✓ **Bakıda və Abşeron yarımadasında** dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Mülayim cənub küləyi əsəcək. Gecə 9-12°, gündüz 16-21° isti olacaq. Atmosfer təzyiqi 756 mm civə sütunundan 751 mm civə sütununa enəcək, nisbi rütubət 65-75 faiz olacaq.

✓ **Naxçıvan şəhəri, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında** bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Arabir duman olacaq. Qərb küləyi əsəcək, arabir güclənəcək. Gecə 5-10°, gündüz 14-19° isti olacaq.

✓ **Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Ağdam, həmçinin Daşkəsən-Gədəbəy rayonlarında** bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə şimşək çaxacağı, dolu düşəcəyi, qar yağacağı ehtimalı var. Axşama doğru tədricən kəsiləcək. Bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək. Gecə 0-5°, gündüz 5-10° isti olacaq.

✓ **Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında** bəzi yerlərdə arabir yağıntılı olacağı, dağlıq rayonlarda qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək. Gecə 0-5°, gündüz 5-10° isti olacaq.

✓ **Qazax, Gəncə, Goranboy, Tərtər, Füzuli rayonlarında** gün ərzində bəzi yerlərdə fasilələrlə yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək. Gecə 6-10°, gündüz 15-20° isti olacaq.

✓ **Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Mingəçevir, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında** bəzi yerlərdə arabir yağıntılı olacağı, dağlıq rayonlarda qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gündüz tədricən kəsiləcək. Bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək. Gecə 4-9°, gündüz 14-19°, dağlarda gecə 2-6°, gündüz 6-9° isti olacaq.

✓ **Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Şirvan, Hacıqabul, Salyan, Neftçala rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək Gecə 7-12°, gündüz 17-22° isti olacaq.

✓ **Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin səhər bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Bəzi yerlərdə duman olacaq. Şimal-şərq küləyi əsəcək. Gecə 9-12°, gündüz 15-20°, dağlarda gecə 5-10°, gündüz 15-20° isti olacaq.

✓ **2000-ci ildə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi tərəfindən Manafov Süleyman Qurban oğlunun adına verilmiş 025435 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**

✓ **Quliyev Emil Həsən oğluna məxsus əmək kitabçası itib. Tapan şəxslərdən +994-55-224-11-44 nömrəli telefonla əlaqə saxlamaları xahiş olunur.**

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 5008
SİFARİŞ 909
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Əli NƏCƏFXANLI

Çapa imzalanmışdır 00:00